# QİYAMƏT GÜNÜ



HARUN YƏHYA
(ADNAN OKTAR)

Bütün kainatın alt-üst olduğu, yerin, göyün və ikisinin arasındakı hər şeyin yox olduğu qiyamət günü ilə mütləq qarşılaşacaqsınız. O gün sahib olduğunuz hər şeyin, hətta öz vücudunuzun belə sizdən uzaqlaşdığını görəcək və yeni bir yaradılışla dirildiləcəksiniz.

Sizi gözləyən sonsuz həyatda bu dünyadakı ilə müqayisəedilməz nemət, rahatlıq və hüzur əldə etmək üçün Allah`ın sizə hələ dünyada ikən verdiyi fürsəti dəyərləndirməlisiniz. Bunun üçün Allah`a iman etmək, Onun qarşılıqsız verdiyi nemətlərə şükür etmək və axirət gününün dəqiq həqiqət olduğuna inanmaq lazımdır.

Bu kitab sizə qiyamət gününü və o gün meydana gələcək hadisələri açıqlayır, o çətin günlə bağlı xəbərdar edir. Bu, çox əhəmiyyətli bir xəbərdarlıqdır. Çünki belə bir günün və sonrasının varlığından xəbərsiz yaşayan insan qiyamət günü ilə başlayan və sonsuza qədər sürən əzab içində yaşayacaqdır.



**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allah'ın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد





# QİYAMƏT GÜNÜ

Harun Yəhya (Adnan Oktar)



# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah'ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.



Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq,

uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah'ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah'ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# OXUCUYA

- Bu kitabda və digər fəaliyyətlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısilə Allah'ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Ona görə bu nəzəriyyənin yalan olduğunu insanlara göstərmək çox mühüm imani vəzifədir. Bu mühüm xidmətin bütün insanlara çatdırılması isə vacibdir. Bəzi oxucularımızın bəlkə bircə kitabımızı da oxuma imkanı yoxdur. Bu səbəbdən hər kitabımızda bu mövzuya xülasə şəklində də olsa bir bölmə ayrılmışdır.
- Kitabların məzmunu ilə bağlı digər cəhəti də nəzərə çatdırmaq lazımdır. Müəllifin bütün kitablarında imani mövzular, Quran ayələri işığında izah edilir, insanlar Allah'ın ayələrini öyrənməyə və yaşamağa dəvət olunurlar. Allah'ın ayələri ilə bağlı bütün mövzular oxuyanın ağlında heç bir şübhə və ya sual doğurmayacaq şəkildə açıqlanır.
- Buradakı izahlarda istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsdə oxunan kitablar" ifadəsinə tamamilə uyğun gəlir. Dini qətiyyətlə rədd edən insanlar belə bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar etmirlər.
- Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən fərdi şəkildə olduğu kimi, qarşılıqlı söhbət mühitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları birlikdə oxumaları, mövzu ilə bağlı öz fikir və təcrübələrini bir-birləri ilə paylaşmaları baxımından faydalı olar.
- Bununla yanaşı sadəcə Allah rizası üçün yazılmış bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmət olar. Çünki müəllifin bütün kitablarında sübut və inandırma çox güclüdür. Bu səbəbdən dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına sövq etməkdir.
- Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əlavə edilməsinin isə mühüm səbəbləri var. Bu sayədə kitabı əlinə alan şəxs yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan zövq aldığını ümid etdiyimiz bu kitabla eyni vəsflərə malik olan daha bir çox əsər olduğunu görəcəkdir. İmani və siyasi mövzularda faydalanacağı zəngin mənbə toplusunun mövcud olduğuna şahid olacaqdır.
- Bu əsərlərdə digər bəzi əsərlərdə görünən, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəs şeylərə qarşı ədəbə və hörmətə diqqət verilməyən üslublara, narahatlıq verən şübhəli və ümidsizliyə sürükləyən izahlara rast gələ bilməzsiniz.

Bu kitabda istifadə edilən ayələr Ə. Musayevin tərcümə etdiyi Qurani-kərim kitabından götürülmüşdür.

www.harunyahya.org - www.harunyahya.net - www.harunyahya.az

# İÇİNDƏKİLƏR


Giriş 8

Qiyamət günü yaxınlaşaraq gəlir 11

Qiyamət günü gerçəkləşəcək hadisələr 18

Kainatı Allah yaratdı 53

Kainatın ölümünün ardınca 84

Ölümlə başlayan əsl həyat 115

Nəticə 137

Təkamül yalanı 139

# GİRİŞ

**"Ay tutulacağı; Günəşlə Ayın birləşəcəyi zaman məhz o gün insan: "Qaçıb can qurtarmağa yer haradadır?" - deyəcəkdir. Xeyr, heç bir sığınacaq olmayacaqdır! O gün pənah aparılacaq yer ancaq Allah'ın hüzurudur". ("Qiyamə" surəsi, 75/8-12)**

Həyatınızı istiqamətləndirən adamlara, hadisələrə bir nəzər salın. Həyatda bir mərtəbəyə çatmaq üçün işləyir, həyat mübarizəsi içində yer tutmağa çalışırsınız. Həyatda bir çox şeyə olduqca böyük diqqət verir, bu mövzuların üzərində dərindən düşünürsünüz. Amma həyatınız boyunca tərəddüd etmədən düşünməkdən çəkindiyiniz mövzular da var. Üstəlik, ətrafınızdakı bir çox adam da sizinlə eyni fikirdədir. Haqqında danışılmaması və üzərində düşünülməməsi lazım olan mövzuları çox yaxşı bilirlər. Ölüm bunlardan biri, bəlkə də ən əhəmiyyətlisidir. Onların fikrincə, ölüm aydınlaşdırıb aça bilmədikləri bir sondur.

Eynilə ölüm kimi kainatın ölümünü gətirəcək qiyamət də insanlar tərəfindən çox uzaq, əlçatmaz bir anlayış kimi dəyərləndirilir. Qiyamət günündə həqiqətə çevriləcək hadisələr insanlar tərəfindən az-çox qavranılır, amma bunları düşünmək onları həm də qorxudur. Qorxu duymaqdansa, belə bir mövzunu unutmaq daha məntiqə uyğun görünür və insanlar bu şəkildə yaşamaqda yanlışlıq görmürlər.

İnsanlar ən çox qiyamət gününün canlı-cansız hər bir varlıq üçün

son gün olmasından təsirlənirlər. Qiyamət günü dünya həyatının, hətta bütün kainatın son günüdür, amma eyni zamanda da axirətdəki sonsuz həyatın başlanğıcıdır. O gün insanların hamısı yeni bir yaradılışla diriləcək və dünyadakı həyatlarında Allah'a və qarşılaşacaqları bu günə inanmış olanlar cənnətdə dincələrkən, inkarçılar cəhənnəmə sövq ediləcəklər. Beləliklə, belə bir günü gözləyən düşüncəli (ağıllı) bir insan üçün o, hələ bu dünyada ikən ölüm, qiyamət və axirət həqiqətlərindən qaçmağın bir mənası yoxdur. Əksinə, qiyamətdə meydana gələcək hadisələr və ölüm həqiqəti özünü daha artıq dərəcədə göstərəcək. Allah yolunda gözəl əməllərdə olmağa sövq edəcək, axirət inamına yönəldəcək və insanın Allah'a yaxınlaşmasına yol açacaq. Bənzərsiz hadisələrin həqiqətə çevriləcəyi qiyamət günü o böyük qorxunu yaşamayacaq insanlar sadəcə iman edərlər:

**"Xeyr, yaxşı işlər görüb özlərini Allah'a təslim edənlərin Rəbbi yanında mükafatı vardır. Onların heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər". ("Bəqərə" surəsi, 2/112)**

Dünyada ikən bu həqiqətə inanmış bir insan bu deyilənləri yerinə yetiribsə, o, çətin gündə artıq arxayınlıqda olacağını bilir. Çünki Qurana iman gətirmiş, hər hansı bir tərəddüd duymamış, əsl həyatın axirət həyatı olduğuna inanmışdır. Ölümün varlığını qulaqardı etməmiş, Allah'a ibadət etmək məsələsində lovğalanmamış, böyüklüyə qapılmamışdır. Belə bir insan axirət həyatında sonsuz gözəlliklə qarşılaşacaq. Qiyamət günündə isə Allah'ın nuru onunla olacaqdır. İman gətirənlər Quranda belə müjdələnir:

**"...O gün Allah Öz peyğəmbərini və onunla birlikdə iman gətirənləri xəcil etməz. Onların nuru önlərindən və sağ tərəflərindən axıb şölə saçarkən onlar belə deyəcəklər: "Ey Rəbbimiz! Bizim nurumuzu tamam-kamal elə və bizi**

**bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!" ("Təhrim" surəsi, 66/8)**

Bu kitab sizə qiyamət gününü və o gün meydana gələcək hadisələri açıqlamaqda, o çətin günlə bağlı xəbərdar etməkdədir. Ancaq əsas məsələ qiyamət gününün insanların hamısını gözləyən bir həqiqət olmasıdır. Mütləq yaşanacaq olan, mütləq qarşılaşacağımız bu böyük həqiqəti qulaqardı etmək və bunu düşünməmək yolverilməzdir və məqbul sayılmır. Bu kitabda Quran ayələri həqiqətləri işığında ediləcək açıqlama və izahlar qiyamət gününün varlığı və həqiqiliyi üzərində düşünməyinizi təmin edəcək.

Buradakı məqsəd sizləri hər nə olursa olsun, qarşılaşacağınız bu günə qarşı xəbərdar etmək, belə bir gündə təhlükəsizlik içində ola bilməyiniz və sonsuz cənnət həyatını qazana bilməyiniz üçün sizlərə yol göstərməkdir. Qiyamət gününün ağıllara durğunluq verən hadisələrə səhnə olacağı həqiqəti insanları üzərində düşünməyə yönəltməsi baxımından çox mühümdür. Bax, bu səbəblə, kitab boyunca sizlərə qiyamət vaxtının xüsusiyyətlərini incəlikləri ilə tərif edəcək və bunların həqiqiliyi üzərində duracağıq. Sonsuz həyatı təyin edəcək belə bir həqiqət üzərində düşünmək insanın özünü sadəcə çaşdırmaqdadır. Sizlər bu sətirləri oxuduqca insana heç bir fayda gətirməyəcək bu anlayışdan tam mənada çəkinmək lazım olduğunu və dərin-dərin düşünülməsi lazım olan əsl mövzunun mahiyyətini, şübhəsiz ki, daha doğru şəkildə anlayacaqsınız.

# QİYAMƏT GÜNÜ YAXINLAŞARAQ GƏLİR

**"O saat mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları dirildəcəkdir!" ("Həcc" surəsi, 22/7)**

Ölüm get-gedə yaxınlaşır. İstər gənc olun, istərsə də yaşlı, keçən hər gün, hətta hər dəqiqə ölümə bir az da yaxınlaşırsınız. Zamana mane ola bilmir və ölümün yaxınlaşmasına heç cür əngəl ola bilmirsiniz. Göstərdiyiniz səylərin heç biri sizi və ətrafınızdakıları hər şeyə baxmayaraq müvəqqəti olmaqdan ayırmır. Dünyadakı hər şey kimi siz də həyatınızı sona çatdıracaq günə doğru irəliləyirsiniz.

Ancaq dünyada ölümlü olanlar yalnız insanlar deyil. Digər bütün canlılar, yer üzü, hətta bütün kainat da ölümlüdür, onların hamısının yox olacaqları bir gün müəyyən edilmişdir. Bax, o gün son gündür. O gündən sonra dünya həyatı sona çatacaq. Qiyamət günü yalnız dəhşətin yaşandığı, ölçüləri heç bir insanın təsəvvür edə bilməyəcəyi qədər qorxunc, eyni zamanda, görkəmli bir son gün olacaq. Yer üzündəki hər şey yerlə bir olacaq, ulduzlar silinib töküləcək, günəş sönəcək. O vaxta qədər dünya üzərində yaşamış bütün insanlar bir araya toplanacaq və bu günə şahid olacaqlar. Bu son gün inkarçılar üçün çətin gündür və bu günün sahibi, şübhəsiz ki, aləmlərin Rəbbi olan Allah'dır.

Qiyamət yaxınlaşaraq gəlməkdədir. İnsanların çoxunun inamının əksinə olaraq qiyamət heç də uzaq deyildir. O gün dünya ilə birlikdə dünyaya aid olan hər şey də yox olacaq. Tamahkarlıqlar, acgözlüklər, istəklər, qızğınlıqlar, şəhvət, düşmənçilik və zövqlər sona çatacaq. Gələcəyə yönəlmiş planların heç bir mənası qalmayacaq. Allah'a qaytarılacağını unudan hər kəs üçün çox sevdiyi, sonsuz həyatdan üstün tutduğu dünyanın bütün o aldadıcı zənginlikləri, gözəllikləri və məşğuliyyətləri ilə birgə sona çatdığı gün gəlmişdir. Bax, o gün insanlar Allah'ın varlığına qəti bir biçimdə şahid olacaq, unutmamağa çalışdığı ölüm günü ilə qarşı-qarşıya qalacaqlar. Allah'ı və axirət həyatını unudaraq keçirdiyi bu qısa ömür artıq sona çatmışdır və yeni bir başlanğıcı gözləməkdədir. Bu başlanğıc əsla son olmayacaq və inkarçılara əsla xoşbəxtlik gətirməyəcək. Bu sonsuz həyatın ilk anından etibarən əzab elə şiddətlidir ki, bunu yaşayanlar əzabın yerinə ölümü və yox olmağı istəyəcəklər. Bu həyatın başlanğıcı qiyamət saatıdır. Və şübhəsiz ki, qiyamət saatı yaxınlaşaraq gəlməkdədir.

## Dünya həyatı müvəqqəti, ölüm isə mütləq həqiqətdir

Uşaqlığınızın ilk günlərindən etibarən gələcəyinizlə bağlı aşkar bir hədəfə yönəlir və ya başqaları tərəfindən yönləndirilirsiniz. Ehtimal ki, bunlarla qarşılaşırsınız: yaşınız artdıqca artıq ailəniz və işiniz olmuşdur; daha çox pul qazanmaq və daha rahat yaşamaq üçün cəhd göstərirsiniz; uşaqlarınızı yetişdirir, onların sizdən də gözəl həyat sürməsini istəyirsiniz; həftədə bir dəfə ailə toplantılarına qatılır, tətil edir, işə gedir, qalan vaxtınızı da evdə keçirirsiniz; bir neçə kəmkəsiri nəzərə almasaq, həyatınızda hər şey müntəzəm davam edir, əsasən, fövqəladə vəziyyətlərlə qarşılaşmırsınız.

Həyatınızdakı hər şey sanki daha əvvəlcədən müəyyənləşdirilmiş

kimidir, ətrafınızdakı insanların həyatı da bir-biri ilə böyük bənzərliklərə malikdir. Bu oxşar ssenarilərə görə yaşamaq üçün çalışmalı, nəslinizi davam etdirmək üçün də ailə qurmalısınız. Əslində, yaxşı bir ailə və yaxşı bir işdən əlavə həyatın başqa nə məqsədi ola bilər ki! Bunlar təmin edildikdən sonra xoşbəxt bir həyat barədə düşünürsünüz. Beləcə, hər şey rahat olacaq və həyatınızın qalan hissəsini rahatlıqla keçirəcəksiniz.

Halbuki, bunları düşünərkən bədəninizdə və ətrafınızda bəzi mühüm dəyişikliklər olur. Vücudunuzdakı fərqli funksiyalara sahib olan bir çox hüceyrə işini tamamlayıb ölür və yaşınız artdıqca bunların təzələnməsi daha da yavaş getməyə başlayır. Bədəniniz yaşlanır və bu yöndə davamlı əlamətlər, xəstəliklər, çatışmazlıqlar ortaya çıxır. Zaman sürətlə irəliləyir və geri dönmənin mümkünsüzlüyü özünü zaman keçdikcə daha açıq bir şəkildə göstərir. Siz sakit və rahat keçirməyi planlaşdırdığınız qalan ömrünüzdə get-gedə ölümə doğru yaxınlaşdığınızın fərqindəsiniz. Bax, bu səbəblə, dünya həyatı sizə gözlədiyiniz rahatlığı və sakitliyi həqiqi mənada əsla verməz. O ana qədər sizi bir çox cəhətlərdən qane etdiyini düşündüyünüz bu həyatın bir sonu vardır. Bax, bu sonun ardından əsl həqiqətlərlə üzüzə gəlinəcək. O halda, dünya həyatında hədəf seçdiyiniz heç bir şey sizin həqiqi məqsədiniz olmamalıdır. Çünki dünya həyatı yalnız müvəqqəti bir imtahan yeridir. Kimin daha gözəl davranış göstərdiyinin sınandığı yerdir. Allah bizə bu mühüm həqiqəti belə bildirir:

> **“Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, bağışlayandır”. (“Mülk” surəsi, 67/2)**

Həyatın həqiqi məqsədi yaxşı bir ailə və yaxşı bir iş deyil. Hər kəsin tək bir yaradılış məqsədi vardır - Allah’a qul olmaq. Dünyada əldə edilmiş mal-dövlət, həyat yoldaşı, uşaq, mövqe, etibar kimi qazancların hamısı həyat boyunca böyük bir tutqu ilə bağlanılan

dəyərlərdir. Fəqət, ölümün ilk anından etibarən bu dünyəvi qazanclar bütün dəyərini və əhəmiyyətini bir anda itirir. Bu, hər kəsin bildiyi, amma düşünməkdən çəkindiyi bir həqiqətdir. Buna görə də əsl məqsəd bu olmamalıdır. O zaman həqiqi məqsədin və qazancın nə olduğunu çox yaxşı düşünmək, qavramaq lazımdır. Budur, Allah yaradılışın əsl məqsədini ayədə belə bildirir:

**"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!" ("Zariyat" surəsi, 51/56)**

Ancaq Allah'a qulluq borcunun tam şəkildə yerinə yetirilməsi ilə ölümdən sonra başlayan axirət həyatı üçün gözəl bir ümid mövzu ola bilər. İnsanların böyük hissəsinin sahib olduğu yanlış bir ümid var. Xeyli insan bu ehtimala inanaraq özünü rahatlamağa çalışır. Halbuki, bu, böyük bir yanlışlıqdır. Əgər bir insanın axirətə, ölümdən sonrakı həyatda yaşamağa ümidi yoxdursa, o zaman da geriyə tək bir ehtimal qalır: ölümlə birlikdə sonsuzadək yox olmaq! Bu ehtimal isə digərləri ilə müqayisədə daha çox qorxu yaradır. Allah'a qulluq etməyi rədd edən insanlar bu ehtimaldan qorxduqları və onu unutmaq istədikləri üçün özlərinə çeşidli üsullar icad edirlər. Ümumilikdə bu üsulların hamısı eynidir: ölüm söhbət mövzusu olmaz, onun barəsində danışılmaz, o, müzakirə edilməz, xatırladılmaz. Halbuki, ölüm yaşanılacağı mütləq olan bir həqiqətdir, amma onunla sanki yoxmuş kimi davranılır. Cəmiyyətin böyük bir qisminin bu məntiqə sahib olması insanda bir rahatlığa səbəb ola bilər. Halbuki, onun özü kimi digər insanlar da aldanmaqdadır. İnsanlar ölümü, qiyamət gününü və axirəti bilir, amma bu haqda düşünmürlər. Onlar dünya həyatı ilə qənaətlənir, daha doğrusu, bununla qane olmağı istəyirlər. Halbuki, Allah Quranda insanların qaçdığı ölüm gerçəyi ilə mütləq qarşılaşacağını bildirir. Ayədə belə buyurulur:

**"De: "Qorxub qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır. Sonra siz gizlini də, aşkarı da bilənin hüzuruna qay-**

**tarılacaqsınız. O da sizə nələr etdiyinizi xəbər verəcəkdir!" ("Cumuə" surəsi, 62/8)**

Ölüm yalnız insanlara məxsus deyildir. Müvəqqəti olan dünya həyatında insan kimi hər şey ölümlüdür. Allah bizə bütün kainatın içindəki canlılarla birlikdə yox olacağı bir günün varlığını, yəni qiyamət gününü bildirmişdir. Qiyamət günü imtahanın başa çatdığı son gündür. Yer üzündəki hər insan o günün gəlməsini bir xeyli əlamət əsasında anlayacaq və kainatın ölümü ilə nəticələnəcək hadisələr, həqiqətən də tükürpərdici olacaq. Və ən nəhayət, dünyadakı bütün insanlar qiyamətin həqiqətə çevrildiyi gün onları gözləyən yenidən dirilişi qavrayacaq. Belə bir günlə qarşılaşmağı gözləməyənlər üzləşdikləri bu açıq-aydın həqiqəti rədd edə bilməyəcək və Allah'ın əmrinə istəyib-istəməsələr də, boyun əyəcəklər. Allah bütün kainat üçün böyük bir aqibət hazırlamışdır. İnsanların çoxu hər nə qədər inkar etməyə çalışsa da, qiyamət saatı onları müəyyən edilmiş bir vaxtda gözləyir.

## Qiyamət günü mütləq həqiqətdir

Daha əvvəl bəhs etdiyimiz kimi, dünyanın müvəqqəti dəyərlərinə sahib olmağı özü üçün yetərli görən insanlar həqiqətdən çeşidli üsullarla qaçırlar. Ölüm bütün gerçəkliyi ilə yan-başlarında ikən bunu qulaqardı edir, yenidən diriləcəkləri günü də unutmağa çalışırlar. Onların nəzərincə, bunları düşünməmək bir nicat yoludur. Beləliklə, insanlar Allah qarşısındakı vəzifələrini ağıllarına gətirməyərək yalnız öz gücləri hesabına yaşaya biləcəklərini zənn edirlər. Halbuki, qiyamət günü mütləq bir həqiqətdir. Bu həqiqət vəhy yolu ilə Quranda bildirilmişdir.

Eyni zamanda, Quranda qiyamət günündə həqiqətə çevriləcək hadisələrin təsvirləri də verilir. Olduqca müfəssəl şəkildə anladılan qiyamət vaxtında yer üzündə və bütün kainatda olacaqları hadisələr,

bununla yanaşı, insanların ruhi vəziyyəti, onların bütün varlığına hakim olacaq böyük çaşqınlıq, qorxu, vəhşət və təlaş açıq bir şəkildə anladılır. Şübhəsiz, kainat qüsursuz olaraq yoxdan yaradıldığı kimi, yenə qüsursuz və fövqəladə şəkildə sona çatacaq. Planetlər orbitlərini tapa bilməyəcək, dağlar yerindən oynayacaq. Daha əvvəl hər şeyin təsadüf ola biləcəyi bəhanəsi ilə Allah'ı inkar edənlər bütün nizam və tarazlığı alt-üst edən bu mütləq hadisələr qarşısında təsadüflərin deyil, yalnız Allah'ın hökmünün əsaslı olduğunu anlayacaqlar:

**"De: "Göylərdə və yerlərdə olanlar kimindir?" De: "Allah'ındır!" O, Özü Özünə rəhmli olmağı yazmışdır. Olacağına heç bir şübhə edilməyən qiyamət gününə sizi O toplayacaqdır. Özlərinə zərər vuranlar, əlbəttə, iman gətirməzlər!" ("Ənam" surəsi, 6/12)**

**"Sur bircə dəfə üfürüləcəyi; yer və dağlar qaldırılıb bircə dəfə bir-birinə çırpılacağı zaman - məhz o gün qiyamət qopacaqdır!" ("Haqqə" surəsi, 69/3-15)**

## Qiyamət günü müəyyən edilmiş bir vaxtdır

Zaman irəlilədikcə qiyamətin baş verəcəyi ana doğru sürətlə yaxınlaşırıq. İnsanların böyük çoxluğu qiyamət vaxtını özlərindən çox sonrakı nəsillərin qarşılaşacağı bir hadisə sayır. Burada bu həqiqəti xatırlatmaq faydalı olardı. Heç şübhəsiz ki, bizlərdən əvvəlki nəsillər də eyni düşüncə ilə hərəkət ediblər və uzaq gələcəkdəki bu hadisəni əsla düşünməyiblər. Elə isə dünya üzərində ilk insanın yaradılışından etibarən yaşamış olan bütün adamlar qiyamət günü gerçəkləşəcək hadisələrin şahidi olacaq, Allah'ın hüzurunda toplaşacaq və heç kimsə üçün bir qaçış mümkün olmayacaqdır. Üstəlik, siz gündəlik həyatınıza davam edərkən, gələcək üçün planlar hazırlayarkən bu

günün olmayacağına dair bir zəmanət də yoxdur. Mütləq gerçəkləşəcək qiyamətin vaxtı yalnız Allah tərəfindən müəyyən edilib və onun vaxtını yalnız Allah bilir. Ayələrdə bu mövzu ilə bağlı belə buyurulur:

**“De: “Məni sizin qorxudulduğunuz əzabın yaxın olduğunu, yaxud Rəbbimin onun üçün uzun bir müddət təyin edəcəyini bilmirəm! Qeybi bilən ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz”. (“Cin” surəsi, 25-26)**

Allah böyük bir nizam içində yaratdığı həyatı bizim bilə bilmədiyimiz bir vaxt bütün nizamı ilə birlikdə sona çatdıracaq. İnsanların böyük bir çoxluğu bu aqibətə şübhə etməyi və buna inanmamağı məqbul sayır və bu səbəblə, inkarçılığı üstün saymış ola bilir. Ancaq tərif edilən bu son gün inkarçılar üçün olduqca çətin, qorxulu bir gün olacaq. Bu səbəblə, inanmayaraq olacaqları gözləmə yerinə, varlığına şübhə duymadan qiyamət gününə iman etmək insanı onun özü üçün daha çox əhəmiyyətli və qazanclı bir nəticəyə çatdıracaq. Çünki dünyada xərclədiyi cəhdlərin boş bir səy olduğunu qiyamət saatı ilə anlayan bir insanın peşmançılığı izahı olduqca çətin olan çox şiddətli bir peşmançılıqdır. Allah bir ayədə belə buyurur:

**“O böyük bəla (qiyamət) gələndə, o gün insan nələr etdiyini yadına salacaqdır”. (“Naziyat” surəsi, 34-35)**

# QİYAMƏT GÜNÜ GERÇƏKLƏŞƏCƏK HADİSƏLƏR

Qiyamət günü bütün insanlar aləmlərin Rəbbinin hüzurunda duracaqlar ("Mutəffifin" surəsi, 6). O gün canlılarla birlikdə bütün kainatın yox olduğu dəhşətli bir gündür. Bu yoxolma indiyə qədər heç bir yerdə görünməmiş hadisələr nəticəsində gerçəkləşəcək. O gün insanların, heyvanların, var olan (yaradılan) hər şeyin, qısası, bütün kainatın ölüm günüdür. O gün Allah'ın böyük qüdrətinin açıq şəkildə görüldüyü və insanların hamısı tərəfindən dərk edildiyi gündür. O gün inkarçılar üçün dəhşət, qorxu və ağrı-acı dolu bir gündür. O gün daha əvvəl yaşanmamış bir peşmançılıq, qorxu və təhqir edilmənin hiss ediləcəyi gündür.

Qiyamət gününün xüsusiyyətləri Quran ayələrində çeşidli bənzətmələrlə müfəssəl şəkildə anladılır. Bu bölümdə Quranda qiyamət günü gerçəkləşəcəyi bildirilən hadisələrin ətraflı təsviri verilib və Allah'ın ayələrdə bildirdiyi hadisələrin işarə etdiyi mənalardan bəhs ediləcək. Əlbəttə, hər şeyin ən doğrusunu Allah bilir və Allah'ın elmi sonsuzdur. Biz isə hər mövzuda olduğu kimi, qiyamət mövzusunda da yalnız Onun bizə bildirdiyi və öyrətdiyi qədər anlada bilərik.

Bu bölümdə anladılan hadisələrin hamısının qaynağı Quran ayələridir və onların hamısının gerçəkləşəcəyi qətidir. Bütün

təsvirlərin gerçəkləşmə şəkli də Allah tərəfindən müəyyən edilmişdir. Fəqət bu hadisələr təxmin ediləndən daha çox fərqli formalarda gerçəkləşə bilər. Bizim qəti olaraq bildiyimiz şey Allah'ın vəd etdiyi hadisələrin mütləq yaşanacağı, insanların qiyamət günündə daha əvvəl heç qarşılaşmadıqları qeyri-adi bir mənzərə ilə qarşı-qarşıya qalacaqları və kainatın onun içindəki bütün canlılarla birlikdə tamamilə yox olacağı həqiqətidir. İnsanların isə bütün bunların səbəbini öyrənmə, bu fəlakətlərdən qaçıb qurtula bilmə, yaxud da çıxış yolu axtarmaq kimi bir ehtimalları olmayacaq. O gün hər kəsin görəcəyi həqiqət Allah'ın və axirətin varlığıdır.

## Sura üfürülməsi

### <u>Qiyamət sura üfürülməsi ilə başlayır</u>

**"Sur çalınacaqdır. Bu, vəd olunmuş gündür!" ("Qaf" surəsi, 20)**

Sura üfürülməsi Allah'ın Quranda vəd etdiyi qiyamət saatının artıq gəlib çatdığını xəbər verir. Bu səs dünya həyatının bitməsinin və axirətin başlanğıcının səsidir. Dünyada qaldığı müddət boyunca bu böyük gündə görəcəkləri barədə xəbərdar edilən və verəcəyi hesabla xəbərdar edilib qorxudulan hər kəs artıq ona vəd edilən həqiqətlə qarşı-qarşıyadır. Heç gözləmədikləri bir anda eşitdikləri bu səs daha əvvəl eşidilən səslərə əsla bənzəməyən bir səsdir. İnsanlar özlərinə verilən müddətin (vaxtın) son olduğunu bu işarədən anlayacaqlar. Bu səs küfr edənlərin əbədiyyətə qədər davamlı olaraq yaşayacaqları qorxu, dəhşət dolu çətin bir günün başlamasının müjdəçisidir. Allah bir ayədə belə buyurur:

**"Elə ki, sur çalındı, o gün çox ağır bir gün olacaqdır. O**

**gün kafirlər üçün asan olmayacaqdır!" ("Müddəssir" surəsi, 8-10)**

Dünya üzərində var olan nizamın diqqət çəkici bəzəyinə aldanaraq ona sıx bağlananlar Allah'ın varlığı və birliyi həqiqətinə qarşı kordur. Bütün bunların yaradıcısını, yaradılışını və bir sona doğru sürətlə irəlilədiyini əsla düşünmədən sadəcə aldandıqları bu görüntü ilə kifayətlənib xoşbəxt olurlar. Halbuki, onları aldadan bu qüsursuz nizam hər şeyin sahibi olan Allah'ın əsəridir. Allah'ın yaratdığı bu görkəmli sistem yenə onun tək bir əmri ilə ağıllara durğunluq verəcək bir şəkildə sona çatacaq. Bax, belə bir günlə qətiyyən qarşılaşmayacaqları zənnində olanlar surun səsi ilə bu qəflətdən dərhal oyanacaqlar. Ancaq bu oyanma faydasızdır, çünki Allah və axirət adına bir şey etmək üçün artıq çox gecdir.

Gecikmişlər, çünki bəzi insanlar bu imtahana tabe olduqları dünya həyatını axirətin varlığını unudaraq boşuna xərcləyiblər. Axirətə inanmayan insanların belə bir anlayışa sahib ola bilməsinin arxasında çox şəxsi bir cəhd dayanır. Bu səyin də mahiyyəti və əvəzi olduqca böyükdür. Bunun təməlindəki səbəb dünyadakı bu məhdud həyatla qane olmaq, daha əvvəlini və ya sonrasını mümkün olduqca düşünməməkdir. Bu anlayış dünya həyatının müvəqqəti ləzzətlərinə dalaraq nə üçün yaradıldığını unutmağı da özü ilə gətirir. Buna görə də insanların çoxu niyə yaşadıqlarını, nə üçün yaradıldıqlarını, Yaradanın onlardan nələr istədiyini və ölümün nədən var olduğunu düşünmədən bir ömür sürür. Ölüm bildikləri bir şeydir, amma ölüm həqiqətinin onlara üzərində düşünmələri lazım olan bu kimi sualları da gətirəcəyinin fərqindədirlər. Bunun üçün bu fikirdən mümkün qədər uzaqlaşmağa çalışırlar. Halbuki, insanın yaradılışının və onun dünya üzərindəki qısa həyatının səbəbi yalnız Allah'a qulluq etməkdir. Ölümün yaxınlığının, dünya həyatının qısalığının, sahib olduğu və olmadığı hər şeyin sadəcə imtahanın bir parçası olmasının fərqində olan insanlar Quran vasitəsilə insanlara tərif edilmiş olan

həqiqətlərlə də mütləq qarşılaşacaqlarının fərqindədirlər. Beləliklə, dünyadakı tək məqsədin Allah üçün yaşamaq olduğunu qavraya biliblər. Bunu dünyada ikən qavramaq insan üçün böyük bir qazancdır. Beləliklə, aldadıcı bir dünyadan uzaqlaşır, yeganə həqiqətə, yəni axirətə yönəlirlər.

Nəfsinin, yəni sadəcə həzz və həvəsinin ardınca gedərək hərəkət edən bir insanın ən böyük istəyi bu durumunun həmişə davam etməsi, onun əsla sonunun olmamasıdır. Öz halından, əslində, çox da məmnun deyildir, çünki həyatında davamlı çətinlik və sıxıntılar vardır. Amma şeytan bütün fikrini dağıdıb başını qarışdırmaq üsulu ilə onu aldadır, davamlı sıxıntı və üzüntü çəkdiyi bu həyatı sonsuz əzaba inanmağı rədd edərək üstün tutur. Ancaq bir səhər işə gedərkən və ya gecənin bir vaxtı niyyət və ümidlərini növbəti sabaha qədər təxirə salıb yatmağa hazırlaşarkən birdən-birə surun səsini duyan bir insanın ruhi vəziyyəti, şübhəsiz ki, çarəsiz olacaq. Davam etdirmək istədiyi nizamın onun elə özü ilə birlikdə son dəqiqələri gəlmiş, bildiyi halda inanmağı rədd etdiyi bu mütləq həqiqət onu anidən yaxalamışdır. Həyatı boyu özünü qoruyacağını sandığı güclərə sığınmış bir insan üçün artıq o an yardım istəyə biləcəyi kimsə, ya da sığına biləcəyi heç bir yer yoxdur. Çünki hər kəs eyni vəziyyətdədir, çarəsizlik içində başlarına gələcəklərə təslim olublar, dünya üzərində o zamana qədər yaşamış olan bütün insanlar Allah'ın hüzurunda toplanıblar.

**"Sur çalınan kimi qəbirlərindən qalxıb sürətlə Rəbbinin hüzuruna axışacaqlar". ("Yasin" surəsi, 51)**

Surun səsi bir inkarçı üçün həyatı boyunca qaçdığı həqiqətlərlə qarşılaşma demək olduğu kimi, artıq etdiklərinin əvəzi imkanının ortadan qalxdığı anı da ifadə edir. O an duyulan qorxunu sözlə ifadə etmək mümkün deyil, daha əvvəl nə görünmüş, nə də eşidilmiş bir dəhşət və təlaş yaşanmaqdadır. Dünya həyatında edilən bütün xətaların bir əvəzini ala bilər, ya da vaxt keçdikcə bu xətalar unudula

bilər. Ancaq hər şeyin sonunun gəldiyini bildirən bu səs edilən xətaların əvəzinin verilməsi üçün artıq vaxtın qalmamasının xəbərçisidir. O gün surun səsi inkarçılara böyük bir qorxu gətirəcək və hər adam qarşılaşdığı bu həqiqətə boyun əyəcəkdir. Allah bu vəziyyəti Quranda belə xəbər verir:

**“Sur çalınacağı gün Allah’ın istədiklərindən başqa, göylərdə və yerdə olanlar dəhşətli bir qorxuya düşər və onların hamısı Onun hüzuruna müti vəziyyətdə gələr”. (“Nəml” surəsi, 87)**

Halbuki, bu həqiqət insanların hamısına qarşılaşdıqları belə bir gündən əvvəl xatırladılmışdı. Allah insanları həm ayələri, həm də elçiləri ilə geri dönüşü olmayan bir gün gəlmədən öncə Ona doğru yönəlmək barədə xəbərdar etmiş, əks davranış tərzi göstərənlərə isə ölüm gəldikdən sonra yardım edilməyəcəyini bildirmişdir. Gözləmədiyi bir anda əzabla qarşılaşan adamın duyacağı peşmançılıq və ona heç bir şəkildə yardım edilməyəcəyi həqiqət Quranda bu şəkildə açıqlanmışdır:

**“Rəbbinizə dönün. Əzab sizə gəlməmişdən əvvəl Ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz! Qəfil əzab özünüz də bilmədən başınızın üstünü almamışdan əvvəl Rəbbinizdən sizə nazil edilmiş ən gözəl sözə tabe olun! Bir kəs: “Allah’a itaət barəsində etdiyim təqsirlərə görə vay halıma! Həqiqətən, mən istehza edirdim!” - deməsin. Yaxud: “Əgər Allah məni doğru yola yönəltsəydi, mən mütləq müttəqilərdən olardım!” - söyləməsin. Və ya əzabı gördüyü zaman: “Kaş bir dəfə də qayıda biləydim; yaxşı işlər görənlərdən olardım!” - deməsin! “Xeyr, Mənim ayələrim sənə gəlmişdi, amma sən onları yalan saydın, təkəbbür göstərdin və kafirlərdən oldun!” Qiyamət günü Allah’a qarşı yalan uydurub söyləyənlərin üzlərini qap-**

**qara görərsən. Məgər təkəbbür göstərənlər üçün cəhənnəmdə yer yoxdur?!" ("Zumər" surəsi, 54-60)**

Müvəqqəti bir mənafe naminə üstün tutulan dünya həyatı surun səsi ilə artıq sona çatır. Bütün insanlar onlara vəd edilənlərlə qarşı-qarşıyadır. Meydana gələn hadisələrin gerçəkliyinin insanlarda doğurduğu qorxu və dəhşət hissi çox böyükdür. Bütün insanlar eyni çağırışa tabe olur, geriyə dönüşü olmayan həqiqətlə qarşılaşdıqlarının fərqinə varırlar. Bu, şübhəsiz ki, böyük bir gündür və bu böyük gündə meydana gələcək hadisələr üçün surun səsi sadəcə olaraq bir xəbərçidir.

## Qiyamət anında yer üzünün vəziyyəti

### Şiddətli sarsıntılar başlayacaq

**"Yer özünə məxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman; Yer öz yükünü çıxardıb atacağı zaman; Insan: "Buna nə olub?" - deyəcəyi zaman - məhz o gün öz Yer hekayətini söyləyəcəkdir. Çünki ona sənin Rəbbin vəhy etmişdir!" ("Zilzal" surəsi, 1-5)**

Qiyamət günü hər canlının duya biləcəyi surun səsini qulaqları partladan bir gurultu əvəzləyər və yer üzü əvvəllər tayı-bərabəri görünməmiş bir sarsıntıya tutular. Nəhəng ölçülərdəki dağlar, ağaclar, göydələnlər, binalar, qısası, yer üzünün hər nöqtəsi eyni anda sarsılmağa başlayar. Bundan əvvəl heç rastlanmamış bu sarsıntı qarşısında insanlar böyük təşviş və qorxuya qapılarlar. Ən qorxuncu isə bu sarsıntıdan qaçacaq, ya da sığınıb qurtula biləcək heç bir yerin olmamasıdır. Çünki bu sarsıntı daha əvvəl insanların gördüyü və yalnız

müəyyən bir bölgədə, yaxud şəhərdə meydana gələn və bir neçə saniyə davam edən zəlzələlərin bənzəri deyil. Bu dəfə yaşanan sarsıntı heç bir qaçışın olmadığı, eyni anda dünyanın dörd bir yanında başlayan və dünyanı yerlə-yeksan edəcək bir sarsıntıdır. Dünyanı yerlə-yeksan edənə qədər də sonu olmayacaq (ən doğrusunu Allah bilir). İnsanların qiyamət günü qarşılaşacağı sarsıntını Allah Quranda belə bildirmişdir:

**“O gün sarsılanı sarsılacaq. Onun ardınca bir sarsıntı da olacaqdır! O gün ürəklər qorxub titrəyəcək, gözləri zəlilcəsinə yerə dikiləcəkdir”. (“Naziat” surəsi, 6-9)**

Dünya üzərində yaşanmış və nəticələri insanlara dərindən təsir etmiş sarsıntıları, zəlzələləri bir anlığa göz önünə gətirin. Bu sarsıntıların hamısı sadəcə olaraq bir neçə saniyə sürmüş, ancaq buna baxmayaraq, özündən sonra böyük xarabalıq, dağıntı və söküntülər qoymuşdur. Yüz minlərlə ölçülən bir insan cəmiyyəti bu uçqunun altında qalmış və sağ qalanlar heç gözləmədikləri bir səfalət və yoxsulluqla qarşılaşmışlar. Evlər, mal-dövlət, əldə edilən qazanclar, təsərrüfatlar bir neçə saniyə içində yerlə-yeksan olmuşdur. Bu fəlakətlər hər kəsin gözü qarşısında gerçəkləşmiş və bu saniyələr içində heç bir güc bu sarsıntıya qarşı çıxa bilməmişdir. Qiyamət günü yaşanacaq sarsıntı şiddət, nəticə baxımından və bütünlükdə daha əvvəl dünyada yaşanan yeraltı təkanlara bənzəməyəcək və hər şeydən mühümü, geridə nəinki dağıntı, hətta həyat əlaməti də buraxmayacaq.

Dünyadakı bir zəlzələ nə qədər şiddətli olursa-olsun, bu zaman insanlar üçün əksərən qurtuluş ehtimalı var. İnsanlar bunu bildikləri üçün sarsıntı başlayar-başlamaz özlərini qurtara bilmək məqsədilə bəzi tədbirlər görməyə, zəlzələyə qarşı təhlükəsizlik içində ola biləcəkləri bir yerdə sürətlə gizlənməyə çalışırlar. Elə isə insanların hamısı surun üfürülməsi ilə anlayacaqlar ki, bu sarsıntılar daha əvvəl

yaşadıqlarının bir bənzəri deyildir, heç bir şəkildə qaçıb qurtulma ehtimalı yoxdur.

Şübhəsiz ki, insanlar qiyamət saatına aid hər şey kimi meydana gələcək və qaçış imkanı olmayacaq bu sarsıntılar barədə də xəbərdar ediliblər:

**"Ey insanlar! Rəbbinizdən qorxun. Həqiqətən, qiyamət gününün zəlzələsi dəhşətli şeydir!" ("Həcc" surəsi, 1)**

O anda artıq yer üzündə mövcud olan heç bir şeyin dəyəri və mənası qalmamışdır. İnsanları aldadan hər şey - lüks evlər, nəhəng göydələnlər, beşulduzlu otellər, ömürləri boyunca tamahkarlıqla pullar yığaraq aldıqları və üzərində onca zəhmət çəkərək nizamladıqları evlər, saraylar, körpülər, dünyanın ən məşhur binaları, yüz illər boyunca hər cür təbiət hadisəsinə qarşı yıxılmadan ayaqda qala bilmiş piramidalar, tarixi qalalar, şəhərlər dəniz kənarında qumdan tikilmiş qalalar kimi sürətlə çökəcəklər. Ümid bağlanan iş yerləri, lüks maşınlar, qısası, dünya həyatında insanın sahib olduğu, sahib olmaqla öyündüyü bütün maddi zənginliklər bir anda yox olacaq. İnsanların əldə etdiyi şan-şöhrətin, etibarın, hörmət-izzətin və gücün heç bir mənası və əhəmiyyəti qalmayacaq.

Quranda o gün yerin parça-parça yıxılıb darmadağın olacağı bildirilir:

**"Xeyr! Yer dağılıb parça-parça olacağı; Rəbbin gəlib mələklər səf-səf duracağı və cəhənnəmin gətiriləcəyi gün - məhz o gün insan xatırlayacaqdır. Lakin bu xatırlamağın ona nə faydası?!" ("Fəcr" surəsi, 21-23)**

O gün insanların bundan əvvəl arxayınlıqla üzərində gəzişdiyi yer ayaqlarının altından sürüşər. Cürbəcür bəhanələrlə Allah'ı inkar üçün cəhd göstərmiş və nə etmək lazım gəldiyini bildiyi halda, ibadət etməkdən qaçan hər adam Allah'dan başqa sığınılan bir gücün ol-

madığını sonunda çox yaxşı anlayar. Amma artıq özləri üçün nə geriyə dönüş, nə etdiklərini əvəzetmə imkanı var, nə də yaşanan peşmançılıq adama bir fayda gətirəcək.

İnsanların o gün qorxu və dəhşətlə birlikdə duyduğu hisslərdən biri də çarəsizlikdir. Dünyada başına gələ biləcək bütün və hər cür labüd fəlakət üçün tədbir görən, ən ölümcül bəla, ən böyük zəlzələ, ən şiddətli qasırğa, ən dəhşətli nüvə savaşı üçün belə sığınacağını hazırlayan insan oğlu elə bir hadisə ilə qarşı-qarşıya gəlir ki, qaçıb sığına biləcəyi, daldalana biləcəyi tək bir arxayın yer də tapa bilməz. Dünyada vaz keçilməz gördüyü, özünə inkarı məqbul göstərən zəkası da, güc sahibi olduğuna inandığı adamlar da bu dəhşətli sarsıntıya qarşı heç bir çarə tapa bilmirlər və onlar üçün artıq heç bir çıxış yolu yoxdur.

## Yer ağırlıqlarını çölə atıb çıxarır

**"Yer öz yükünü çıxardıb atacağı zaman; İnsan: "Buna nə olub?" - deyəcəyi zaman - məhz o gün (Yer) öz hekayətini söyləyəcəkdir. Çünki ona sənin Rəbbin vəhy etmişdir!" ("Zilzal" surəsi, 2-5)**

Bəlli olduğu kimi, dünyanın mərkəzində (yer qabığının 5000-6000 km aşağısında) olduqca yüksək təzyiqə malik kor halında bir təbəqə var. Və bu təbəqənin temperaturunun təxminən 4500 S dərəcə olduğu təxmin edilir. Həmçinin vulkan püskürməsi nəticəsində yerin üzünə çıxan lavalar bu zonada, yəni maqmada yerləşir. Haqqında danışılan püskürmələr tarix boyunca bir çox şəhərin xalqına dəhşət dolu anlar yaşadaraq insanların ölümünə, hətta şəhərlərin tamamilə yox olmasına səbəb olublar. Torpaq qatlarında müxtəlif səbəblərdən baş verən qırılmalar nəticəsində yer üzünə sızan lavalar təzyiq nə qədər yüksəkdirsə, bir o qədər böyük şiddətlə fışqırır. Əslində, burada

müəyyənedici amil qazın nisbətidir. Maqma yer üzünə çıxarkən qazlar maye haldakı maddədən ayrılaraq maqmanın üzərinə yayılır, beləliklə də təzyiqin artmasına səbəb olurlar. Maqma qazla nə qədər yüklüdürsə, püskürmə əsnasında o qədər artıq partlama olur və yerin altında pıqqıldayaraq qaynayan lavalar yer üzünə çıxaraq yerin üstünü sanki cəhənnəmə çevirirlər. Belə partlama sadəcə müəyyən bir bölgəni əhatə edən lokal partlayışdır. Üstəlik, günümüzdə aparılan tədqiqatlar nəticəsində çox zaman belə bir fəlakət barədə daha əvvəlcədən xəbərdarlıq edilir, təhlükənin olduğu zonada müxtəlif tədbirlər görülür.

Quran ayələrindəki təriflərə görə, “yerin ağırlıqlarını çölə atması” ifadəsi ilə o gün yerin altında olan olduqca çox şeylə birlikdə nüvədəki tezalışan, yandırıcı maddənin də tamamilə yerin üstünə çıxacağına işarə edilir. Yer üzünün hər yerində yaşanan şiddətli sarsıntılar və yerin bütün təbəqələrinin qırılması belə bir şeyin asanlıqla gerçəkləşə bilməsi üçün lazım olan ilkin şərtləri meydana gətirəcək. Yəni qiyamət günündə şiddətli yeraltı təkanlar yerin altını üstünə çevirəcək, insanlar başlarına çökən dağlardan, nəhəng binalardan qurtulmağa çalışarkən yerdəki çatlaqlardan fışqıran lavalar hər yanı bürüyəcək, bu da insanların ölümdən heç bir şəkildə qaçışlarının olmadığını bir daha anlamasına səbəb olacaq. Fəlakət fəlakəti izləyəcək, birindən qurtulmağa çalışan digəri ilə qarşılaşacaqdır. Ən doğrusunu Allah bilir.

Yer üzü Allah’a qarşı boyun əymişdir. Bu vəziyyət Quran ayələrində belə bildirilir:

> **“Yer uzanıb dümdüz olacağı; qoynunda olanları bayıra atıb boşalacağı; və Rəbbinin buyruğunu eşidib itaət edəcəyi zaman...” (“İnşiqaq” surəsi, 3-5)**

Artıq son gün gəlmişdir. İnsanlara verilən müddət bitmiş və hər şeyin sonu çatmışdır. Bu gündən qurtula biləcək heç bir canlı yoxdur.

Bütün hadisələr sona çatdığında yer üzündə tək bir toxum, tək bir bitki, tək bir mikroorqanizm, hətta yer üzünün özü də qalmayacaq.

O gün yerin çölə atacağı ağırlıq yalnız maqma qatı deyil. Maqma həm mantiyanın içindəki, həm də mantiya ilə qabıq arasındakı istiliyin və maddələr mübadiləsinin başlıca daşıyıcısıdır. Yəni ehtimal ilə maqma ilə birlikdə daşınan, yerin altında olan bir çox maddə yüksək temperaturla birlikdə yerin üzünə çıxacaqdır. Bu da yer üzünün görünməmiş bir şəkildə isinməsinə səbəb olacaqdır. Gerçəkləşən hadisələr nəticəsində yerin altındakı neft, kömür kimi faydalı qazıntılarla birlikdə bütün bitki qalıqları və cəsədlər, bir sözlə, yerin altında olan canlı-cansız hər şey çölə atılacaqdır. Qısası, yerin altı üstünə çevriləcək. Allah bu vəziyyəti Quranda belə xəbər verir:

**"Qəbirlər çevriləcəyi zaman; hər kəs nə etdiyini və nə qoyub getdiyini biləcəkdir!" ("İnfitar" surəsi, 4-5)**

Yeraltı sular sarsıntının şiddəti ilə qırılan yerin təbəqələrindən çölə fışqıracaq. Təzyiqli suyun təsiri isə olduqca şiddətlidir. Həm fışqırmanın başladığı bölgədə önəmli hasarlar meydana gələcək, həm də həyata mənfi təsir edən bir su təbəqəsi yer üzünə yayılacaq.

Hər hansı bir bölgədə vulkan püskürməsi olduğu zaman saysız toz qatı və parçalar atmosferin üst təbəqələrinə yayılar. Belə bir püskürmə dövründə çox zaman bütün bölgənin kül örtüyü altında, sözügedən bölgənin isə toz-duman içində qaldığı bilinir. Həmçinin uca Allah ayədə qiyamət günündə dağların toz kimi səpələnəcəyini ("Vaqiə" surəsi, 6) bildirir. Quranda anladılanlara uyğun olaraq qiyamət günündə dünyanın hər yerində buna bənzər püskürmə və partlayışların olması ehtimalı olduqca yüksəkdir.

Göründüyü kimi, insanlar dörd bir yandan şiddətli bir əzaba uğrayacaqlar. Hər tərəfi bürüyən, hər yeri dövrəyə alan toz-duman buludu, yenə eyni anda yayılan qazlar insanların nəfəs ala bilməsinə və əzab-əziyyət içində qıvrılmasına səbəb olacaqdır. O gün yaşanan

bütün hadisələr inkarçıların sonsuza qədər cəhənnəm içində dadacağı əbədi əzabın böyüklüyünü anlaması üçün kifayətdir. İnsanların həyatına belə bir dəhşətli aqibətlə son verən Allah cəhənnəmdə onlar üçün tayı-bərabəri olmayan maddi və mənəvi bir əzab hazırlamışdır. Yaşanan hadisələrin əzəməti qarşısında dəhşətli bir ölüm qorxusu hər yanı bürümüşdür. Geridə qorxu və peşmançılıqdan başqa bir şey qalmamışdır.

## Dağların vəziyyəti

### Dağlar kökündən dağılıb sovrulur

**"Dağlar parça-parça olub dağılacağı zaman..." ("Mürsəlat" surəsi, 10)**

Məlum olduğu kimi, dağların yer üzündəki sarsıntıları əngəlləmək funksiyası vardır. Bu həqiqət Quran ayələrində belə xəbər verilmişdir:

**"Sizi yırğalatmasın deyə, yer üzündə möhkəm dayanan dağlar və gedib çata biləsiniz deyə, çaylar və yollar yaratdı". ("Nəhl" surəsi, 15)**

**"Məgər Biz yeri döşək etmədikmi?! Dağları da dirək?!" ("Nəbə" surəsi, 6-7)**

Bu günə qədər dünyada qeydə alınmış ən böyük zəlzələ 9,2 bal gücündədir. Və bu gücdəki bir zəlzələ gerçəkləşdiyi bölgəyə qısa vaxt içində böyük bir fəlakət gətirir. Qiyamət günü yaşanacaq sarsıntı isə Allah'ın istəyi xaricində - dünyada o günə qədər tayı-bərabəri əsla gerçəkləşməmiş şiddətdə bir sarsıntıdır. Bu sarsıntı bir dirək kimi yerləşərək yer üzünü şiddətli zəlzələlərdən qoruyan dağların da qarşısında tablaya bilməyəcəyi qədər böyükdür. Yer üzündəki ən sağ-

lam təməllərdən olan və sarsılmazlıq simvolu olan dağlar yerlərindən oynadılıb altındakı torpaqla birlikdə sürüşməyə başlayar. Quranda dağların o gün necə hərəkətlənməsini anladan ayələr bu şəkildədir:

**"Dağlar yerindən qopub oynayacaqdır". ("Tur" surəsi, 10)**

**"Dağlar yerindən qopardılıb ilğıma dönəcəkdir". ("Nəbə" surəsi, 20)**

**"O gün dağları hərəkətə gətirəcəyik. Yeri dümdüz görəcəksən, bir yerə toplayacaq, onların heç birini kənarda qoymayacağıq". ("Kəhf" surəsi, 47)**

Yer üzünün böyük bir hissəsi dağlarla örtülüdür və bunların eyni anda yerlərindən sökülərək hərəkət etməsi, belə nəhəng ölçülərdəki torpaq parçalarının yerin üzərində bir araya toplanması və yerin dümdüz bir hala gəlməsi, əlbəttə ki, insanın görə biləcəyi ən qorxunc mənzərələrindən biri olacaq. İnsanın belə bir anı gözü önündə canlandırması olduqca çətin bir işdir.

Təsəvvür edin ki, insanların zirvəsinə dırmaşmaqda çətinlik çəkdiyi və yerindən oynamaz deyə düşündüyü Himalay, Alp, Toros bir anda sarsılmağa və yerlərindən oynamağa başlayacaqlar. Minlərlə metr yüksəklikdəki dağlar və bu dağların yamaclarında salınan şəhərlər bir anda yerlə-yeksan olacaqlar.

Dağlarda keçidlər açmaq üçün böyük texnoloji imkanlar, makina və alətlər gərəkir, hətta zaman keçdikcə bütün üsullar uğursuzluqla nəticələnir. İnsanların yol açmaq məqsədilə dinamitlə dəlməyə çalışdığı dağlardan ancaq qismən bir nəticə alınır, dinamit sadəcə olaraq müəyyən bir bölgəyə təsir edir, hətta çox zaman heç bir təsiri olmur. Hətta bu səbəblə bəzi dağlıq bölgələrlə rabitə olduqca çətin baş tutur. Halbuki, qiyamət günü yer üzündəki bütün dağlar toz halına gəlirlər. Bu hadisə o gün yaşananların şiddətini anlaya bilməyi-

miz baxımından çox təsirli bir misaldır. Dünyada olan bütün dağların eyni anda qum yığını halına gəlməsi, o heybətli quruluşların bir anda çökməsi olduqca dəhşətli bir vəziyyətdir. Ayrıca, Allah'ın sonsuz gücünü anlaya və təqdir edə bilmək baxımından da çox mühümdür. Dağların qiyamət günündə alacağı şəkil Quranda belə bildirilir:

**"O gün yer və dağlar lərzəyə gəlib titrəyəcək, dağlar yumşaq qum təpəsinə dönəcəkdir". ("Müzzəmmil" surəsi, 14)**

Yenə Quranda həmin günə aid verilən bir bilgi də dağların parçalanaraq çökməsindən sonra yer üzünün heç bir təpəciyi olmayan bir düzənliyə dönəcəyi şəklindədir:

**"Səndən dağlar haqqında soruşarlar. De: "Rəbbim onları ovxalayıb havaya sovuracaq. Dümdüz bir yer edəcək! Və sən orada heç bir eniş-yoxuş görməyəcəksən!"" ("Taha" surəsi, 105-107)**

Bu an kənara baxdığımızda bizlərə olduqca tanış gələn əyri-üyrü görüntü o gün tamamən düz bir xətt halına gələcək. Ucsuz-bucaqsız bir düzlük üzərində insanların hamısı bir araya toplanacaq. Allah "Kəhf" surəsində bu həqiqəti belə vurğulayır:

**"O gün dağları hərəkətə gətirəcəyik. Yeri dümdüz görəcəksən, bir yerə toplayacaq, onların heç birini kənarda qoymayacağıq". ("Kəhf" surəsi, 47)**

## Dağlar rəngarəng yun yumaqları kimi uçuşurlar

O gün dağlar, onların üzərindəki bitkilər, çiçəklər, bütün yaşıllıqlar və dağların içindəki ən müxtəlif mədənlər fərqli növ və rənglərdəki torpaqlarla birlikdə ətrafa səpələnəcək. Toz-duman olan dağlar bütün əzəmətli görünüşləri ilə birlikdə parçalanıb dağılacaq. Bu rəng haləsi ayələrdə rəngli yunlara bənzədilir:

**“Dağlar isə didilmiş yun kimi olacaqdır!” (“Qariə” surəsi, 5)**

**“Dağlar da didilmiş yun kimi olacaqdır”. (“Məaric” surəsi, 9)**

Qəhhar olan Allah’ın əmri o gün canlı-cansız bütün varlıqları öz təsiri altına almışdır. Qiyamət günü yaşanan hər səhnəyə böyük bir qorxu hakimdir. Ən kiçik bir sarsıntıda təşvişə düşən, bir zəlzələ ehtimalında ölüm qorxusundan saatlarla evinə girə bilməyən insanlar üçün gözlərinin önündə dağların yerindən oynadılması, yerin içindəkilərini çölə atması, qəbirlərin deşilməsi, insanların bir araya toplanması və fəlakətin fəlakət ardınca gəlməsi dözülməsi mümkün olan bir şey deyil. Artıq dünya üzərində güvənə biləcəkləri tək bir adam, sığına biləcəkləri tək bir məkan da yoxdur. Qarşılaşdıqları hadisələrin dəhşəti güclərinin yetdiyi sərhədləri çoxdan aşmışdır. Edə biləcəkləri heç bir şey yoxdur. Artıq dünya üzərində yeni bir başlanğıc şansı, gedilə biləcək hər hansı bir yer yoxdur. Yeni başlayacaq həyat axirətdədir, sonsuzdur və dünyada Allah’ın rizasını gözləyib yaşamayanlar üçün peşmanlıq və ağrı-acı ilə doludur. Zövqlər, ləzzətlər, həvəslər və müvəqqəti dünya həyatı artıq başa çatmış və yox olmuşdur. Qarşılaşdıqları dəhşət Allah’ın qüdrətini sərgiləyir.

Halbuki, bütün bunlar Allah’ın elçiləri və möminlər tərəfindən insanlara daha əvvəlcədən xəbər verilmişdi. Amma bu ölümcül güc onlara uzaq gəlmişdi; özləri kimi müvəqqəti şeylərə güvənmişdilər. Allah ayədə inkarçıların daha əvvəldən xəbərdar edildiklərini belə bildirir:

**“İnsanları onlara əzab gələcəyi günlə qorxut. O gün zalımlar: “Ey Rəbbimiz! Bizə bir az möhlət ver. Biz Sənin dəvətini qəbul edər və peyğəmbərlərə tabe olarıq!” - deyərlər. Bəs, əvvəlcə, sizə heç bir zaval toxunmayacağı**

**barədə and içməmişdiniz?! Siz özlərinə zülm edənlərin yurdlarında da sakin oldunuz, onların başına nələr gətirdiyimiz də sizə bəlli oldu. Üstəlik, sizin üçün məsəllər də çəkdik". ("İbrahim" surəsi, 44-45)**

Halbuki, təhlükənin ortasında tək-tənhadırlar. Hər kəs canının hayına düşmüş, hər bir yaxın dost başqa bir yaxın dostu görməz olmuşdur. Qaçıb qurtulmaq artıq heç kimsə üçün söz mövzusu deyil. Artıq Allah'ın vədi gəlmişdir. O gün evlərdən qaçmaq da bir işə yaramaz. Sarsıntıdan təsirlənən sadəcə evlər deyil ki, çölə çıxmaq insanı yaxınlaşan aqibətdən qorusun! O gün var olan hər şey yox olur, yer üzü və dağlar hamısı birlikdə yerlərindən oynadılıb qaldırılır. Nə sığınıla biləcək bir yer, nə istinad edilə biləcək bir güc, nə də verilə biləcək bir tədbir vardır. Quranda yer üzünün və dağların parça-parça olduğu qiyamət günü bu şəkildə keçir:

**"Yer və dağlar qaldırılıb bircə dəfə bir-birinə çırpılacağı zaman - məhz o gün qiyamət qopacaqdır!" ("Haqqə" surəsi, 14-15)**

## Dənizlərin vəziyyəti

Bütün bunları yazarkən mühüm bir məqamı xatırlatmaq yerinə düşərdi. Daha əvvəl də bildirdiyimiz kimi, zehinlərdə canlandırmağa çalışdığımız bu mənzərə tamamən Quran ayələrindən yola çıxaraq söylənən təriflərdir. Quranda bildirilənlərə uyğun şəkildə təqdim edilən bu izahlar Allah'ın istəyi ilə gerçəkləşəcək və Allah'ın olacağını vəd etdiyi həqiqətlərdir. Yaradılmış hər şeyi yaradan Allah, şübhəsiz ki, bunların hər birini yox etməyə və yerlə bir etməyə də qadirdir. Ayələrin bizlərə xəbər verdiyi kimi, qiyamət günü hər şey ağlasığmaz bir şəkildə yox olub gedəcək. Bu, Allah'ın vədidir. Allah bir ayədə belə buyurur:

**“Allah vəd etdi. Allah Öz vədinə xilaf çıxmaz. Lakin insanların çoxu bilməz!” (“Rum” surəsi, 6)**

Öz böyüklüyü ilə öyünən insanın artıq heç bir dəyəri qalmamışdır. Özünü Allah’ın qarşısında dəyərli və güclü görən, öz aldanışı içində Allah’ı inkar etməkdən çəkinməyən insan baş verənlərin qarşısında yetərincə gücsüz və acizdir. Özündən üstün gördüyü varlıqlar da Allah’ın təqdir etdiyi bu böyük günə təslim olmuşlar. Dağlar, dənizlər və bütün kainat heç sarsılmaz kimi görünən sağlam vəsfini itirmiş, yalnız və yalnız Allah’a itaət etmişlər, Allah’ın: “Ol”, - deməsi ilə hər şey olub bitmişdir. Hər biri Onun verdiyi hökmə müti olaraq yerinə yetirmələri lazım gələn vəzifələrini yerinə yetiriblər. Dağların rəngli yunlar kimi dağılıb parçalandığı, yerin bütün ağırlıqlarını kənara atdığı qiyamət günü dənizlərdə meydana gələn hadisələr də Allah’ın sonsuz böyüklüyünü bir daha göz önünə sərir. Quranda bildirildiyinə görə, o gün dənizlər yanacaq və fışqırıb daşacaq.

## Dənizlərin yanması

Dünyanın dörddə üçünü örtən ən böyük su kütləsi olan dənizlərin bir anda qaynamağa, pıqqıldamağa başlaması, həqiqətən də, insanın gözündə çox çətin canlana biləcək bir mənzərədir. İnsanın o anın dəhşətini anlaya biləcək təcrübəsi yoxdur. Ancaq bunu qismən də olsa, zehində canlandırmaq olar. Bu günə qədər təkcə vulkan partlayışı, duru yanacaq daşıyan bir tankerdə yanğın baş verməsi nəticəsində belə mənzərənin yaranmasına şahid olmuş, onu televiziyada, rəsmlərdə görmüsünüz. Ancaq ayələrdə bizlərə verilən izahlar bu misallarla müqayisə edilməyəcək qədər möhtəşəmdir. Yalnız Allah’ın sonsuz böyüklüyünü, sonsuz qüdrətini bilməyimiz bizi yaşanacaq fəlakətin miqyası haqqında fikir sahibi edər. Allah kainatda yaratdığı və qoruduğu bu nizamı istədiyi şəkildə dəyişdirməyə və

hər şeyi bir plan daxilində alt-üst etməyə qadirdir.

O gün yerin bütün kütləsini çölə atması yerin altındakı təxminən 4.500 S dərəcə istilikdə nüvənin imkan tapdığı hər yerdən çölə daşacağı mənasına gəlir. Buna, şübhəsiz ki, dənizlərin altında olanlar da daxildir. Hər hansı bir kompyuter proqramında lavaların dənizin içindəki çıxışını izləyənlər bu qaynar maddənin dəniz suyunda yaratdığı və ağlı donduran bir mənzərəyə şahid olublar. Halbuki, qiyamət günü gerçəkləşəcək görüntü bu mənzərədən daha fərqli, daha əhatəli və daha dəhşətli olacaq. Yer üzündəki bütün dənizlər alovlar içində qalacaq, qarşısıalınmaz bir atəş və alov kütləsi insanlara yönələcək. O gün bütün dənizlər alışdırılmışdır.

Allah bu məsələ ilə bağlı ayəni "Təkvir" surəsində bu şəkildə buyurur:

**"Dənizlər (qaynayıb bir-birinə) qarışacağı zaman..." ("Təkvir" surəsi, 6)**

Yaşanan hadisələr nəticəsində quruda olduğu kimi, dənizdə də həyat sona çatacaq. Adi vaxtda sərinlik və rahatlıq hissi verən dənizlər bir anda ətrafa müdhiş istilik yayacaqlar. Dənizlərdə nəhəng dalğaların əvəzinə alov buludları yer alacaq, havadakı duman oksigeni böyük nisbətdə tükəndirəcək. Ucsuz-bucaqsız dənizlərin alovlanan və şiddətlə pıqqıldayan görüntüsü dünyanın geniş bir sahəsinə hakim olacaq və özü ilə olduqca çox fəlakətlər gətirəcəkdir.

## Dənizlərin daşması

Quranda qiyamət günü gerçəkləşəcəyi bildirilən hadisələrdən biri də dənizlərin daşmasıdır. Bu həqiqət bizlərə ayələrdə xəbər verilməkdədir:

**"Dənizlər fışqırdılıb daşırıldığı zaman..." ("İnfitar" surəsi, 3)**

O gün Allah'ın istəyi ilə qurudan gələcək fəlakətlərə dənizlərdən gələnlər də əlavə olunacaqdır. Belə bir fəlakətin və bunun kimi digərlərinin gerçəkləşməsi üçün, şübhəsiz ki, təkcə Allah'ın diləməsi kifayətdir. Allah sadəcə "ol" əmri ilə yoxdan var etdiyi yer üzünü çeşidli şəkillərdə yerlə bir etməyə qadirdir. Bunları gerçəkləşdirə biləcək səbəblər isə bizlər üçün yalnız bir xatırlatma, Allah'a yaxınlaşmaq və Onun əzabından qorxmaq üçün bir yoldur. Bu hadisələrin necə gerçəkləşəcəyinin, səbəblərinin nə olacağının məlumatı yalnız Allah'ın dərgahındadır. Bəlkə heç bir səbəb olmayacaq, qiyamətin bütün əlamətləri birdən-birə gerçəkləşməyə başlayacaqdır. Bu səbəblə, bu bölümdə verilən misallar sadəcə təxminlərdir.

Gerçəkləşməsi ehtimal edilən bəzi misallar dənizlərin daşması ilə bağlıdır. Bəlli olduğu kimi, əsasən, dəniz altında yeraltı təkan meydana gəldiyi zaman suyun üzündə nəhəng dalğalar yaranır. Yeraltı təkanın mərkəzindən başlamaqla yayılan təsir nəticəsində dalğalar okeanı saatda 750 km kimi yüksək bir sürətlə keçərək sürətlə sahilə çatır. Okeanın ortasında bir metrə çatmayan dalğa sahilə çatanda 60 metri aşa bilir. Məsələn, 1896-cı ildə Yaponiyanın Hoşu şəhərində meydana gələn böyük dənizaltı təkandan sonra qabaran bir dalğa 25-35 metrə çataraq bütün məskunlaşma mərkəzini bürümüş və 25000 adamın ölümünə səbəb olmuşdu.

Nəhəng dalğaların bəlli olan başqa bir qaynağı da vulkan püskürməsidir. Buna canlı misal 1883-cü ildə Krakatoanın zirvəsindəki çökmədən sonra yüksələn dalğadır. Cava ilə Sumatra arasında olan bu ada şiddətli püskürmələrin ardınca qəfildən itmiş, ani və böyük bir dalğaya səbəb olmuşdu. Bunun nəticəsində, meydana gələn sunami Cava adasında əhalinin ən sıx olduğu sahildə qırılaraq 165 kəndin yox olmasına və 3600 adamın ölümünə səbəb olmuşdu. Bu dalğanın yüksəkliyi sahilə çatanda 35 metri aşırdı. Göründüyü kimi, dəniz altında meydana gələn bəzi zəlzələlər və ya vulkan püskürmələri təkcə müəyyən bir bölgəni əhatə etsə də, dənizlərin daş-

masına, minlərlə adamın ölməsinə səbəb olur. Halbuki, qiyamət günündə yerin üstündə olduğu kimi, dənizlərin altında da sarsılmayan heç bir yer qalmayacaq. Bu vəziyyətdə dənizlərin altında meydana gələn şiddətli sarsıntılarla birlikdə dənizlər də daşacaq və o anadək bəlli olan sunamilərlə müqayisə olunmayacaq bir şəkildə bütün yer üzünə təsir edəcəkdir.

O gün dənizlərin daşaraq insanlara fəlakət gətirməsi üçün daha bir neçə səbəb var. Bu böyük su kütləsinin sabit və durğun bir şəkildə dayanması bəzi qanunlara bağlıdır. Ancaq o gün heç bir təbiət qanunu keçərli olmayacaq, göyləri, yerləri, quruları, dənizləri və insanları tarazlıqda saxlayan həssas hesablar və müvazinət yox olacaq. Allah'ın diləməsi ilə var olan bu qüsursuz nizamın səbəbləri yenə Allah'ın diləməsi ilə ani şəkildə ortadan qalxacaqdır. Daha əvvəlki bölümdə də izah edildiyi kimi, bəlkə də o gün yerin altındakı istilik havanı isidəcək, üzə çıxan bu hərarət buzların əriməsinə səbəb olacaq. Bu da mövcud suyun miqdarının artmasına, onun səviyyəsinin yüksəlməsinə səbəb olacaq. Bunların hamısı ehtimal daxilindədir, fəqət o gün bunun necə gerçəkləşəcəyini yalnız Allah bilir.

Yenə bəlli olduğu kimi, günümüzdə bir dağdan qopan torpaq və qayaların yuvarlanaraq bir körfəzi, gölü və ya su hövzəsini doldurması lokal bir dalğaya səbəb olur. Qiyamət günündə isə yıxılmayan, çökməyən bir dağ qalmayacaq və daha əvvəl də bəhs edildiyi kimi, bu dağlar bütün çuxurları doldurub yerin dümdüz olmasına səbəb olacaq. Dağlardan düşən parçalar dənizləri doldurub onların daşmasına səbəb olacaq.

Allah'ın müəyyən etdiyi bu müddət tamamlandığı zaman qəlblərə amansız qorxu salan hadisələr bir-birinin ardınca gerçəkləşəcək. İnsanları əhatə edən qorxunc bir gurultu, dağların parçalanması, insanların ayaqlarının altından axan lavalar, hər yeri bürüyən toz, duman və qaz buludları, qaynayaraq insanların üstünə daşan sular... Dünya həyatı boyunca Allah'ın varlığını düşünmək

istəməyən, Onun böyüklüyünü təqdir edə bilməyən qullara bir anda gələn dəhşətli bir əzab... Qeyd-şərtsiz hər kəsi boyun əydirən, insanları öz acizliklərinin və ömrü boyunca dəyər verdikləri şeylərin nə qədər dəyərsiz olduğunu göstərən öldürücü bir əzab... O gün insanların ürəklərində duyduqları qorxunun və dəhşətin tərif edilə bilməyəcəyi bir gündür. İnsanlar buradan oraya, oradan buraya qaçmağa, sığınılacaq bir yer axtarmağa çalışacaqlar. Amma hər kəs bilməlidir ki, bu gündən qurtuluş yoxdur.

## Göy üzünün vəziyyəti

Qiyamətlə birlikdə gələn süqut və dəhşət təkcə yerdə gerçəkləşəcək hadisələrlə məhdudlaşmır. O gün insanın bildiyi, alışdığı və sonsuzadək varlığını sürdürəcəyini sandığı bütün varlıqlar və nizamlar pozulmaya uğrayacaqlar. O gün dünya tarixi boyunca miqyası anlaşılmamış, sirləri son əsrdə açılmış, ağılları donduran böyüklükdəki göy cisimləri və kosmos üçün də ölüm vaxtı gəlmişdir. Göy üzü, Ay, Günəş, ulduzlar və planetlər də o gün parçalanıb yox olacaqlar. Allah bir ayədə belə buyurur:

**“Sizə vəd edilən mütləq vaqe olacaqdır! Ulduzlar sönəcəyi; Göy yarılacağı zaman...” (“Mürsəlat” surəsi, 7-9)**

Kainatın yaradıldığı ilk andan etibarən meydana gələn hər hadisə və izlənən hər görüntü bunlarda bir qeyri-adilik olduğunu sezən və bir Yaradıcının varlığını mütləq bir şəkildə görmək istəyən hər insan üçün böyük bir iman dəlilidir. Ucsuz-bucaqsız kainatın hər nöqtəsini bürüyən planetlər, ulduzlar, saysız göy cisimləri Allah’ın tək bir əmri ilə yaradılmış, Onun qüdrəti ilə müəzzəm bir tarazlıqla qorunmuşdur. Bu başlanğıc və tarazlıq isə sirrini hələ də qoruyur, insanların zehnini məşğul edir. Əslində, bu axtarışların nəticəsində insanın qarşısına çıxan yeganə bir həqiqət vardır: Allah’ın varlığı. Qiyamət günü ya-

şananlar yenə də bu Yaradanın böyüklüyünə uyğun şəkildə gerçəkləşəcəkdir. Allah var olan hər şey üçün olduğu kimi, göy üzündəki bu müəzzəm dünya üçün də görünməmiş bir aqibət hazırlamışdır.

Göy üzü insanın varlığına və davamlılığına həmişə arxayın olduğu bir tavan kimidir. Allah'ın bir dirək olmadan yüksəltdiyi və tutduğu, ucsuz-bucaqsız kosmosla öz arasında pərdə rolunu oynayan görkəmli bir tavan...

Bu tavan dünyanı və üzərindəki canlıları saysız təhlükələrdən (ultrabənövşəyi şüalardan, komet və meteorlardan, kosmosun dondurucu soyuğundan və s.) ən kiçik bir nöqsana yol vermədən yüz illərlə qorumuş, canlı aləmin davam etməsi üçün lazım olan ən əhəmiyyətli qoruyucu örtük olmuşdur. Qaranlıq kosmosdan keçib gələn işıq atmosferin daşıdığı xüsusiyyətlər sayəsində dünyaya qədərincə yayılmış, bütün planeti işıqlandırmış və insan atmosferdəki həssas oksigen nisbəti sayəsində nəfəs alıb həyat tapa bilmişdir. Halbuki, o gün göy bütün vəzifə və funksiyalarını itirər. Artıq onun da Allah dərgahında aşkar olan əcəli gəlmişdir. Qiyamət günü göy Allah'ın diləməsi ilə sarsılıb çalxalanar, çatlayar və yarılar:

**"O gün göy hərəkətə gəlib çalxalanacaq". ("Tur" surəsi, 9)**

**"O gün göy parçalanacaq, Allah'ın vədi yerinə yetəcəkdir". ("Müzəmməl" surəsi, 18)**

**"Və göy süst düşüb parçalanacaqdır!" ("Haqqə" surəsi, 16)**

Dünya tarixi boyunca saysız canlının həyatını davam etdirməsi üçün ən gərəkli şərtlərdən biri olan hava bütün əhəmiyyətini və funksiyasını itirir. O gün var olan qanunlar alışdığımız qanunlardan fərqlidir. Saysız fizika qanunu ilə göydə sabit bir müvazinətlə duran

atmosfer əriyib axmağa başlayar. Quranda o gün göy üzünün uğrayacağı aqibət bu şəkildə anladılır:

**“O gün göy göyərmiş mis kimi olacaq”. (“Məaric” surəsi, 8)**

Atmosfer o gün əriyər və yanmağa başlayar. İnsanlar masmavi görməyə alışdıqları göy üzünü o gün qızılı rəngdə görərlər. Göy üzü yarılıb ərimiş, yağ kimi olmuşdur:

**“Göy ayrılıb dağ edilmiş yağ kimi qıpqırmızı olduğu zaman...” (“Rəhman” surəsi, 37)**

Qiyamət günü o günə qədər Allah’ın böyüklüyünü və gücünü görmək istəməyən, bilə-bilə üz çevirən insanlar üçün peşmanlığın yaşadığı gündür. Bu, öyüd alıb düşünmək və səhvləri düzəltmək imkanı tanınmayan bir peşmanlıqdır. Bütün insanlar Allah’dan başqa dost, yardımçı və qoruyucunun olmadığını, Allah’ın gücünü və əzabını artıq birmənalı şəkildə anlayıblar. Belə bir anda Allah’a və axirət gününə qarşı inkar içində ola və bu inkarında inad göstərə biləcək tək bir insan da yoxdur. Bu həqiqət Quran ayələrində bütün insanlara bildirilmişdir:

**“Onlar Allah’ı lazımınca qiymətləndirmədilər. Halbuki, qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə büküləcəkdir. Allah aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır!” (“Zumər” surəsi, 67)**

İnsanın tanıyıb bildiyi bütün qayda-qanunlar o gün yox olur. Yaradılışları sırasında Allah’ın: “İstəyərək və ya istəməyərək itaət edin”, - çağırışına boyun əyən və: “İstəyərək gəldik”, - deyə cavab verən göy və yer o gün də öz yaradılışlarına uyğun olaraq həqiqi sahibləri və yaradıcıları olan Allah’a boyun əyərlər. Quranda Allah’ın göyə və yerə səslənməsi bu şəkildə anladılır:

**“De: “Doğrudanmı, siz yeri iki gündə yaradanı inkar edir və Ona şəriklər qoşursunuz? O ki aləmlərin Rəbbidir! O, yer üzündə möhkəm durmuş dağlar yaratdı, onu bərəkətli etdi və istəyənlər üçün bərabər olaraq orada yer əhlinin ruzisini dörd gündə müəyyən etdi. Sonra Allah tüstü halında olan göyə üz tutdu. Ona və yerə belə buyurdu: “İstər-istəməz vücuda gəlin!” Onlar da: “İstəyərək vücuda gəldik!” - deyə cavab verdilər”. (“Fussilət” surəsi, 9-11)**

Bilindiyi kimi, inkarçıların iddialarından biri maddənin öz-özünə yaranması iddiasıdır. Onlar ətraflarında gördükləri bütün gözəlliyi təbiətin gücünə bağlayırlar. İnkarçılar bundan sonrakı proseslərin təfərrüatı, yəni bunların necə meydana gəlməsi, bu elmi yaradılışın necə baş verməsi, özü yox ikən necə yaranması, onların cansız bir təsəvvür olan təbiətdən ortaya çıxması barədə əsla düşünməzlər. Bu məntiqsiz iddiaya görə, hər şeyi təbiət öz-özünə yaratmışdır. Yəni hakim olan fövqəladə uyğunluq və tarazlığın sahibi daş, torpaq, hava və sudur. Halbuki, qiyamət günü gələndə insan dağın, daşın, torpağın nə hala düşdüyünü görür və bu gücün sahibinin təbiət olmadığına şahid olur. Canlı-cansız hər şeyin yaradılışının aid edildiyi təbiət o gün özünü qoruya bilməyəcək. Allah hər şeyin təkcə Öz gücü və iradəsi ilə yaradıldığını, təkcə O, diləyib qoruduğu üçün qorunduğunu insanlara göstərəcək. Bir çox insanlar anlamazlıqdan gəldikləri həqiqətləri o anda vicdanları qəbul etdiyi halda, çox böyük bir peşmanlıqla xatırlayacaqlar:

**“Göy yarılacağı və Rəbbinin buyruğunu eşidib itaət edəcəyi zaman; yer uzanıb dümdüz olacağı, qoynunda olanları bayıra atıb boşalacağı və Rəbbinin buyruğunu eşidib itaət edəcəyi zaman... Ey insan! Sən Rəbbinə doğru çalışıb çabalayırsan. Sən Ona qovuşacaqsan!” (“İnşiqaq” surəsi, 1-6)**

## Ulduzların, Günəşin və Ayın vəziyyəti

Kosmosun qaranlıq və soyuq mühitinin əksinə olaraq dünyamızın işıqlanmasında və canlıların yaşaya biləcəyi orta bir istiliyin mövcud olmasında ən böyük amillərdən biri atmosferdir. Dünyamızı qoruyan bir tavan olaraq tanınan atmosferdə istinin və işığın yayılma xüsusiyyəti var. Qaranlıq bir yoldan keçərək dünyamıza çatan Günəş şüalarının yer üzünü işıqlandırması və isitməsi atmosferin daşıdığı bu xüsusiyyət sayəsində baş verir. Ancaq qiyamət günü gələndə yaradılan hər şey kimi göy də çatlayıb yarılacaq və bütün rolunu və dəyərini itirib Quranda bildirildiyi kimi, əriyərək axacaqdır. Quranda "Təkvir" surəsinin ilk ayəsində qiyamət günündən bəhs edilərkən "Günəş kor edildiyi zaman" ifadəsi işlədilir. Bu ifadədən Günəş işığının dünyaya artıq heç bir fayda verməyəcəyi anlaşılır.

Qiyamət günü dünyaya işıq verən Günəş və Ay qaralacaqdır. O gün dünyaya işıq gəlməməsinin tək səbəbi atmosferin yox olması deyil. Çünki Quranda da bildirildiyi kimi, o gün təkcə göylərin, yerin və ikisinin arasında olanların yox olduğu bir gün deyildir, bütün kainatın yox olduğu gündür. "Təğabun" surəsinin ilk ayələrində də bildirildiyi kimi, Allah hər şeyi mükəmməl və qüsursuz yaradan və hər dilədiyini istədiyi anda gerçəkləşdirməyə güc yetirəndir. Milyardlarla qalaktikanı və özündə hər qalaktikadakı milyardlarla ulduzu ehtiva edən kainatı O yaratmışdır və dilədiyi zaman da yox edəcək sonsuz qüdrət sahibi də Odur.

Kainatın genişliyini insan ağlının tam və real şəkildə qavraması mümkün deyil. Amma bir neçə rəqəmlə bu sirli dünyanın böyüklüyünü təxmini şəkildə anlamağa çalışa bilərik. Günəş Südyolunu təşkil edən 200-250 milyard ulduzdan biridir. Günəş Yer kürəsinin 109 qatı olduğuna baxmayaraq, kainatdakı kiçik ulduzlardan sayılır. Günəş ölçüsü 125 min işıq ili olan Südyolunun mərkəzindən 30 min işıq ili uzaqlıqdadır. Bu arada 1 işıq ili təxminən 9.460.800.000.000

kilometrdir. Dünya isə öz oxu ətrafında saatda 1670 km sürətlə fırlanan 6 katrilyard ton ağırlığında bir kütlədir. Günəş saatda 792.000 km sürətlə hərəkət edir. Südyolu öz oxu ətrafında saatda 900.000 km sürətlə fırlanır. Ancaq ağlı çaşdıran bu kainat qiyamət günü Allah'ın diləməsi ilə yerlə-yeksan olacaq, böyüklüyü tərif də edilə bilməyən ulduzlar Quranda ifadə edildiyi kimi, örtülüb silinəcək, yox olacaqlar.

Kainatın hər nöqtəsi Allah'ın varlığının, böyüklüyünün və gücünün ayrı bir dəlilidir. Bu nöqtələr ancaq Onun diləyi ilə, Onun dilədiyi müddətdə, Onun izni ilə yaradılıblar. Bu tarazlığı yaradan və qoruyan Allah bütün bunları, əlbəttə ki, dilədiyi şəkildə yox etməyə də qadirdir. Kainatın ölümü də yaradılışında olduğu kimi baş verəcək, yəni Onun izni ilə, Onun təqdir etdiyi şəkildə gerçəkləşəcək. O gün insanların dünya həyatı boyunca əzəmətinə heyran qaldıqları hər şey parça-parça ediləcək. Bütün planetlər, ulduzlar, Günəş və Ay öz orbitlərindən çıxacaq, ulduzlar töküləcək, göy cisimləri bir-bir öləcəkdir. Bütün bunlar Quranda belə bildirilir:

**"Saat yaxınlaşdı, Ay parçalandı". ("Qəmər" surəsi, 1)**

Ayədə də bildirildiyi kimi, o gün artıq qaçacaq bir yer yoxdur. Dünya həyatı boyunca özünə Allah'dan başqa dost və yardımçı axtaran insanlar da artıq yönəlib dönüləcək həqiqi dost və yardımçının təkcə Allah olduğunu anlayıblar. O gün insanların əlçatmaz saydığı, görkəmli və möhtəşəm gördüyü ulduzların da ölüm günüdür. Ulduzlar orbitlərindən çıxaraq dağılıb yayılacaqlar:

**"Ulduzlar dağılıb səpələnəcəyi zaman..." ("İnfitar" surəsi, 2)**

Bəlli olduğu kimi, Günəş hər saniyə enerji istehsal edən bir ulduzdur. Kosmosdakı digər ulduzların bir çoxu isə Günəşdən qat-qat böyükdür və onun malik olduğu enerjidən daha yüksək enerjiyə sa-

hibdir. Halbuki, qiyamət günü gələndə artıq hamısı güclərini itirirlər, bulanıqlaşıb tökülürlər. Quranda qiyamət günündə ulduzların vəziyyəti bu şəkildə bildirilir:

**"Ulduzlar səpələnəcəyi zaman..." ("Təkvir" surəsi, 2)**

**"Ulduzlar sönəcəyi zaman..." ("Mürsəlat" surəsi, 8)**

Minlərlə ildir işıq saçan, dünyanın həyat və enerji qaynağı olan Günəş və göy üzünü bəzəyən ulduzlar o gün qaralar. O zamana qədər onları orbitlərində tutan və işıq verməsini təmin edən sonsuz qüdrət sahibinin ulduzların da həqiqi sahibi olan Allah olduğunu və o ana qədər sadəcə Onun izni ilə yaradıldıqlarını hər kəs bir daha anlayar.

İnkarçılar o gün Allah'dan heç bir yardım görməzlər. Yardım görə biləcəkləri başqa hər hansı bir güc də yoxdur. Texnologiyanın çox inkişaf etməsi sayəsində kainatın uzaq bir guşəsinə getmək mümkün olsa belə, insanlar üçün artıq heç bir şey dəyişməyəcək. Əzab insanları orada da tapacaq. Çünki qiyamət bütün kainatı bürümüşdür. Təkcə üzərində bir zamanlar arxayınlıq içində yeridiyi yer üzü deyil, əlçatmaz saydığı uzaq ulduzlar da Allah'ın əmrinə boyun əyib və yox olublar. İnsanların ogünkü çarəsizliyi Quranda belə bildirilir:

**"Ay tutulacağı; Günəşlə ay birləşəcəyi zaman - məhz o gün insan: "Qaçıb can qurtarmağa yer hardadır?" - deyəcəkdir. Xeyr, heç bir sığınacaq olmayacaqdır! O gün duracaq yer ancaq Rəbbinin hüzurudur! O gün insana öncə etdiyi və sonraya qoyduğu nə varsa xəbər veriləcəkdir!" ("Qiyamə" surəsi, 8-13)**

## İnsanlar qiyamət vaxtında

Bura qədər izah edilən bütün hadisələr insanların heç xəbərinin olmadığı bir anda, daha əvvəl heç eşidilməmiş və tanınmaz bir səsin duyulması ilə başlamışdır. Və dünyadakı bütün insanlar bu anda da

olduğu kimi, hər şeyin heç dəyişmədən və pozulmadan eynən davam edəcəyini düşünərkən ani bir şəkildə yaxalanmışlar.

Sura üfürülməsindən dərhal qabaq gerçəkləşən hadisələrin əvvəlki gündən heç bir fərqi yoxdur. Yer kürəsi yenə eyni sürətlə fırlanır, Günəş yenə dünyanı işıqlandırır, həyat davam edir və insanların bir çoxu nədən, kim tərəfindən yaradıldığını və aqibətini düşünmədən vərdiş etdiyi şəkildə yaşamağa davam edirlər. Kimi axşam gələcək qonağına hazırlayacağı yeməyi, kimi işgüzar görüşləri barədə düşünərkən, kimi alış-veriş edərkən, kimi yatarkən və böyük bir bölümü də Allah'ın varlığını inkar halında ikən bu səsi duyacaq və hər şey bir anda başlayacaq, bəlkə də hər şey bir anda sona çatacaqdır.

İnsanın güclü zənn etdiyi, öyünərək böyükləndiyi bədəni heç gözləmədiyi bir anda dörd bir yandan ölümlə əhatələnəcək. Artıq can dərdindən başqa heç bir problem və dərd qalmayacaqdır. İnsanlar dəyər verdikləri, möhkəm bağlandıqları, uğrunda hər növ fədakarlığa hazır olduqları şeyləri yaşadıqları qorxunun şiddətindən bir anda görməz olacaqlar.

Qiyamətin meydana gətirdiyi bütün bu qorxu, dəhşət və çaşqınlıq dünyada inkar içində həyat sürən insanın qəflət yuxusuna əvəzdir. O gün başlayan bu danılmaz çətinliklər inkarçıları əbədiyyətə qədər rahat buraxmayacaq. Bir-birinin ardınca meydana gələn bütün bu hadisələr onlardakı təşviş və dəhşəti daha artıracaq. Keçən hər saniyə onlara yeni əzab növləri və bəlaları gətirəcək. Qarşılaşdığı şüurları donduran bu hadisələr o günə qədər inkar etdiyi Allah'ın böyüklüyünü sərgiləyəcək. İnsan bu güc qarşısında mümkün qədər gücsüz və çarəsizdir. Peşmanlıq, üzüntü və qorxudan başqa edə biləcəyi bir şey yoxdur. Saniyələr keçdikcə Allah'ın ona əbədi həyatında təqdim edəcəyi qorxunc əzabı daha yaxşı anlayar. O gün qarşılaşdığı dəhşət dolu dəqiqələr sonsuz həyatı boyunca yaşayacağı əzabın sadəcə ola-

raq bir hissəsidir. İnsanların o gün yaşanacaq hadisələr qarşısında duyacağı qorxu Quranda müfəssəl şəkildə izah edilmişdir.

## İnsanların yaşadığı qorxu

Allah bir çox ayələrdə insanların dünya həyatına möhkəm-möhkəm bağlı olduqlarını və bunun onlara axirət həyatında heç bir faydasının olmayacağını bildirmişdir. İnsanın dünya həyatında dəyər verdiyi, önəmli saydığı, uğrunda olduqca çox şeyi gözə aldığı dəyərlər onlardan əgər Allah rizası üçün və Allah yolunda istifadə olunmursa, insana itkidən başqa bir şey qazandırmaz. Bu dəyərlərin hər biri insanları yoxlamaq üçün xüsusi şəkildə yaradılmışdır. Əsl yurd isə axirət yurdudur. Dünyaya aid şeylərin heç birinin əhəmiyyət və mənasının olmaması isə Quranda bu şəkildə anladılır:

**“Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. Bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır”. (“Ali-İmran” surəsi, 14)**

İnsan dünya həyatının ayədə də anladılan bütün bu çəkici xüsusiyyətlərinə hərisliklə bağlanır, bütün ömrünü bunları əldə edə bilmək üçün xərcləyir. Quranda dünya həyatı ilə bağlı belə buyurulur:

**“Bilin ki, dünya həyatı oyun-oyuncaq, bərbəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul-uşağı çoxaltmaqdan ibarətdir. Bu, elə bir yağışa bənzəyir ki, onun yetişdirdiyi bitki əkinçilərin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb solduğunu, daha sonra çör-çöpə döndüyünü görərsən. Axirətdə şiddətli əzab, Allah’dan bağışlanma və razılıq gözləyir. Dünya həyatı aldanışdan başqa bir şey deyildir”. (“Hədid” surəsi, 20)**

Dünya həyatının ən böyük hədəflərindən biri mal-dövlətlə, oğullarla, qısası, sahib olunan bütün dəyərlərlə öyünməkdir. Ancaq Quranda xüsusilə vurğulanan və bütün toplumlar üçün keçərli olan bir həqiqət dünya həyatındakı ən əhəmiyyətli sərvətlərdən birinin övlad olması həqiqətidir. Uşağa sahib olmaq istəyi insanlara gənclik illərindən etibarən öyrədilir. Uşaq insanlar arasında həm səbəbsiz bir rəqabət ünsürü, həm də gələcəyə yönələn bir zəmanət mənasını daşıyır.

Digər bir istək də var-dövlətə və zənginliyə aid olanıdır. Bəlli olduğu kimi, insanların dünya həyatı boyunca bütün hədəf, plan və cəhdləri bu məqsəd üzərində qurulmuşdur. Pul-mal istəyi insanların gözünü örtdüyü üçün bütün əxlaqi dəyərlər öz əhəmiyyətini itirmiş, insan xarakterini formalaşdıran yeganə meyar maddiyyat olmuşdur. Quran əxlaqı, əmr və qadağaları insanların həyatındakı birinciliyini itirmiş, mal-dövlət yığıb toplamaq yeganə məqsəd olmuş, münasibətlərdə maraqlar ön plana çıxmışdır.

Halbuki, qiyamət günü gələndə hər şey tərsinə dönər. İnsanlar qarşılaşdığı günün qorxusundan dəyər verdikləri hər şeyi bir anda unudarlar. Əsas hədəf saydıqları şeylərin artıq bir mənasının olmadığını anlayarlar. Dəyər ölçüləri bir neçə saniyə içində dəyişər. Artıq mal-dövlətin, hətta övladın belə bir dəyəri yoxdur. Ata və analıq duyğuları da öz mənasını itirmişdir. Dünyada ən çox dəyər verdiyi adamları, hətta öz uşağını belə qiyamət gününün dəhşəti qarşısında unudacaqdır. Kimsə öz uşağının vəziyyətini soruşmayacaq, bunu ağlına da gətirməyəcək. Şübhəsiz ki, qiyamətin baş verəcəyi gün inanmayanlar üçün çox ağır bir gündür:

**“O gün göy göyərmiş mis kimi olacaq; dağlar da didilmiş yun kimi olacaqdır. Və dost dostu arayıb axtarmayacaqdır. Onlar bir-birinə göstəriləcəklər. O günün əzabından qurtarmaq üçün günahkar istərdi ki, fəda etsin öz oğullarını; övrətini və qardaşını; ona sığınacaq verən əşirətini!**

**Və yer üzündə olanların hamısını, təki özünü qurtarsın!" ("Məaric" surəsi, 8-14)**

**"Göyün buludla parçalanacağı, mələklərin bölük-bölük endiriləcəyi o gün həqiqi hökmranlıq ancaq Rəhmana məxsusdur; o, kafirlər üçün isə çətin bir gün olacaqdır". ("Furqan" surəsi, 25-26)**

Hələ körpəlik çağında olan uşaqlar belə o gün ailələri tərəfindən atılacaq. İnsanlar heç gözləmədiyi və əvvəllər tayını-bərabərini görmədiyi bu hadisələr qarşısında nə edəcəklərini bilməz, çaşıb qalarlar. Qorxu elə ani və şiddətli bir şəkildə gələcək ki, hamilə qadınlar bu şokun təsiri ilə uşaq salarlar. O çox ağır gündə yaşanacaq hadisələrin qorxusu və dəhşəti ilə qadınların əmizdirdiyi uşaqları da unutduqları Quranda belə bildirilmişdir:

**"Onu görəcəyiniz gün hər bir əmzikli qadın əmizdirdiyi uşağını unudar, hər bir hamilə qadın bari-həmlini yerə qoyar. İnsanları sərxoş görərsən, halbuki onlar sərxoş deyillər. Ancaq Allah'ın əzabı çox şiddətlidir!" ("Həcc" surəsi, 2)**

Qiyamət günü dünyada ikən ona ünvanlanan çağırışlardan üz döndərənlərin, həqiqi dost və yaradıcı olan Allah'ı unudanların bir-birindən qaçıb qurtulmaq istədiyi bir gündür. Hər kəs öz hayında olacaq. O dəhşətli gündə insanlar arasında heç bir bağlılıq- nəsil, əqrəbalıq və ya dost-yoldaşlıq bağları qalmayacaq. Bu mövzu Quranda belə bildirilir:

**"O gün insan qaçacaq öz qardaşından; anasından, atasından; zövcəsindən və oğullarından! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır!" ("Əbəsə" surəsi, 34-37)**

## **İnsanlar sərxoş kimidir**

İnsanlar o gün gördüklərinin qarşısında bütün soyuqqanlılıqlarını, özlərinə olan arxayınlıqlarını və mətanətlərini itirirlər. Ölümlə qarşılaşdığı an hər şey dəyərini itirir, üzlərdəki ifadə, halətlər, söhbətlər, danışıq tərzi fərqlənir.

İnsanların ölüm qarşısında yaşadığı qorxu və dəhşətə filmlərdə şahid oluruq. O anda verilən reaksiyalar insanların halını çox yaxşı izah edir. Amma həmin görüntülərdə insanların az da olsa qurtulma ümidlərinin olduğu görünür. Öləcəklərini qəti bilsələr də, ölümdən sonrasını tam bilməzlər, ya da böyük qismi ölümlə birlikdə yox olacağını düşünər. Halbuki, qiyamət günündə ölüm hələ gəlib çatmasa belə, yaşanan hadisələr insan üçün heç bir qurtuluş ehtimalının olmadığını göstərər. İnkarçılar o zaman inanmadıqları bir günü qarşılarında görərlər. O gün kainatdakı nizamın bir yaradıcısının və qoruyucusunun olmasının və Allah'ın dilədiyi anda da hər şeyin yox olacağı bir gündür.

İnsanlar ölümün o günə qədər düşündükləri kimi yox olma olmadığını anlayarlar. O ana qədər Allah'ın varlığına, dolayısilə, axirətə inanmadıqlarına görə ölümdən sonrakı hadisələr barədə heç düşünməmişlər. Amma Allah'ın varlığını və gücünü bir-birinin ardınca gələn bu hadisələr nəticəsində açıq-aydın görüncə aqibətlərinin də fərqinə varmışlar. Qurtuluş ümidi olmadığı kimi onları gözləyən yeni və sonsuz həyatın olduğunu da anlamışlar. Bu, inkarçılar üçün çox ağır bir həyatdır. Əbədi çəkiləcək əzab və sıxıntı o gün yaşadıqları ilə müqayisə edilməyəcək qədər şiddətli olacaqdır. Ayələrin bildirdiyinə görə, inkarçılar belə həyatın əvəzinə yox olmağı üstün tutacaqlar:

**“Həqiqətən, Biz sizi yaxın bir əzabla qorxutduq. O gün insan öz əlləri ilə etdiyi əməlləri görəcək, kafir isə: “Kaş**

**torpaq olaydım!" - deyəcəkdir". ("Nəbə" surəsi, 40)**

İnsanlar qarşılaşdıqları hadisələrə görə şiddətli qorxu və təşviş içində sərxoş kimi olarlar. Bu vəziyyət Quranda belə bildirilir:

**"...İnsanları sərxoş görərsən, halbuki onlar sərxoş deyillər. Ancaq Allah'ın əzabı çox şiddətlidir!" ("Həcc" surəsi, 2)**

İnsanın qorxduğu andakı hərəkətləri sərxoşların davranışına çox bənzəyir. İnsanlar qorxarkən ağlaya bilər və başları hərlənə bilər.

Bura qədər deyilən hadisələrdən göründüyü kimi, o çətin gündə insanlar təşviş içində olacaqlar. Allah insanların yaşadığı bu şiddətli qorxunu və qorxu nəticəsində yaranan fiziki təsirləri sərxoşluğa bənzədir. O gün sərxoş kimi olan insanlar özlərini itirib ora-bura qaçmağa başlayarlar. Quranda verilən bənzətmə insanların bu vəziyyətini belə açıqlayır:

**"O gün insanlar kəpənək kimi ətrafa səpələnəcək..." ("Qariə" surəsi, 4)**

## Gözlərdəki dəhşət ifadəsi

**"Doğru vəd yaxınlaşdıqda kafir olanların gözləri dərhal bərəlib: "Vay halımıza! Biz bundan qafil idik. Xeyr, biz zalım olmuşuq!" - deyərlər". ("Ənbiya" surəsi, 97)**

Göz qorxunu insana ilk hiss etdirən orqanlardan biridir. O günün qorxusunu yaşayacaq insanların qarşılaşdığı dəhşət səbəbi ilə gözləri hədəqəsindən çıxacaq. Burada gözlərin hədəqəsindən çıxması bənzətməsi insanın yaşadığı qorxunun şiddətini bildirir. İnsan qorxduqda gözü qaralır, göz bəbəyi böyüyür və ağı üzə çıxır. Qiyamət günü istisnasız olaraq insanların hamısı bu qorxunu yaşayacaqlar. Bu tükürpərdici hadisələr qarşısında heç kim heç nə edə bilməz və

baş verən hadisələri önləyə bilməz. Onlar sadəcə qorxu duyarlar. Ayədəki bənzətmə bu qorxunu açıq şəkildə izah edir.

**Uşaqların saçının ağarması**

**"Elə isə əgər küfr etmiş olsanız, uşaqları ağ saçlı qocalara döndərəcək gündən özünüzü necə qoruyacaqsınız?!" ("Müzzəmmil" surəsi, 17)**

Qiyamət gününün qorxusu kiçik uşaqları da bürüyəcək. Bu günün həqiqi mahiyyətini bilməyən, bunun sonsuz əzabın ilk günü olmasını anlayacaq gücdə olmayan uşaqlarda da yetkin adamlardan fərqli qorxu vardır. İnsanlar müvəqqəti dünya həyatı boyu etdikləri əxlaqsızlıqların peşmanlığı içindədir. Uşaqlar isə hələ nə olduğunu qavrayacaq ağılda deyil. Buna baxmayaraq, gördükləri hadisələrin şiddətindən saçları ağappaq olur. Belə fiziki dəyişiklik o ağır günün böyüklüyünü anlamaq baxımından olduqca mühümdür. Çünki o günə qədər dünyada fərqli növlərdə fəlakətlər yaşanmışdır. Hər biri insanlara şiddətli qorxu vermiş və onları dərindən təsirləndirmişdir. Amma bu fəlakətlərin heç biri qiyamət günü meydana gələcək hadisələrlə müqayisə edildiyində uşaqların saçlarını ağardacaq qədər şiddətli deyildir. O gün insanların dünya həyatı boyu yaşadıqları ən ağır, ən çətin gündür. Belə ki, qarşıya çıxan hadisələrin şiddəti qısa ömürləri boyu qorxunun mahiyyətini və təhlükələrin nəticələrini tam dərk edə bilməmiş uşaqların da saçının qorxudan ağappaq olmasına səbəb olmuşdur.

## Heyvanların vəziyyəti

Gözləriniz önündə vəhşi heyvanları canlandırmağa çalışın: pələng, şir, canavar, çaqqal, ayı... Ancaq qəfəsdə ikən bir araya gələn bu heyvanlar qiyamət günündə hadisələrin təsiri ilə artıq mübarizəni

bir tərəfə buraxacaq və bir araya toplanacaqlar. Minlərlə vəhşi heyvanın meydana gətirdiyi bu görüntünün dəhşəti və qorxulu cəhətləri isə açıq-aşkardır. Allah qiyamət günü təbiət və insan üzərində böyük dəyişikliklər olacağını olduqca çox ayədə bildirib. Eyni şəkildə, vəhşi heyvanlar o ağır gündən daha çox təsirlənəcəklər:

> **“Boğaz dəvələr başlı-başına buraxılacağı zaman... Vəhşi heyvanlar bir yerə toplanacağı zaman...” (“Təkvir” surəsi, 4-5)**

# KAİNATI ALLAH YARATDI

Kainatın necə yaradıldığı mövzusunda indiyə qədər olduqca çoxsaylı və fərqli yanaşmalar olmuşdur. Kimisi kainatın bir başlanğıcının olduğunu irəli sürmüş, kimisi də maddənin əzəldən bəri var olduğu iddiasını müdafiə etmişdir. Maddənin əzəldən bəri mövcud olduğunu müdafiə edən bu nəzəriyyələrdən biri Sabit kainat nəzəriyyəsi idi. Aparılmış uzunmüddətli və əhatəli araşdırmalar nəticəsində ortaya çıxan güclü dəlillər kainatın bir başlanğıcının olduğu tezisini təsdiqlədi. Sabit kainat nəzəriyyəsi isə elmin tarixi inkişafı dövründən ancaq bir xatirə olaraq qaldı.

Araşdırmalar nəticəsində əldə edilən faktlar kainatın yoxdan yaradıldığını göstərdi. Buna görə də kainatın bir başlanğıcı vardır və bu başlanğıc “Big Bang” (Böyük partlayış) adı verilən böyük bir partlayışla gerçəkləşmişdir. “Big Bang”dən əvvəl maddə, enerji, kosmos, zaman, məkan, bir sözlə, heç bir şey yox idi. Sonsuz sıxlıqda və sıfır həcmindəki bir nöqtənin partlaması nəticəsində qorxunc sürətlə hər tərəfə dağılan maddələrdən ulduzlar, günəşlər, planetlər meydana gəlmiş, kainat sürətlə genişlənmiş, sürətlə şişərək böyümüş və zaman keçdikcə soyuyaraq indiki halını almışdır.

Bu gün kainatın “Big Bang”lə bərabər başladığı, meydana gəlmə şəkli səbəbi ilə müəyyən bir yaşının olduğu bütün kosmologiya kitablarında, elmi jurnal və məqalələrdə isbatları ilə yer alır. Bunları bir neçə sətrə sığışdırmaq qeyri-mümkün olduğundan mövzunun

əhəmiyyətini sadəcə olaraq bir-iki misalla vurğulamaq yerinə düşərdi.

Məsələn, Kaliforniya Universitetindən (ABŞ) olan professor Corc O.Abel *"Kainatın kəşfi" (Exrloration of Universe) adlı kitabında yazır: "Bu günkü mövcud dəlillər kainatın milyonlarla il qabaq "Big Bang"lə başladığını göstərir. "Big Bang" nəzəriyyəsini qəbul etməkdən başqa çarəmiz qalmır. Bu vəziyyətdə Sabit kainat nəzəriyyəsi artıq reallığını və gücünü itirmişdir"*.[1]

Kolorado Universitetindən (ABŞ) Qerrit L.Verhur "Star Cares" adlı kitabında: ""Big Bang" nəzəriyyəsi dini inancların göstərdiyi, dünyanın və göylərin yaradılmış olduğu həqiqəti ilə uyğunluq təşkil edir. Bu, astronomiyanın dinlə birlikdə olduğunun sürpriz bir nəticəsidir", - deyə açıqlamışdır.

Kainatın bir başlanğıcının olması kainatın yoxdan var edildiyinin, yəni yaradıldığının əsas dəlilini təşkil edər. Əgər yaradılan varlıq varsa, bunun mütləq bir yaradıcısının da olmasının lazım gəldiyini hamımız çox yaxşı bilirik. Yaradılan bu kainat heç bir nümunə yox ikən, hətta zaman və məkan da yox ikən yoxdan yaradılmışdır. Bu nəzəriyyənin ən mühüm yönü onun kainatın bir başlanğıcının olmasını, üstün və güclü bir yaradıcı tərəfindən yaradıldığını isbat etməsidir: kainatı Allah yaratmışdır.

"Big Bang" kainatda hesablaya bildiyimiz ilk hərəkətdir. Böyük partlayışın ardından bu günə qədər inkişaf edən saysız hərəkətin və hadisənin hər biri Allah'ın izni ilə meydana gəlmişdir və Onun nəzarəti altındadır. Biliksiz, zəkasız, elmsiz bir partlayış nəticəsində dağılan parçacıqların belə bir nizamlı qalaktikaları, ulduz sistemlərini və içində dünyamızın da yer aldığı Günəş sistemini təşkil etdiyini düşünmək ağıldan və məntiqdən uzaq bir yanaşmadır. İnsanın öz bədəni də daxil olmaqla, ətrafında gördüyü hər şey Allah'ın elmi və nəzarəti ilə sonsuz bir nizam içində yaradılmışdır. Quranda Allah'ın

əvvəl göyləri yaratdığı, sonra yeri meydana gətirdiyi, daha sonra da canlıları yaratdığı bildirilir.

Allah kainatı həssas bir nizam və tarazlıq içində yaratmışdır. Atmosferdəki qazların nisbətindən tutmuş dünyanın istiliyinə, yağışın düşmə sürətindən tutmuş dünyanın nüvəsindəki dəmirin miqdarına qədər insanın bildiyi və bilmədiyi saysız məsələ bir-birinə sıx bağlıdır. Buna daha bir misal olaraq kainatdakı bütün planetləri və dünyamızı Günəşin orbitində saxlayan cazibə qüvvəsini göstərə bilərik. Kainatdakı bütün kütlələr böyüklükləri nisbətində cazibə qüvvəsinə malikdir. Dünyamız sahib olduğu kütlə nisbətində cazibə qüvvəsinə malikdir və bu qüvvə dənizləri, canlı-cansız hər şeyi dünya üzərində sabit saxlayır. Beləliklə, nə insanlar, nə digər canlılar, nə də dağ və dənizlər kosmos boşluğuna uçurlar. Bu nöqtədə mühüm olan məsələ dünyanın kütləsinin böyüklüyünün çox həyati bir dəyər daşımasıdır. Dünyanın kütləsi bir az da artıq olsaydı, üzərindəki hər şeyi özünə daha güclü şəkildə çəkərdi. Bunun nəticəsində su yerin içinə çəkilər, insanlar cazibənin təsiri ilə yeriyə bilməz, su ağacların budaqlarındakı yarpaqlara çatmaz, yerə çəkildiyi üçün bitki örtüyü yox olardı. Həmçinin canlıların vücudundakı qan dövranı pozulardı və bütün qan ayaqlarda toplanardı. Belə nümunələri çoxaltmaq mümkündür, ancaq bu məqamda əhəmiyyətli olan məsələ dünyanın kütləsinin bu andakı ekoloji tarazlığı quracaq və canlıların öz varlıqlarını sürdürəcəkləri şəkildə çox həssas bir ölçüdə olmasıdır.

Dünyanın sonunun necə olacağı mövzusunda tədqiqatlar aparan alimlər hər şeyin zaman keçdikcə azalıb çürüməkdə olduğunu və bu çürümə nəticəsində kainatın sonunun gələcəyini təxmin etməkdədir. Alimlər dünya üzərində tək bir protonun tarazlığının pozulmasının bu sona səbəb olacağını bildirir və böyük bir təhlükəni xəbər verirlər:

*"Cahanşümul çürümə əgər həqiqətdirsə, o, əsrlər sürəcək, amma gerçəkləşdiyi zaman ondan nə ulduz, nə insan, nə şəhər, nə atom, nə*

*də xatirə qalacaq..."*

Bu acı həqiqətə diqqət çəkildikdən sonra əsl təhlükəyə işarə edilir:

*"Bu günə qədər aparılmış heç bir tədqiqat hələ bir protonun belə yox olduğunu dəqiqləşdirmiş deyil. Ancaq bu, alimlərin bu mövzuda tədqiqat aparmaqdan imtina etməsinə səbəb olmayıb. Alimlərin proton çürüməsinə şahid olması bütün kainatın yoxolma təhdidi ilə qarşı-qarşıya olması mənasına gələcək. Hətta tək bir protonun yox olması belə kainatdakı hər şeyin çürüməsi deməkdir, çünki bir protonun çürüməsi bütün protonların çürüyə biləcəyini və bu səbəblə atomların, molekulların və DNT-lərin yarana bilməyəcəyini göstərir".*[2]

Burada sadalanan bir neçə xüsusiyyət belə kainatın üstün bir güc tərəfindən çox böyük bir nizam və tarazlıqla yoxdan yaradıldığını dəlillər əsasında göstərir. Eyni üstün qüdrət bu qüsursuz nizamı hər an qoruyur:

**"Həqiqətən, Allah göyləri və yeri zaval tapmasınlar deyə tutub saxlayır. Əgər öz mehvərindən çıxsalar, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Doğrudan da Allah həlimdir, bağışlayandır!" ("Fatir" surəsi, 41)**

Allah Quranda kainatda var olan hər şeyin bir sonunun olacağını bildirmişdir. Əlbəttə, kainatı yaradan və onu hər an qoruyan Allah dilədiyi anda onun varlığına son verməyə də qadirdir. Var olan bütün tarazlıq və nizamlar bu böyük qapanış günündə pozulacaq, insanın qavraya bilmək üçün heç dayanmadan cəhd göstərdiyi və böyüklüyünə heyran olduğu hər şey alt-üst olacaqdır:

**"Bir şeyi yaratmaq istədiyi zaman buyruğu ona ancaq: "Ol!" - deməkdir. O da dərhal olar. Hər şeyin hökmü əlində olan Allah pak və müqəddəsdir. Siz də Onun hüzuruna qaytarılacaqsınız!" ("Yasin" surəsi, 82-83)**

## Kainatın yox olması an məsələsidir

Dünyamız dörd bir yandan ölümcül təhdidlər altındadır. Çaşdırıcı məsələ isə bir çox insanın bu təhlükələrdən xəbərdar olmalarına baxmayaraq, sanki kainatın varlığını sona çatdıracaq heç bir təhlükə yoxmuş və həyatları çox böyük bir zəmanət altında imiş kimi hər şeyi qulaqardı edərək hərəkət etməsidir. Bu vəziyyətdə insanın ağlına nə ölüm, nə yox olma, nə də ölüm sonrası olacaqlar gələr.

Dünya ucsuz-bucaqsız boşluq içində uzun səyahət halındadır. Halbuki, dünyanın bu səyahətini davam etdirməsi üçün lazım olan şərtlər güman ediləndən də artıqdır. Dünya kosmosdakı bu səyahəti sırasında nəhəng kometalardan quyruqlu ulduzlara, qara dəliklərdən supernova partlayışlarına qədər bir çox təhlükə ilə qarşılaşır. Dünyanın öz orbitində qalması, sürətini sabit saxlaması, müvazinətini pozmaması, öz oxu ətrafında dövr edərkən, eyni zamanda da Günəşin ətrafında dövr etməsi, fırlanan zaman bir spiral orbit izləməsi, bu səyahəti zamanı hər an lazım olan bütün nisbət və tarazlıqları sabitləşdirməsi lazım gəlir ki, onun üzərində həyat ola bilsin. Elə isə bu tarazlığın pozulmaması və ya xaricdən gələcək bir təhlükənin öldürücü zərər verməməsi üçün heç bir səbəb yoxdur. Alimlər bu təhlükənin varlığına hər fürsətdə diqqət çəkirlər. Onlar dünyanın bir təhlükə ilə hər an qarşılaşa biləcəyi məsələsində əllərindəki elmi faktlara istinad edərək həmfikirdirlər. Professor Çarlz Saqan bu vəziyyətə belə işarə edir:

*"Yer üzü gözəl və olduqca sakit bir yerdir. Dəyişən şeylər olur, fəqət bunlar da çox yavaş inkişaf edir. Ola bilər ki, həyatınızı bir fırtınadan daha şiddətli bir təbii fəlakət görmədən tamamlayasınız. Beləcə, gərginliksiz və həyəcansız ola bilərik. Necə ki, təbiətin tarixində qalıqlar açıq-saçıqdır. Dünyaların hər zaman üçün yox olması qaçılmazdır. Biz insanlar belə öz fəlakətlərimizi yaratmağa varan bir texnikaya nail olmuşuq. Bu, qəsdən ola biləcəyi kimi bilmədən,*

*ehtiyatsızlıq nəticəsində də gerçəkləşə bilər. Uzun keçmişin fəlakət izlərinin qorunduğu digər planetlərdə böyük fəlakətlərlə bağlı bir xeyli qalıq durur. Bütün iş zaman problemindədir. Yüz il içində olması düşünülməyəcək bir fəlakət yüz milyon ildə gerçəkləşə bilər. Yer kürəmizdə içində olduğumuz əsrdə belə pis təbii hadisələrlə qarşılaşmışıq".*[3]

Kainatın yuxarıda da sayılan səbəblərdən birinin nəticəsində yox olması ehtimalı heç də çaşdırıcı deyildir. Allah'ın qiyamət günündə olacağını söylədiyi hadisələr bəlkə də dünyadakı bütün bu tarazlığın pozulması ilə meydana gələcəkdir. Son dərəcə qüsursuz bir şəkildə işləyən bu nizamın pozulması dalbadal gələn fəlakətlərlə nəticələnə bilər. Bax, insanların özlərindən bu qədər uzaq gördüyü, hətta varlığını da ehtimal etmədikləri qiyamət günü onların özlərinə bəlkə də çox yaxındır.

## Dünyamızın ölümünə səbəb ola biləcək ehtimallar

Dünyanın öz mövcudluğunu davam etdirməsi üçün kainatda mövcud olan saysız şərtin eyni anda və eyni şəkildə var olması lazımdır. Bu gün bir çox alim bu detalların tarazlığın pozulması üçün nələr edilməsi lazım gəldiyini araşdırır. Kiçik bir misal göstərmək lazım gələrsə, qeyd edək ki, alimlər və ekologiya ilə bağlı qurumlar sadəcə neft, kömür kimi yanacaqlardan istifadə edilməsi səbəbi ilə ortaya çıxan iqtisadi və ekoloji məsələlərin də azaldılmayacağını bildirirlər. Mütəxəssislərin sözügedən yanacaqdan istifadə edilməsinin nəticəsi olacağını dəqiq saydığı, hətta olduqca yaxın tarixlərdə verdiyi fəlakət ssenarilərindən bəziləri: [4]

1. Qanq və Nil kimi dünyanın ən uzun çaylarının deltaları sular altında qalacaq. Banqladeş torpaqlarının dörddə biri Çindəki çayların deltaları ilə sulara qərq olacaq.

2. Maldiv adaları ilə böyük okeandakı adalar və ada dövlətlər sulara gömülüb yox olacaq.

3. Böyük tarım sahələri (ABŞ-ın orta qərb bölgəsi, Avropa və Qazaxıstan) səhralaşacaq. Türkiyə böyük səhraya bənzəyəcək.

4. Yüksək bölgələrdəki donmuş torpaqlarda (Sibir və Kanada) cüzi çözülmə müşahidə ediləcək. Boru xətləri, dəmir yolları və binalar yıxılıb dağılacaq.

5. Dünyada meşə ərazilərinin üçdə biri yox olacaq. Dünyanın ağ ciyəri olan yaşıl sahələrin azalması atmosferdəki karbonun miqdarının daha da artmasına səbəb olacaq. Bu da turşu təsirinin artmasına və müxtəlif kütləvi tibbi problemlərə səbəb olacaq.

6. Tropik zonalarda görünən tayfun və siklon kimi təbiət hadisələri çoxalacaq. Xüsusilə böyük okean və Atlantik okeandakı dib axıntıları (El Nino və Gulf Stream) istiqamətini dəyişərək quru və dəniz iqlimlərini alt-üst edəcək.

7. ABŞ-ın Texas ştatı ilə Avropanın Ağ dəniz sahillərində malyariya və buna bənzər xəstəlik epidemiyası müşahidə ediləcək.

8. Alplarda və silsilə dağlarda olan buzlar və Himalay buzlarının 25 faizi əriyəcək (əriyən suyun vuracağı zərər təxmin ediləndən də çoxdur). Əriyən buzlar bir çox sahil şəhərlərinin su altında qalmasına səbəb olarkən ada dövlətlər su altında qaldıqları üçün yer üzündən silinəcəklər. Bu hadisə buralarda yaşayan 100 milyondan artıq insanın ölməsinə, ya da ekoloji fəlakətə səbəb olacaq.[5]

Bunlar təkcə gözlənilən və elmi araşdırmalar nəticəsində müəyyən olunan təhlükələrdir. Dünya belə bir fazaya daxil olduqdan sonra artıq bunun qarşısının alınmasının Allah'ın diləməsindən başqa heç bir yolu yoxdur. Sadəcə olaraq 1997-ci ildə atmosferdəki karbon qazının 25 faizlik artımı qlobal istiləşməyə yol açmış, buzlar əriməyə başlamış, əriyən buz dağları okeanların səviyyəsini yüksəltmiş, qış hər zaman olduğundan daha ağır keçmiş, hədsiz yağışlar, şiddətli fır-

tınalar, sel basma və daşqın halları bir çox insanları fəlakətlə üz-üzə qoymuşdur. Qalınlığı sadəcə millimetrlərlə ifadə edilən ozon təbəqəsinin deşilməsi ilə dünya zərərli şüalara məruz qalmış, xərçəng xəstəlikləri çoxalmış, bitkilərdə mənfi yönlü inkişafa rast gəlinmişdir. Yaşıl Sülh Təşkilatı (Greenrease) və ABŞ alimləri Alyaskada apardığı bir araşdırmada Berinq körfəzinin sahilinin 12 km kiçildiyini müəyyən ediblər. Dənizin istiliyi 0,8 dərəcə artmış, mühüm bir tarazlıq ünsürü olan mərcanlar ölməyə başlamış və planktonların 80 faizi yox olmuşdur.[6]

Son bir neçə yüz il içində dünyanın sonunu gətirə biləcək olduqca çox ehtimal ortaya çıxmışdır və günlər keçdikcə bu ehtimalların sayı daha da artır. Bu anda dünya üzərində meydana gələn hadisələr siqnal dəqiqliyi daşıyır, bir gün dünyanın sonunun mütləq gələcəyini və bu sonun get-gedə yaxınlaşdığını göstərir. Xüsusilə fiziklər və çeşidli alimlər bu narahatlığı davamlı şəkildə dilə gətirirlər:

> *“Əgər kainat məhdud bir nizama sahibdirsə və nizamsızlığa doğru qaçılmaz bir formada - sonda termodinamiki tarazlığa - dəyişirsə, iki çox dərin nəticəni dərhal izləməyə başlayar. Birincisi, kainat sonunda ağır-ağır yuvarlanaraq öz entropiyası içində öləcək. Bu, fiziklər arasında kainatın “isti ölümü” kimi qəbul edilir. İkincisi, kainat əbədi şəkildə yaradıla bilməz, bu üzdən məhdud bir zaman öncə tarazlığı son həddə çatacaq. Xülasə olaraq, kainat daimi var olmadı”.*[7]

Çaşdırıcı olan məsələ ölümün bu dərəcə yaxın olması həqiqətinin qarşısında hələ öz sonunu düşünməyən, Allah’dan qorxmayan və həvəslə dünyaya bağlı olan bir çox insanın mövcudluğudur. Yenə çaşdırıcı olan məsələ ölüm həqiqəti xatırladıldığında və bu çox ağır günün təfərrüatı veriləndə insanların böyük çoxluğunun hər şeyə baxmayaraq, bütün bunları özlərindən çox uzaqda görməsidir. Quran ayələrini lap əvvəldən rədd etdiklərindən qiyamətə dair təsvirlər də

onlar üçün bir məna ifadə etmir. Bu insanlar sanki heç ölməyəcəklər və dünyada sonsuza qədər qalacaqlarmış kimi hazırlıq edir, bir anda yox olacaq ömür üçün sonsuz həyatlarını təhlükəyə atırlar. Halbuki, insanın qarşısında künc-bucağa qaçacağı ölüm onu mütləq tapacaq. Nə insanın, nə də kainatın ölümü qarşısında belə bir qaçış yolu və ya həyata keçiriləcək bir tədbir vardır:

**"De: "Qorxub qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır. Sonra siz gizlini də, aşkarı da bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nələr etdiyinizi xəbər verəcəkdir!" ("Cumuə" surəsi, 8)**

Göründüyü kimi, dünyanın bir gün mütləq yox olacağı inanc olmaqla yanaşı, həm də fiziki həqiqətdir. Bu sonu hazırlayan səbəblər özünü bir-bir göstərir, elmi tərəqqi çərçivəsində ortaya çıxırlar. İnsanların bir hissəsi Allah'ın varlığına inanmasa da, yaxud hər hansı bir dini inama sahib olmasa da, kainatın qaçılmaz sona doğru yaxınlaşdığını istər-istəməz qəbul etmək məcburiyyətindədirlər. Bu vəziyyətdə qiyamət və axirət anlayışının xaricinə yeni anlayış çıxır. Bu anlayış olduqca qorxuncdur, çünki mənası sonsuz yoxolmadır. Kainatın sonunun yaxınlaşdığını xatırladan əlamətlər insanların önündə bir neçə alternativ açır: inkarçıların bəzisinə görə sonsuz yoxolma, Allah'a inananlar üçün isə ya sonsuz əzab, ya da sonsuz nemət...

## Qapalı kainat - açıq kainat modeli

Alimlər "Big Bang"in rədd edilməsi mümkün olmayan, ehtimali faktlardan əldə edilən elmi bir nəzəriyyə olması mövzusunda həmfikirdir. Buna görə, kainat sonsuz sıxlıqdakı bir nöqtənin birdən-birə böyük bir partlama ilə genişlənib yayılmasının nəticəsi olmuşdur. Bu partlama nəticəsində sürətlə dağılan, getdikcə genişlənən və soyuyan kainat zaman keçdikcə bügünkü halını almışdır.

Yaxşı, bu genişlənmə daha nə qədər davam edəcək? Bir maddənin kütləsi artıq olarsa, cazibə qüvvəsi də o nisbətdə artıqdır. Bu vəziyyətdən yüksək cazibə qüvvəsi genişlənmə sürətini üstələyər. Əksinə, cazibə qüvvəsi az olarsa, bu qüvvənin genişlənməni əngəlləməyə gücü çatmaz. Alimlərin fikrincə, əgər kainatın kütləsi müəyyən bir dəyərin üzərindədirsə, genişlənmə bir gün dayanacaq və kainat öz içinə çökəcək. Bu, qapalı kainat modelidir. Digər yandan, kainatın kütləsi müəyyən bir dəyərin altındadırsa, cazibə qüvvəsi genişlənmə sürətini üstələyə bilməyəcəyindən kainatın genişlənməsi heç dayanmayacaq. Bu da açıq kainat modelidir.

### Kainatın sonu: açıq və qapalı kainat

Daha əvvəl də bildirdiyimiz kimi, kainat Allah'ın daha əvvəl başqa bir səbəbi vasitə etməsi xaricində ya qapanıb yeganə bir nöqtədə toplanaraq, ya da sonsuza qədər genişlənərək yox olacaq. Kainatın qapalı və ya açıq, hansı modellə sona çatacağını təxmin etmək üçün kainatdakı kütlə miqdarını bilmək gərəkdir.

Kainatın kütləsini ölçmək son dərəcə çətin olduğundan alimlər kütlə yerinə sıxlığı ölçməyi qərara almışlar. Çünki əgər kainatın sıxlığı kritik sıxlıq dediyimiz bir dəyərə çatırsa, sahib olduğu cazibə gücü qalaktikaların fəzada süzmə (qaçış) sürətini üstələyə bilir. Beləliklə, kainat bütün qalaktikaları özünə doğru çəkə bilər. Ancaq sözügedən sıxlıq kritik bir dəyərə çatmırsa, genişlənmə sonsuza qədər davam edər. Çünki bu cazibə qüvvəsi qalaktikaların qaçış sürətini üstələyə bilməz. Bu nöqtəyə istinad edən saysız alimlər kainatın sonunu öyrənmək məqsədi ilə çox çeşidli araşdırmalar aparmış, teleskop başında dayanaraq saatlarla qalaktik sistemlərdən gələn şüaları analiz etmişlər.

Bunun üçün qalaktik sistemlərin sürəti, ölçüsü, parlaqlıqları, uzaqlıqları hesablanıb, kainatın həqiqi sıxlıq dəyəri araşdırılıb. Əldə edilən ilk məlumatlar kainatdakı hazırkı mövcud sıxlığın kritik sıx-

lığın dəyərinə olduqca yaxın olduğunu göstərmişdir. Yəni kainatın qapalı olması ehtimalı daha yüksək olaraq müəyyən edilib. Daha sonra bu çalışmaya 1986-cı ildə iki amerikalı tədqiqatçı Edvin Loh və Örl Spilar minlərlə qalaktikanı öyrənərək əldə etdikləri nəticələr də əlavə olunanda kainatın qapalı olması ehtimalı 90 faizə çatdı.

Ayrıca, bu 90 faizlik ehtimalı ortaya çıxaran sıxlıq hesablanarkən hesaba qatılmayan və işıq yaymayan qara dəliklər kainatın sıxlıq dəyəri hesablanarkən heç nəzərə alınmamışdı. Buna görə, kainatdakı sıxlıq dəyəri qara dəliklərin də hesaba alınması ilə bir miqdar da artacaq. Son illərdə adına qaranlıq maddə deyilən və bütün qalaktikaları dolduran, gözlə görünməyən maddələrin sıxlığını da bunlara əlavə etsək, ortaya çıxan tablo kainatın genişlənməni buraxıb öz içinə çökəcəyi ehtimalının mümkün olduğunu göstərir. Həmçinin dr. Con Qribbin: "Bu zaman qapalı kainat modeli üçün ortaya atılan dəlillər indiyə qədər heç bu qədər qüvvətli olmamışdı", - deyir.[8]

Yəni olduqca kritik bir yaş və tarazlıqda olan kainat hər an qiyamətə hazır vəziyyətdədir. Allah Quranda "Ənbiya" surəsinin 104-cü ayəsində kainatı yaratmağa başladığı vəziyyətinə döndərəcəyini bu şəkildə bildirir:

**"Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü yadınıza salın. O gün insanları ilk dəfə yaratdığımız kimi qaytarıb əvvəlki halına salarıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik". ("Ənbiya" surəsi, 104)**

Ayə ilə qapalı kainat modelinə diqqət çəkilməsi ehtimalı yüksəkdir. Bura qədər anlatdıqlarımızdan da göründüyü kimi, elmi məlumatlar da kainatın təkrar büzüşmə ehtimalının yüksəkliyini göstərir. Belə ki, materialist ideologiyasının tərəfdarları da əldə edilən nəticələrin mütləqliyi qarşısında ortaya çıxarılacaq yeni bir iddia tapa bilməyiblər.

Çikaqo Universiteti (ABŞ) astronomiya bölümünün sədri Şermann keçmişdən kainatın qapalı olduğu fikrinin fəlsəfi və dini təməllərə dayandığını, ancaq bu anda modelin doğruluğunu sübut edən bir çox nəzəri və praktiki dəlillərin olduğunu bildirir.[9]

Bəli, kainatımız 15 milyard ildir genişlənir. Fəqət ortaya çıxan nəticəyə görə, böyük ehtimalla Allah qatında zamanı bəlli bir gündə cazibə qüvvəsi genişlənməyə hakim olacaq və genişlənmə dayanacaq. İfrat dərəcədə sıx və qapalı bir kainatda cazibə qüvvəsi hökmran hala gəlincə hər şey öz içinə çökməyə başlayacaq. Hər şey tərsinə döndüyündə o zamana qədər soyuyaraq genişlənən kainat daralaraq istiləşməyə başlayacaq, bütün qalaktik sistemlər sürətlə bir-birinə yaxınlaşacaqlar.

Bu modelə görə, bir gün cazibə qüvvəsi qalaktikaların genişlənməsini saxlayacaq və qalaktikalar bu nöqtədən etibarən getdikcə artan bir sürətlə bir-birinə doğru irəliləməyə başlayacaqlar. Kosmosda şiddətli toqquşmalar olacaq, nəhəng göy cisimləri iç-içə keçməyə, birləşməyə başlayacaqlar. Ay, günəş, dünya, bütün planet və ulduzlar birləşəcək, getdikcə büzüşəcək və daralan kainat yaşanan bu prosesin sonunda bir nöqtədə toplanıb yox olacaq. Dünyanın orbitində meydana gələcək bir fərqin bütün canlıların yanmasına və ya donmasına səbəb olacağını, atmosferdəki kiçik bir dəliyin canlı aləmə nə qədər mənfi təsir edəcəyini, dünyanın 23-27 dərəcəlik arada kiçik bir dəyişiklik olması ilə mövsümlərin dəyişməyəcəyini bilirik. Beləliklə, həssas tarazlıq üzərində qurulan nizamın kainatın büzülmə prosesinə girdiyində nə qədər mənfi təsirlənəcəyini təxmin etmək heç də çətin deyil. Allah Quranda qiyamət günü Ayla Günəşin birləşəcəyini bildirir. Bu ayələrin qapalı kainat modelinə diqqət çəkməsi ehtimalı var. Büzülmə gerçəkləşsə, bəlli bir zamanda dünyanın, Günəş sistemindəki digər planetlərin, Ayın və Günəşin bir-biri ilə birləşəcəyi böyük bir ehtimaldır.

Yenə Quranda ulduzların yerlərindən sürüşüb töküləcəyi ulduzların səpələnəcəyi bildirilmişdir ("Təkvir" surəsi, 2). Bu ayədə, eyni zamanda, qapalı kainat modelinə diqqət çəkilmiş ola bilər. Çünki bu ehtimalda da hər bir ulduz özünə aid orbitdən çıxıb bir araya gələcək. Geriyə doğru daralan kainatda kosmik zaman ölçüsü də geriyə doğru işləyəcək. Bu vəziyyətdə Yer üzündə görülməsi ehtimal edilən hadisələrlə qara dəliyə girilməsi mərhələsində gözlənən hadisələrin bənzər olma ehtimalı var. Çünki hər şey tərsinə dönəndə cazibə qüvvəsi də tərsinə dönər, Yer ağırlıqlarını çölə atar. Yer üzü sallanar, dağlar parça-parça olar, dənizlər daşar. Nə qədər sürəcəyi bəlli olmayan bir proses içində Allah'ın Quranda qiyamətlə bağlı təsvir etdiyi hadisələr gerçəkləşər.

Qısaca bunu söyləyə bilərik: qapalı kainat modeli gerçəkləşəndə bütün kainat daha əvvəl də bildirdiyimiz kimi, tək bir nöqtədə birləşib yox olacaq.

Genişlənən kainat modeli də kainatın qurtuluşu demək deyil. Bu modelin gerçəkləşməsinin mənası kainatın başqa hadisələrlə yox olacağıdır. Kainatın yaradıldığı andan bəri müntəzəm şəkildə sıxlığı artmış və temperaturu mütləq sıfıra çox yaxınlaşmışdır. Kosmosun hazırkı temperaturu -270 dərəcədir ki, bu dərəcə mütləq sıfırdan təkcə 3 dərəcə yüksəkdir. Kainatın genişlənməyə davam etdiyi müddətdə temperatur daha da düşəcəkdir. Canlı aləmin yaranması üçün gərəkli olan istilik -270 dərəcədir. Buradan 1 dərəcə az və ya 1 dərəcə çox olması bütün canlıların ölməsi mənasına gəlir.[10] Kainat genişlənməyə davam etdiyi müddətdə bu nisbətin sabit qalması ehtimalı yoxdur. Temperatur düşəndə bəşəriyyət yer üzündən silinəcək.

Son tədqiqatlardakı mütləq kəşflər qapalı kainat modelinin gerçəkləşə biləcəyi ehtimalını ortaya qoyur. Ancaq alimlərin müfəssəl araşdırmaları nəticəsində gəldikləri yekdil nəticə modellərdən hansı hakim olursa olsun, kainatın aqibətinin

dəyişməyəcəyidir. İki modeldə də kainat öləcək, fəqət bu ölüm fərqli şəkil və nəticələrlə olacaq. Qarşıdakı bölümlərdə müfəssəl şəkildə anladıldığı kimi, hər iki model dünyaya qiyaməti gətirəcək. Fəqət bunun yanında dünyanın sonunu gətirə biləcək başqa səbəblər də var. Bunlardan biri Günəşin öz ömrünü tamamlamasıdır. Allah'ın yaratdığı səbəblər daxilində kainat bu modellərdən biri ilə yox olacaq. Ancaq əlbəttə ki, hər şeyin ən doğrusunu Allah bilir.

## Günəşin öz ömrünü tamamlaması

Bəlli olduğu kimi, kainatı təşkil edən göy cisimləri doğulur və varlıqlarını bəlli bir müddət davam etdirdikdən sonra ölürlər. Günəşimizin də belə məhdud bir ömrü var. Kainat qapalı, ya da açıq kainat modellərindən biri ilə sona çatmadan əvvəl Günəşin öz ömrünü tamamlaması ehtimalı aktual mövzudur. Günəşin ömrünü tamamlaması isə əlbəttə, dünyanın da ölməsi anlamına gəlir.

Təxminən 5 milyard yaşı olan Günəş 1 saniyədə 564 milyon ton hidrogeni 560 milyon ton heliuma döndərərək yerdə qalan 4 ton maddəni enerjiyə çevirir.[11] Günəş hidrogeni yandırıb istehlak həddinə gələndə dünyanın sonu gələcək. Bu həddə mərkəz təbəqələrində qatı halda olan hidrogenin yerinə helium artmağa başlayacaq, bu anda 20 milyon dərəcə olan Günəşin mərkəzdəki temperaturu 100 milyon dərəcəyə çatacaq. Beləliklə, Günəşin mərkəzi olduqca qaynar bir qor halına gələrkən ətrafı da getdikcə şişən xarici təbəqələrdən təşkil olunmuş bir forma alacaq, Günəşə sarının yerinə qırmızı bir rəng hakim olacaq. Günəş qırmızı bir nəhəngə çevriləcək.

Alimlərin bu həddən sonra proqnozlaşdırdığı proseslər isə belədir: dünyadakı həyatın can damarı olan Günəş həddən çox böyüyüb şişər və ətrafındakı geniş sahəni əhatəsi altına alar. Daha sonra ətrafında olan planetlərə atəş və alov püskürməyə başlayar. Bunun təbii nəticəsi olaraq ətrafındakı bütün kiçik planetlər yox olmağa başlayar. Ətraf mühit bu anda olandan daha isti olmasa da, həcmcə çox

iriləşdiyindən yaxınında olan planetlər yaydığı istidən daha çox təsirlənər. İlk öncə Merkuri, ardınca da Venera Günəşin şüaları ilə əriyər.

Bildirdiyimiz kimi, dünya üzərindəki canlı aləmin davamı ancaq kainatda var olan olduqca çox həssas tarazlığın qorunmasına bağlıdır. Məsələn, dünyanın Günəşə indiki uzaqlığından bir az daha yaxın olması bütün canlı həyatın yanıb qovurulması üçün yetərlidir. Bu səbəbdən, Günəşin şişməyə başlayanda daha dünyaya çatmadan dünyadakı nizam bundan daha çox təsirlənəcəkdir. Günəşin Merkuri və Veneranı qovurduğu bir həddə dünyanın, əslində, bütün tarazlığı pozulmuş olacaq. Bu sırada dünyada həyatdan söz getməsi mümkün deyil. Bir müddət sonra Günəşin yaydığı şüalarla, əvvəlcə, okeanlardakı sular həddən artıq istidən buxarlanacaq, dağ-daş bir anda əriyərək qaz halına gələcəkdir. Bütün dünya bir göz qırpımında yanaraq bir ovuc toz halında kosmosa qarışıb gedəcəkdir. Bu, dünyamızın sonudur. Alimlər bu nəticəyə Günəş böyüklüyündəki ulduzlar üzərində apardığı tədqiqatlar nəticəsində gəliblər. Bizdən uzaqda görünən bir çox ulduz tərif etdiyimiz bu qırmızı nəhəngə çevrilir. Qırmızı nəhəngin ətrafına göstərdiyi təsirlər səbəbi ilə də kosmosda hər an bir növ qiyamət qopur.[12]

Başqa bir alim Günəşdəki enerji azalmasını bu şəkildə ifadə edir:

*"Günəşə gəlincə o, sonsuzadək nəşəli-nəşəli yanmağını davam etdirməyəcək. İldən-ilə yanacaq ehtiyatı azalır, belə ki, sonda soyuyub donacaqdır. Eyni əlamətlə Günəşin atəşi onu sadəcə məhdud bir zamanadək alışdıracaq; o, enerjinin sonsuz qaynaqlarına sahib deyil".*[13]

Bu vəziyyət yox olmaqla nəticələnəcək ehtimallardan sadəcə biridir. Bu hadisələrin təbii nəticəsində Günəşdən gələcək fəlakət qaçılmaz bir aqibətdir. Ancaq aparılan tədqiqatlar dünyanın sonunu hazırlaya biləcək olduqca daha çox təsirin olduğunu göstərmişdir.

## Meteoritlər

Bəlli olduğu kimi, kainatda hər an hərəkət halında olan irili-xırdalı milyonlarla göy daşı (meteorit) vardır. Bunların bir planet, ya da ulduzla toqquşması nəticəsində baş verəcək təsir meteoritin böyüklüyünə görə dəyişir. Alimlərin bildirdiyinə görə, hər il 10 milyon tondan artıq göydaşı dünyamıza düşür, ancaq atmosferə girəndə sürtünmənin də təsiri ilə dünya üzərinə düşənə qədər bir çoxu kül olur. Başqa sözlə, atmosferin qoruyucu təsiri sayəsində dünyamız hər gün yaşana biləcək fəlakətlərdən qorunur. Ancaq sonrakı bölümlərdə daha ətraflı şərh ediləcəyi kimi, bu meteoritlərin arasında dünyamıza düşməsi vəziyyətində həyatın son olmasına səbəb olacaq qədər böyük olanları da var. Necə ki, daha əvvəl dünyaya düşən bəzi meteoritlərin dünyanın geoloji və ekoloji quruluşunda mühüm dəyişikliklərə səbəb olduğu sübut edilmişdir.

Bunlardan biri 20-ci əsrin əvvəllərində Sibirə, Tunqusa düşən və 60 km çapında olduğu güman edilən meteoritdir. Bu meteorit 2000 $km^2$-lik meşəni yox etmiş və Xirosimaya atılan atom bombasının min qatı böyüklüyündə bir partlayışa səbəb olmuşdu. Sözügedən zonada heç kimsənin yaşamaması mütləq bir fəlakəti əngəlləmişdir. Fərziyyələrə görə, eyni daş Eyfel qülləsinin təpəsinə düşsəydi, tam 10 milyon adamın yox olmasına səbəb olacaqdı.[14]

Dünyaya dərin şəkildə təsir edəcək fəlakət ehtimallarının nə dərəcə böyük olduğunu göstərən Tunqus asteroidinin dünyaya çırpılması ilə baş verən hadisələr bu şəkildə olmuşdur:

*“1908-ci il iyunun 30-da səhər saatlarında orta Sibir göylərində süzən nəhəng bir alov yumağı görüldü. Üfüqdə təmas etdiyi yerdə böyük partlayış oldu. 2000 kvadrat kilometrlik bir meşəlik zonanı yerlə-yeksan etdi və yerə toxunması ilə minlərlə ağacı yandırması bir oldu. Yer kürəsi çevrəsini iki dəfə dolaşan atmosfer şoku yaratdı. Ardınca iki gün müddətlə atmosferə elə incə bir toz yayıldı*

*ki, hadisə yerindən 10.000 km uzaqda olan London küçələrinə düşən işıq altında qəzet çətin oxuna bilirdi".*[15]

O günün dəhşətini yaşayan insanların qarşılaşdığı bu fəlakətlə bağlı açıqlamaları bizə labüd fəlakətlərlə bağlı ipucu verir:

*"Evimin artırmasında oturardum. Səhər yeməyi vaxtı idi. Şimala doğru baxırdım. Birdən göy üzü ikiyə bölündü... Və meşənin şimal hissəsində göy alov içində idi. O anda köynəyimin bir tərəfi yanmağa başlayıbmış kimi üzərimdə bir istilik hiss etdim... O anda köynəyimi çıxarıb fırlatmaq istədim, amma o anda göydə bir gurultu qopdu. Özümü itirmədən qaçdığım bir neçə metr o biri tərəfdə üzü üstə yerə sərilmiş gördüm. Bir anlığa özümdən getmişdim. Həyat yoldaşım yüyürüb məni evə apardı. Gurultunun ardından göydən sanki yağan daşların səsləri, ya da qurğuşun səsləri gəldi. Yer sarsıldı. Yerə yıxıldığım zaman daş çırpılmasından qorxduğum üçün əllərimlə başımı örtdüm. O anda göy yarıldığında qaynar kimi bir külək, sanki partlayan bir topdan çıxmış kimi səs aləmi bürüdü. Külək əsərkən torpağın üzərində də iz buraxırdı".*[16]

Qaldı ki, sonrakı bir nəhəng meteoritin haraya düşəcəyi məchuldur.

Alimlərin fikrincə, Tunqus asteroidi böyüklüyündə bir asteroid dünyaya hər 200 ildə bir düşür. Bu da belə bir fəlakətin nə dərəcə yaxın olduğunu göstərir. Üstəlik, bu dəfə meteoritin düşəcəyi yerin bir həyat mərkəzi olmaması üçün bir səbəb yoxdur. Alimlər bu gün meydana gələcək belə bir toqquşmanın təsirləri mövzusunda olduqca həyəcanlıdır:

*"Əgər bu gün belə bir toqquşma olacaqsa, bu toqquşma xüsusilə o anın təşvişi içində atom bombası partlayışı ilə qarışdırıla bilər. Quyruqlu ulduzun toqquşma təsiri və alov yumağı bir meqatonluq nüvə bomba partlamasının bütün təsirlərini təkrar edə bilər.*

*Mantar formasında yüksələn bulud da buna daxildir. Ancaq bir fərqlə ki, qamma şüalarına və radioaktiv çöküntüyə səbəb olmazdı".*[17]

Bu ölçüdə bir kütlənin izdihamlı bir şəhərə düşməsi milyonlarla insanın ölməsi anlamına gəlir. Dənizə düşməsi ehtimalı da eyni nisbətdə təhlükə deməkdir. Asteroidin kütləsi və sürəti dəniz üzərində nəhəng dalğalara səbəb olar və meydana gələn sunamilər dəniz kənarındakı məskunlaşma sahələrindəki həyatı yox edər. İşin daha düşündürücü tərəfi verdiyimiz misaldan daha böyük asteroidlərin və quyruqlu ulduzların dünya ilə toqquşma ehtimalının olduqca yüksək olmasıdır. Daha böyük bir toqquşmanın bir qitənin hamısını yox etməsinə və atmosferin hamısını zəhərlə doldurmasına isə qaçılmaz aqibət kimi baxılır. Belə bir ehtimalda bütün dünyaya təsir edəcək fəlakəti düşünmək belə yetərincə dəhşətlidir. Meteoritlərə qarşı çarə axtarılması ilə yanaşı, bu günə qədər tapılan üsulların yetərsiz olduğunu alimlər hər fürsətdə etiraf edir. Göründüyü kimi, bir meteoritin və ya quyruqlu ulduzun qiyamətə səbəb olması üçün Allah'ın diləməsi xaricində heç bir səbəb yoxdur.

## Asteroid və quyruqlu ulduz ehtimalları

Alimlər kosmosda təsbit edilən asteroidlərin dünya ilə toqquşması ehtimalının gün keçdikcə daha da gücləndiyini bildirirlər. Belfastdakı Kuins Universitetindən olan astronom Alan Fitzsimmons dünya ilə toqquşmaya doğru hərəkət edən böyük asteroidlərin varlığı mövzusunda qəti dəlillər əldə etdiklərini bildirmiş və öz düşüncələrini: "Bunların bizə çarpmalarını gözləyirik. Bu, sadəcə bir zaman məsələsidir", - deyə ifadə etmişdir.[18]

Hər il dünya atmosferinə girən 10.000 tondan artıq asteroid yenə atmosfer sayəsində bizim xəbərimiz belə olmadan əriyir. Ancaq bu asteroidlərin atmosferdə əriməyəcək qədər böyük olanları da var. Quyruqlu ulduz və ya sözügedən nəhəng asteroidlərdən birinin

dünya ilə toqquşması isə tam bir fəlakətə səbəb olar. Belə fəlakətlər ağlımıza gələn təhlükələrdən çox fərqlidir, çünki bütün planet üzərindəki həyata bir formada təsir edə bilərlər.

Valter Alvarez "T.Rex and Greater of Doom" ("T.Rex və qiyamət gününün yaradıcısı") adlı kitabında quyruqlu ulduzun və ya asteroidin dünya atmosferinə girməsi vəziyyətində baş verə bilən hadisələri belə anladır:

*"Bir quyruqlu ulduz çirkli buzdan yaranan bir topdur və Günəşin istiliyindən dolayı buxarlanaraq qazlarını püskürür. Və qiyamət gününü xəfif parıldayan bir ulduz xəbər verə bilər... Bu ulduz gündüz belə görünəcək, gecəni də aydınlığa bürüyəcək. Bu hadisəyə quyruqlu ulduz əvəzinə bir asteroid də səbəb ola bilər".*[19]

65 milyon il əvvəl dünyaya olduqca böyük bir cismin düşdüyü alimlər tərəfindən sübut olunmuş (bu cismin böyük ehtimalla quyruqlu ulduz olduğu güman edilir) və bu asteroidin yer üzündə olduqca mühüm təsirlərinin olduğu müəyyən edilmişdir. Buna və daha sonra da düşdüyü təsbit edilən digər göy cisimlərinə istinad edilərək dünyada belə bir nəsnənin toqquşması nəticəsində yaranacaq mümkün hadisələr güman edilir.

Bir quyruqlu ulduzun toqquşmadan əvvəl, hərəkətindən yaydığı enerji 100 milyard meqatonluq TNT-yə bərabərdir. Bu miqdar quyruqlu ulduzun 1 saniyə içində buxarlanmasına və 40 km dərinlikdə bir dəlik açmasına səbəb olur. Bir müqayisə aparsaq, bir hidrogen bombası sadəcə bir meqaton TNT-dir və soyuq müharibə zamanı dünyada bu tip silahlardan 10.000 ədəd vardı. Quyruqlu ulduzun gücü isə dünyanın bütün döyüş sursatlarından 10.000 dəfə artıq partlayışa bərabərdir.

Quranda qiyamət günü çox böyük sarsıntıların olacağı, hər şeyin yerlə bir olacağı, dənizlərin daşacağı bildirilir. Quyruqlu ulduz və ya böyük bir asteroidin dünya ilə toqquşma ehtimalı Quranda keçən bu hadisələrin tək-tək yaşanmasına səbəb ola bilər. Seysmik dalğalar

üzündən dəniz altında nəhəng axınlar baş verir; bunun nəticəsi nəhəng sunamilərdir. Daha əvvəl meydana gələn seysmik dalğalarla gerçəkləşən sunamilər elə böyük olmuşdu ki, tədqiqatçılar bu sunamilərin dəniz dibində kanallar açdığını bildirirdilər.

Həmçinin aparılan tədqiqatlar yaxın zamanlarda Meksika körfəzi sahillərinə çarpan bir cismin təsiri ilə olduqca böyük sunamilərin yarandığını ortaya qoymuşdur. Floridaya yönələn sunami daha da yüksələrək sahildə böyük təhlükə yaratmış və meşələri yox etmişdi. Bu gün bəlkə olduqca çox insan mütləq qarşılaşacaqları ölümü və qiyaməti ağıllarına gətirmədən yaşamaqdadır. Halbuki, dünyada belə bir əzabın çeşidli yollarla gəlməməsi üçün heç bir səbəb yoxdur. Məsələn, yuxarıda anlatdığımız hadisədən bir gün əvvəl torpaq son dərəcə məhsuldar ikən toqquşmadan sonra Meksika və Amerika torpaqlarının böyük hissəsi tamamilə çılpaq qalmışdır.[20]

Allah bizə 14 əsr əvvəlcədən qiyamət günündə göyün süst düşüb parçalanacağını («Haqqə» surəsi, 16), göyün göyərmiş mis kimi olacağını ("Məaric" surəsi, 8) bildirmişdir. Bu hadisələr quyruqlu ulduzun dünya ilə toqquşması və ya nəhəng bir asteroidin yer üzünə düşməsi nəticəsində ortaya çıxan mənzərə ilə çox böyük bənzərliklər göstərəcəkdir.

Pol Devis "The Last Three Minutes" ("Son üç dəqiqə") adlı kitabında dünya ilə toqquşacaq bir quyruqlu ulduzun təsirini anladarkən göy üzünün yüksəkliklərindən nəhəng miqdarda bir işıq şüasının göyləri yandırmağa başlayacağını və mədən kimi əriyəcəyini söyləyir. Yenə eyni bölümdə Pol Devis kosmosun içində olan vakuum səbəbi ilə qaynayan qazın girdab yaratdığını bildirmişdir. Bu açıqlama "Rəhman" surəsindəki bir ayə ilə çox böyük bənzərliyə malikdir:

> **"Göy ayrılıb dağ edilmiş yağ kimi qıpqırmızı olduğu zaman..." ("Rəhman" surəsi, 37)**

Göyün əriyərək axması, ərimiş yağ və ya ərimiş mədən kimi qızğın qatı bir mayeni xatırladır. Yenə belə bir halda göyün qızğın və qırmızı bir rəng alacağı bilinir. Pol Devisin bildirdiyinə görə, o gün qaynayan qaz girdab şəklində olacaq. Yəni göydə qırmızı bir girdab yaranacaq. Belə bir şeyin qıpqırmızı bir külə nə dərəcə bənzəyəcəyi açıqdır.

Allah öz dərgahında müəyyən edilən bir zamanda insanları qiyamət günü ilə qarşılaşdıracaq və Quranda bildirdiyi bütün hadisələri təkrar-təkrar gerçəkləşdirəcək. Ancaq deyilənlərdən də göründüyü kimi, qiyaməti meydana gətirən hadisələrin bu səbəblərdən biri və ya hamısı ilə eyni anda gerçəkləşməsi də ehtimal daxilindədir.

Buna oxşar hadisələr keçmişdə də meydana gəlmişdir. Həm asteroidlər, həm də quyruqlu ulduzlar dünyamıza gah lokal, gah da geniş sahələrə yayılan zərərlər veriblər. Bir sonrakı qarşılaşmanın nə zaman olacağını isə Allah bilir.

Alimlər 2028-ci ildə dünyanın çox yaxınından keçəcək asteroidin okeana düşməsini ehtimal edirlər. Amerika və Avropanın sular altında qalacağını, quruya düşərsə, daha çox böyük fəlakətlərin yaşanacağını bildiriblər. Asteroidin atmosferə girməsi zəlzələlərə və vulkan püskürmələrinə yol açacaq, yaranan toz buludları dünyanı qaranlığa qərq edəcək. Astronomlar belə bir asteroidin dünyaya yaxınlaşmasının olduqca böyük bir təhlükə yaradacağına diqqət çəkirlər.[21]

Yenə alimlər 1993-cü ildə dünyamızın çox yaxınından keçən "Swift-Tuttle" adında bir quyruqlu ulduzdan bəhs edirlər. Bu ulduz 2126-cı ildə təkrar gözlənilir. Aparılan hesablamalar bu ulduzun dünya ilə toqquşma ehtimalının olduqca yüksək olduğunu, sadəcə iki həftəlik bir məsafə ilə dünyadan yan keçəcəyini ortaya çıxarıb. Bu isə olduqca yaxın bir məsafədir. Və bir çox alim bu yaxın məsafədən dolayı narahatlıq duyur. Bu cisimlərin orbitlərindəki ni-

zamsızlıq Günəş sistemi içərisində müntəzəm toqquşma meydana gəlməsinə səbəb olur. Bu da əlbəttə, həm dünyanın, həm də digər planetlərin davamlı təhdid altında olması deməkdir. Mütəxəssislərə görə, tez və ya gec "Swift-Tuttle" və ya onun kimi bir nəsnə dünya ilə toqquşacaq. Bu obyektlərin bəziləri bütün dünyadakı nüvə silahlarının cəmindən daha artıq zərər verə biləcək qədərdir. Sadəcə bu hadisənin nə zaman olacağı bəlli deyil.

Pol Devis: "Quyruqlu ulduz toqquşduqdan sonra insanlıq tarixində ani və bənzərsiz bir aqibət meydana gələcəkdir", - deyərək mövzunun əhəmiyyətini vurğulayır və meydana gələcək bir toqquşmanın insanların nəslini kəsəcəyini söyləyir.[22]

"The Last Theree Minutes" ("Son üç dəqiqə") adlı kitabında mövzuya olduqca geniş yer verən Pol Devis 2126-cı il, avqustun 21-də "Swift-Tuttle" adlı göy cisminin dünya ilə toqquşacağını və bu günün dünyanın son günü olacağını vurğulayır. Müəllifin anlatdıqları ilə Allah'ın Quranda qiyamət gününün olacağını bildirdiyi hadisələr bir-birinə son dərəcə yaxındır. Pol Devisin o günə aid təsviri bu şəkildədir:

*"21 avqust, 2126.*

*Son gün.*

*Yer: dünya...*

*Quyruqlu ulduz kiçik başı ilə şiddətli məhvedici gücünü sanki saxlayır. Dünyanın üzərinə saatda 40.000 mil sürətlə saniyədə 10 trilyon tonluq buz və qaya kütlələri gəlir. Səsin sürətinin 70 min mislində bir toqquşma meydana gələcək.*

*...Dəniz səviyyəsindən etibarən (sıfır metrdən etibarən) göy üzü yarılaraq açılar. Minlərcə kilometr kubluq hava təzyiq edər. Bir şəhər genişliyində sapsarı alov 15 saniyə içərisində dünyanı deşməyə başlayar. Planet, yəni dünya 10 min zəlzələyə uğramış kimi sarsıntıya tutular. Yeri dəyişdirən hava dalğası dünya*

*üzərində nə varsa silib-süpürər, bütün tikililəri yerlə-yeksan edər. Yoluna çıxan hər şeyi əzib keçər. Toqquşmanın təsiri ilə meydana gələn kraterə dünyanın içindəkilər tökülməyə başlayar. Ərimiş qayalardan yaranmış bir divar dalğalanaraq ağır hərəkətlərlə çalxalanmağa başlayar.*

*Kraterin içində trilyonlarla ton qaya buxarlanır. Bir qismi havaya sıçrayar və çoxu kosmosa doğru uçar. Hələ bir qismi yüzlərlə, hətta minlərlə mil uzaqdan qitənin yarısına enmək üzrə yuxarı qalxar. Aşağıdakı hər şey böyük ölüm gətirəcək. Ərimiş tullantıların bir qismi okeana axaraq nəhəng sunamilərin meydana gəlməsinə səbəb olar. Tozlu tullantılar atmosferə yayılar və dünyanın orbitini əhatə edərək Günəş işığının gəlməsini əngəllər. Yerə Günəş işığı əvəzinə milyardlarla meteorun parlaqlığı işıq saçar. Bu işıq yandırıcı istisi ilə yeri qovurar".*[23]

Bu gün, şübhəsiz ki, heç də uzaq deyil. Buna səbəb olan sadəcə bir quyruqlu ulduzdur və belə bir quyruqlu ulduzun dünya ilə haçan toqquşacağı bəlli deyildir. Qiyamət insanlar hər nə qədər qəbul etmək istəməsələr də, qarşılarına heç də uzaq olmayan ehtimallarla çıxa bilər. Quranda mühüm bir həqiqət xəbər verilir. Şübhəsiz ki, qiyamət saatı insanlara get-gedə yaxınlaşmaqdadır:

**"Göylərin və yerin qeybini bilmək ancaq Allah'a məxsusdur. Qiyamətin qopması bir göz qırpımında, yaxud daha tez olar. Allah, həqiqətən, hər şeyə qadirdir!" ("Nəhl" surəsi, 77)**

## Qara dəliklər

Bu gün olduqca çox qalaktikanın mərkəzində nəhəng kütləvi qara dəliklər olduğu fərz edilir. Sahib olduqları qorxunc cazibə sahələri ilə ətrafında mövcud olan hər şeyi udan bu kosmik anoforlar istehsal etdikləri şüaları da içlərinə çəkirlər. Ətraflarındakı hər şeyi udduqca

cazibə gücləri artır. Özlərindən qat-qat böyük ulduzları, planetləri, daha kiçik qara dəlikləri, hətta qalaktikaları da özlərinə çəkə bilirlər. Bu səbəblə, bir qara dəlik getdikcə şişir, artıq daha geniş bir sahəyə təsir edərək ətrafındakı hər şeyi udur.

Dünya kainatda ucsuz-bucaqsız boşluq içində sürətlə hərəkət edir. Bu səbəblə, dünyanın bu sonsuz boşluq içində belə bir qara dəliyin təsir sahəsinə girməsi ehtimal daxilindədir.

## Qara dəlik ehtimalı

Qara dəlik hər şeyi içinə çəkən, kosmosun olduqca sıx olan bir parçasıdır. Cazibə gücü həddən çoxdur, bu səbəbdən, qara dəliklərin cazibə sahələrinə girən hər hansı bir kütlənin bu cazibədən qaçmaq şansı yoxdur.

Qara dəlik eynilə tozsoran aparatının xortumu kimi ətrafındakı hər şeyi içinə çəkir. Tonlarla ağırlıqdakı kütlələrə sahib olan planetlər, peyklər, asteroidlər, hətta ulduzlar belə qara dəliyin cazibə gücünə qarşı dayana bilməzlər. Bir dəfə qara dəliyin cazibə sahəsinə girdikdən sonra artıq əsla geriyə dönüş yoxdur.

Yaxşı, bəs qara dəlik içinə girən hər şeyi niyə çəkir?

Bəlli olduğu kimi, hər cismin müəyyən bir cazibə qüvvəsi var. Buna dünyanın cazibə gücünü misal göstərə bilərik. Bir daşı havaya atdığınızda daş atış sürətinə bağlı olaraq bir müddət yol aldıqdan sonra yerin cazibə qüvvəsi səbəbi ilə təkrar yerə düşər. Bir cismin dünyanın cazibə gücündən qurtula bilməsi üçün bəlli bir sürəti üstələməsi lazım gəlir ki, bu sürətə "qaçış sürəti" deyilir. Məsələn, bir raketin bir müddət yüksəldikdən sonra təkrar düşməməsi üçün qaçış sürəti ilə hərəkət etməsi lazım gəlir. Dünyanın qaçış sürəti saniyədə 11,2 km-dir. Bu səbəblə, raketin kosmosa gedə bilməsi üçün saniyədə 11,2 km-lik sürətlə hərəkət etməsi lazım gəlir.

Qara dəliyin qaçış sürəti isə işıq sürətindən artıqdır. Yəni qara dəliyin cazibə sahəsinə girən bir cisim onun cazibə gücündən qurtulması üçün işıq sürətindən artıq sürətlə qara dəlikdən uzaqlaşmalıdır. Ancaq heç bir maddə işıq sürətini aşmayacağı üçün qara dəliyin cazibə qüvvəsi sahəsindən qurtula bilməz. Belə ki, saniyədə 300.000 km kimi yüksək sürətlə hərəkət edən işıq topaları belə qara dəliyin cazibə gücünə qarşı dura bilmir. Bu səbəbdən, işığı da udan bu göy cisimləri hər zaman qaranlıqdır. Odur ki, kosmosda müdhiş sürətlə irəliləyən dünyamızın bir gün belə qara dəliyin cazibə sahəsinə girməməsi üçün heç bir səbəb yoxdur.

Həmçinin ABŞ astronomları Günəş sistemimizin də içində yer aldığı Südyolu qalaktikasının mərkəzində hər biri Günəş böyüklüyündə milyonlarla ulduzu uda biləcək ölçüdə və hələ aktiv olan iki dənə qara dəlik aşkar etdiklərini açıqladılar.

Amerika Astronomiya Dərnəyi illik toplantısında açıqlanan elmi raportlara görə, qara dəliklərdən biri Süd yolunun tam mərkəzində, dünyadan 26.000 işıq ili uzaqlıqdadır. "Saqittarus A" (A-Star) adı verilən qara dəliyin əhatə etdiyi həcm bizim Günəş sistemi böyüklüyündədir, ancaq kütləsi milyonlarla dəfə artıqdır. Hesablamalara görə, 2,6 milyard Günəş kütləsinə bərabər bu qara dəlik ətrafındakı ulduzları saniyədə 965 km-lik sürətlə özünə doğru çəkir. Bu, şübhəsiz ki, önəmli hərəkət və eyni nisbətdə də böyük bir təhlükədir. Süd yolunun tam ortasında belə bir təhlükənin mövcudluğu dünyanı təhdid edən qara dəlik təhlükəsinin hansı miqyasda olduğunu göstərir.

Dünyadan 40.000 işıq ili o biri tərəfdəki disk şəklindəki "Old Faithful" adlı ikinci qara dəlik isə daha böyükdür. Bu qara dəlik ətrafındakı ulduzları doymaq bilməyən bir canavar kimi davamlı olaraq udur.

A-Starın saniyədə 965 km kimi yüksək sürətlə ətrafındakı ulduz-

ları çəkməsi qara dəliyin bu ulduzları udduqdan sonra cazibə gücünün artacağını göstərir. Beləcə, ətrafındakı nəsnələri daha böyük sürətlə çəkməyə başlayaraq bu müddət ərzində inanılmaz cazibə gücünə sahib olacaq. Daha əvvəl anlatdığımız kimi, qara dəliklər işıq topalarını da udurlar. Bundan dolayı ən müasir teleskoplar vasitəsi ilə yaxınına da gedilsə, görünüb seçilməzlər. Bu səbəblə, onların kəşf edilməsi və varlığına əmin olmaq üçün bəzi çalışmaların və ölçmələrin aparılması lazım gəlir. Alimlərin təsbit etdiyi qara dəliklərin mövcudluğu çeşidli ehtimallara nəzərən aparılan ölçmələr nəticəsində isbatlanmışdır. Bu anda aparılan çalışmaların yetərsizliyi səbəbi ilə varlığı isbatlanmayan daha bir neçə qara dəliyin mövcud olması ehtimalı olduqca güclüdür.

Belə ki, bu gün bir çox alim Günəşin bir tayının olduğunu və bu ulduzun sonradan qara dəliyə çevrilmiş ola biləcəyini bildirir. Bu təxminin səbəbi də Süd yolundakı bütün ulduzların ikili, üçlü, beşli qruplar halında olmasıdır. Günəşin tək ulduz olması bir çox alimə onun bir tayının (oxşarının) olub sonradan qara dəliyə çevrilmiş olması ehtimalını düşünməyə əsas verir. Bu ehtimalı gücləndirən dəliklər isə az sayılmayacaq qədər yüksəkdir. Bu nəzəriyyə bu gün araşdırılır: fəqət Günəşin dünyamızdan sadəcə 50 milyon km uzaqda olduğunu düşünsək, belə bir ehtimalın dünyamız üçün nə dərəcədə böyük təhlükə törətdiyi açıq şəkildə ortadadır. Qısası, bizim xəbərimiz olmadığı bir anda dünyamızın hər hansı bir qara dəliyin cazibə sahəsinə girməməsi üçün heç bir səbəb yoxdur.

Bu gün bir çox alim dünyanın ehtimal olunan qara dəliklər tərəfindən udulması ilə yox olacağını düşünür. Dünya belə bir qara dəliyin içinə girməsə belə, bir qara dəliyin olduğumuz sistemin yaxınından keçməsi güclü fəlakət ehtimalıdır. Qara dəlik səssiz-səmirsiz Günəş sisteminə yaxınlaşdıqda nələr olar?

Belə bir göy cisminin olduğumuz sistemin yanından keçməsi bir

çox planetin orbitlərindən çıxmasına səbəb ola bilər. Əlbəttə, buna bənzər bir çox hadisə nəticəsində dünyadakı olduqca çox tarazlıq alt-üst olacaqdır. Yüzlərlə, minlərlə asteroid belə bir cazibə qüvvəsindən təsirlənə bilər. Bunlardan qara dəliyə özləri çəkilənlər ola biləcəyi kimi cazibədən təsirlənən yüzlərlə, ya da minlərlə göy cismi də dünyaya düşə bilər.

## Qalaktikaların toqquşması

Bu gün kainatda bizimki kimi 200-ə yaxın qalaktikanın olduğu və hər qalaktikanın quruluşunda Günəşimiz kimi 200 milyard günəşin olduğu təxmin edilir. Bu nəhəng göy cisimlərinin isə heç biri sabit olaraq yerlərində dayanmır, hamısı həm öz oxu ətrafında dönür, həm də müəyyən bir istiqamətə doğru irəliləyirlər. Yeri gəlmişkən, dünya içində olduğu qalaktikanın hərəkəti səbəbi ilə Solap Apeks adı verilən orbit boyunca Veqa ulduzuna doğru olduqca yüksək sürətlə hərəkət edir. Digər qalaktikalar da eyni şəkildə hərəkət edir. Həmçinin həmin kosmosda böyük toqquşmalar və nəhəng partlayışlar baş verir, onlar dünyamızdan milyonlarla işıq ili uzaqda gerçəkləşdiyi üçün insanlar bu hadisələrdən xəbərdar deyil.

Məsələn, Amerika Habl teleskopu dünyadan 63 milyon işıq ili o biri tərəfdə meydana gələn bir toqquşmanın şəklini, rəsmini çəkmişdir. NASA-ya çatan fotoları araşdıran alimlər sözügedən görüntülərdə iki qalaktikanın bir-biri ilə toqquşmasının yer aldığını bildiriblər. Son dərəcə müfəssəl və nəzərəçarpacaq bir şəkildə görünən bu toqquşma nəticəsində yeni göy cisimləri, eyni zamanda, da kilometrlər boyunca ətrafa yayılan hidrogen qazı buludları meydana gəlmişdir. Belə bir toqquşmanın dünyanın yaxınlarında olması vəziyyətində bəlkə də dünyanın aqibətini müəyyən edən səbəblərdən bir dənəsi gerçəkləşmiş olar. Üstəlik, alimlər dünyanın içində yer aldığı Süd yolu qalaktikasını da ehtimal ilə belə bir aqibətin gözlədi-

yini bildiriblər. Bu mövzu ilə bağlı bir xəbər belədir:

*“Astrofiziklər dünyamızın ciddi və yaxın problemlərinin olduğundan bəhs edirlər. Bunlardan birincisi, mümkün ola bilən Supernova partlayışıdır (Supernova çox parlaq olan, bəzən gündüz belə görünə bilən ulduzdur). Bu partlayışın harada və nə zaman olacağı hələ qəti deyilsə belə, ortaya atılan iddiaları olduqca yaxın gələcəyə aid deyil. Alimlərin fikrincə, dünyadan təxminən 430 işıq ili uzaqda olan nəhəng və qırmızı “Betelguise” ulduzu partlamağa hazır görünür. Alimlərin fikrincə, bu növ ulduzlar (hipernova) qara dəliklərin birləşməsi, ya da bu qara dəliklərin neytron ulduzları ilə birləşməsi nəticəsində yaranır. Ancaq heç kim bu qorxunc bombaların kainata necə dağıldığını və ya hər hansı birinin dünyaya yaxınlaşması halında sonumuzun nə olacağını bilmir”.*[24]

Quranda o gün dünyada şiddətli sarsıntıların olacağı, insanların böyük dəhşət yaşayacağı, Günəşin, Ayın, ulduzların qaralacağı, hər şeyin sürətlə yox olacağı bildirilmişdir. Belə ehtimali bir toqquşma nəticəsində bütün bu sayılanların bir anda gerçəkləşəcəyi, sadəcə dünyanın deyil, bütün Süd yolu qalaktikasının da bundan təsirlənəcəyi bir həqiqətdir.

Göründüyü kimi, aparılan elmi araşdırmalar bizə Allah’ın Quranda vəd etdiyi qiyamətin bir gün mütləq gələcəyini göstərir. Quranda bildirildiyi şəkildə canlı-cansız hər varlıq kimi dünya da bir gün yox olacaq və Allah göyləri və yeri yox etdikdən sonra bambaşqa bir göy və bambaşqa bir yer yaradacaqdır. Ancaq Allah’ın bunun üçün bir səbəbə ehtiyacı yoxdur. Bunlar ancaq dünyanın fiziki ölümünü açıqlamaq üçün anladılıb. Ancaq Allah diləsə, bu gün, ya da sabah heç bir partlayış, toqquşma və s. olmadan qiyaməti başlada bilər.

Bura qədər saydığımız ehtimallar canlı aləmin yox olması üçün

mümkün olan çoxsaylı ehtimaldan təkcə bir neçəsidir. Dünyanın bu səbəblərdən birisi ilə qarşılaşması ehtimal daxilindədir. Aparılan tədqiqatlar bunların labüd bir həqiqətə işarə etdiklərini göstərir.

Bu həqiqətlə yanaşı, kainatın qapanaraq təkrar keçmiş halına gəlməsi çox yüksək bir ehtimaldır. Buna əks vəziyyətdə, yəni get-gedə açılması nəticəsində də yenə kainatı gözləyən fərqli ölüm şəkli vardır. İnsanların bir çoxu bu ehtimalları özlərindən uzaq gördüklərindən və ya bunları düşünməyi özlərindən sonrakı nəsillərin öhdəsinə buraxmağı üstün tutduqlarından bu fəlakət ehtimallarına qarşı rahat davranırlar. Fəqət dünyanın yox olması üçün bunlardan daha yaxın ehtimallar da var. Sayılan bütün ehtimallar içində hansının qiyaməti gətirəcəyini, hansının daha əvvəl olacağını isə şübhəsiz ki, təkcə Allah bilir. İnsanlar hər nə qədər özlərindən uzaq görsələr də, aparılan tədqiqatlar və gözlə görülən bir fəlakət ehtimalının artması bütün bunların yaxınlığını göstərir. Ən mühümü də budur ki, bütün bunların gerçəkləşməsi təkcə Allah'ın izninə və təqdirinə bağlıdır. Əlbəttə, Allah bütün bəlli səbəblərin xaricində heç umulmaz və naməlum bir səbəblə, ya da səbəbsiz olaraq qiyaməti gətirməyə qadirdir:

**"Göyləri və yeri haqq olaraq yaradan Odur. Onun: "Ol!" - deyəcəyi gün dərhal olar. Onun sözü haqdır. Surun çalınacağı gün hökm Onundur. Qeybi və aşkarı bilən də Odur. O, hikmət sahibidir, xəbərdardır!" ("Ənam" surəsi, 73)**

Qarşıdakı bölümlərdə alimlərin qəti şəkildə baxdığı ehtimallarla Quranda anladılan qiyamət arasındakı bənzərliklər öyrəniləcək.

## Allah hər şeyə güc yetirəndir

Kainatın sonunun necə olacağı sualı illərdir ki, insanların zehnini məşğul edir. İnsanın ağlına olduqca çox səbəb gələ bilər, amma Allah

dilədiyi təqdirdə belə bir hadisənin heç bir səbəb olmadan bir anda gerçəkləşəcəyini unutmamaq gərəkdir. Elmi araşdırmalar nəticəsində ortaya çıxan ehtimallar üzərində düşünməyimiz və o gün gəlmədən əvvəl Allah'a dönüb yönəlməyimiz üçün bir xatırlatmadır. Allah nə zaman və nə şəkildə diləyərsə, o çox ağır gün gerçəkləşəcək. Möminlər qiyamət gününün Allah dərgahında təyin olunmuş zamanda gerçəkləşəcəyinə qəti inanırlar. O gün Allah'ın Quranda tərif etdiyi şəkli ilə insanların qarşısına çıxacaq. Quranda Allah'ın hər şeyə güc yetirən olduğu bu şəkildə açıqlanır:

**"...Onlara vəd etdiyimizi göstərəcəyik. Həqiqətən, Biz onlara qadirik!" ("Zuxruf" surəsi, 42)**

Bəlli olduğu kimi, bu gün mövcud nizamın pozulması və dünya üzərindəki canlı aləmin yox olması üçün saysız səbəblər var. Üstəlik, bu səbəblər zaman keçdikcə daha da artır və ciddi ölçülərə çatır. Dünya sürətlə özü üçün təyin edilmiş sona doğru hərəkət edir və bunun açıq əlamətləri var. İnsanların çoxu görməzlikdən gəlsə də, qiyamət günü sürətlə yaxınlaşır. Quranda bu həqiqətə mühüm şəkildə işarə edilmişdir:

**"O saat mütləq gələcəkdir. Mənim onu az qala açmağım gəlir ki, hər kəs etdiyi əməlin əvəzini alsın". ("Taha" surəsi, 15)**

Bir xeyli alim sadəcə elmi dəlillərə və tədqiqatlara istinad edərək kainatın bir gün qəti şəkildə yox olacağı fikrində birləşir. Qəzet, jurnal və televiziya kimi bir çox mətbu orqanı alimlərin tədqiqatlarının nəticələrindən tez-tez misallar verir. Sözügedən həqiqətin fərqində olan bu adamlar dünyamıza dörd bir yandan yaxınlaşan fəlakətləri önləmək və bu səbəblə, kainatın ölümünü ertələyə bilmək ümidi ilə bütün ehtimalları araşdırır, bu mövzularda ciddi çalışmalar aparır. Araşdırılan digər bir mövzu isə bu ehtimalların gerçəkləşəcəyi

təqdirdə dünyamızda meydana gələcək fiziki dəyişikliyin və bunun həyata təsirinin hansı şəkildə olacağı ilə bağlıdır. Həmçinin gerçəkləşdirilən çalışmalar nəticəsində ortaya çıxan faktlarla Allah'ın Quranda bildirdiyi o günə aid hadisələr bir çox yönlərdən bir-birinə bənzəyir.

# KAİNATIN ÖLÜMÜNÜN ARDINCA

Qiyamət günü insanların hamısının həqiqəti açıq gördükləri andır. İnkarçı bir insan qarşılaşacağına əsla inanmadığı, hətta bu inamsızlığı nəticəsində davamlı rədd etdiyi və həyatı boyunca düşüncəsindən qaçdığı axirət həqiqəti ilə artıq qarşı-qarşıyadır. Dünyada yanıldığının nəticəsini görür, geri dönüş çarələri axtarır, amma bir nəticə əldə edə bilmir. Dəhşətli aqibətlə qarşılaşmışdır və etdiklərinin peşmanlığını bütün həqiqəti ilə hiss edir. Onların bu psixologiyası Quranda bizə müfəssəl şəkildə anladılmışdır.

Qiyamət günü insanlar istəsələr də, istəməsələr də Allah'ın Quranda bildirdiyi o günə aid hadisələri qarşılarında görmüşlər. Surun üfürülməsini tayı-bərabəri görünməmiş hadisələr müşayiət etmiş, yer və göy parça-parça edilmiş, kainat içindəki canlılarla birlikdə yox olmuşdur. Hər şey yox olub bütün hadisələr bitdikdən sonra Allah göyləri, yeri və insanları yeni biçimdə təkrar yaradır. Əlbəttə, göyləri, yeri və bütün aləmləri yaradan Allah bunların oxşarlarını da yaradacaq gücə sahibdir:

**"Məgər onlar göyləri və yeri yaradan Allah'ın onlar kimisini yaratmağa qadir olduğunu görmürlərmi?! Allah onlar üçün bir əcəl müəyyən etdi ki, ona heç bir şəkk-şübhə yoxdur. Zalımlar ancaq öz küfrlərində İsrar edib dururlar". ("İsra" surəsi, 99)**

**"Məgər onlar göyləri və yeri yaratmış və onları yaratmaqdan yorulmamış Allah'ın ölüləri də diriltməyə qadir olduğunu görüb anlamırlarmı? Bəli, O, hər şeyə qadirdir!" ("Əhqaf" surəsi, 33)**

Qiyamət günündə yaşanacaq hadisələr eynilə Allah'ın Quranda bildirdiyi şəkildə yerin başqa yerə, göylərin də başqa göylərə çevrilməsi olacaq. İnsanlar Allah'ın hüzuruna çıxarılacaq, Onun qarşısında dünya həyatı boyunca etdiklərinin hesabını verəcəklər.

**"Qiyamət günü elə bir gündür ki, Yer başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq və onlar bir olan, qalib olan Allah'ın hüzurunda duracaqlar!" ("İbrahim" surəsi, 48)**

Bu çox ağır gün Quranda "din günü", "hesab və cəza günü", "axirət günü" kimi adlarla qeyd olunur. Bu gün yenidən yaradılan göy və yer artıq əbədi həyata aid olan məkanlardır. İnsanların hamısı yeni yaradılışla təkrar dirildiləcəklər. O gün inkarçılarla möminlərin bir-birindən ayrılacağı, əbədi yurdlarına sövq ediləcəyi gündür. İnkarçılar da daxil olmaqla, kimsə bu günə yad deyildir.

İman gətirən və dünyadakı həyatı boyunca axirət həyatına hazırlanan möminlər bu gün yaşanacaq hadisələri daha əvvəl Quranda özlərinə açıqlandığı şəkildə görürlər. Möminlər Allah'ın onlara vəd etdiyinə qovuşmanın rahatlığı içindədir. İnkarçılar isə tərifi olmayan qorxu, peşmanlıq və narahatlıq içindədir. Dünya həyatı boyunca həm Allah'ın göndərdiyi sistemə qarşı savaşmış və həm də bunu sezdirməməyə çalışmış olsalar da, əvvəllər etdikləri səhvin fərqində olublar. Unutduqları bu həqiqət artıq qarşılarındadır. Dünyada dayanmadan: "Bu deyilənlər birdən doğru olarsa", -deyə düşünərək barəsində tərəddüd və qorxu içində olduqları, şübhəyə qapıldıqları həqiqətlə üz-üzədirlər. Sonsuz həyatları boyu yaşayacaqları, qarşısını əsla ala bilməyəcəkləri və özlərindən kənar edə bilməyəcəkləri

böyük əzabın ilk dəqiqələrini yaşamağa başlayıblar:

**"Allah'ı necə inkar edirsiniz ki, siz ölü idiniz, O, sizi diriltdi. O, sizi yenə öldürəcək, sonra yenə də dirildəcək və daha sonra siz Ona tərəf qaytarılacaqsınız". ("Bəqərə" surəsi, 28)**

## Sura ikinci üfürülmə və din (diriliş) günü

**"Elm və iman sahibləri isə belə deyərlər: "Siz Allah'ın kitabında olan qiyamət gününə qədər qaldınız. Bu, qiyamət günüdür, lakin siz bilmirdiniz!" O gün zalımlara üzrləri heç bir fayda verməz. Və onların tövbə etmələri də istənilməz!" ("Rum" surəsi, 56-57)**

Hz. Adəmdən etibarən tarix boyunca yaşamış insanların hamısı Allah'ın və axirətin varlığı barədə xəbərdar edilmiş, Allah'ın onlara göndərdiyi elçilər vasitəsilə haqq olan dinə dəvət olunmuşlar. Ancaq Quranda bildirildiyi kimi, az bir toplumdan başqa insanların çoxu iman etməmiş, özlərini Allah'a və onun elçisinə qarşı qoymuşdular. Bu insanlar öldükdən sonra yenidən diriləcəkləri həqiqətini də israrla rədd etmişdilər. Quran bu insanların inkarını bu ayələrdə xəbər verir:

**"Onlar: "Allah, ölən bir kimsəni diriltməyəcəkdir!" - deyə Allah'a möhkəm and içdilər. Xeyr! doğru vəd etmişdir. Lakin insanların əksəriyyəti bilməz! Allah ölüləri dirildəcəkdir ki, ixtilafda olduqları məsələləri izah etsin və inkar edənlər də özlərinin yalançı olduqlarını bilsinlər". ("Nəhl" surəsi, 38-39)**

**"Əgər siz özünüz kimi adi bir insana itaət etsəniz, şübhəsiz ki, ziyana uğrayarsınız. O, sizə ölüb torpaq və sür-sümük olduqdan sonra çıxarılacağınızımı vəd edir? Vəd olunduğunuz şey çox uzaqdır, çox uzaq! Bizim həya-**

**tımız yalnız bu dünyadadır. Ölür, dirilirik. Biz (öləndən sonra bir daha) dirildiləcək deyilik!" ("Muminun" surəsi, 34-37)**

İnkar etmələrinin ən əsas səbəbi dünya həyatını yaşanacaq yeganə həyat kimi görmələridir. Bu yanlış məntiqin onlara ölümlə yoxolma fikrini məqbul göstərməsi çox maraqlıdır. Yenidən dirilişi də bu səbəbdən qəbul etməz, Allah'ın Quranda xəbər verdiyi hadisələri və hesab gününü rədd edərlər. Halbuki, bütün canlıların və dünyanın bir sonu var, həyat ölümlə birlikdə sona çatır. Təkrar dirilişi inkar edən qullara qarşı Allah'ın dünyada ikən verdiyi misallardan bir qismi Quranda bu şəkildədir.

**"Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" - deyə, hələ Bizə bir məsəl də çəkdi. De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu çox gözəl tanıyandır! O yaradan ki, sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan od yandırırsınız". Məgər göyləri və yeri yaradan onlar kimisini yaratmağa qadir deyilmi?! Əlbəttə, qadirdir. Hər şeyi yaradan, bilən Odur! Bir şeyi istədiyi zaman buyruğu ona ancaq: "Ol!" - deməkdir. O da dərhal olar. Hər şeyin hökmü əlində olan Allah pak və müqəddəsdir. Siz də Onun hüzuruna qaytarılacaqsınız!" ("Yasin" surəsi, 78-83)**

**"Onun qüdrət nişanələrindən biri də budur ki, sən yer üzünü qupquru görürsən. Biz ona yağış yağdıran kimi hərəkətə gəlib qabarar. Onu dirildən, şübhəsiz ki, ölüləri də dirildəcəkdir. Həqiqətən, O, hər şeyə qadirdir!" ("Fussilət" surəsi, 39)**

İnsanın yaradılışı yenidən diriliş üçün özlüyündə mühüm bir

dəlildir. İnsan tək bir spermadan tam mütəşəkkil və mükəmməl bir canlı olaraq meydana gəlir. Tək bir hüceyrənin zaman içində, insanın hər hansı bir müdaxiləsi olmadan düşünə bilən, görə bilən və fikirləşə bilən bir varlıq halına gəlməsi bir dirilişin çox açıq əlamətidir. İnsanı yoxdan yaradan Allah qurumuş sümükləri də toplayıb yenidən diriltməyə qadirdir. Bu yaradılışı görməzlikdən gələn insanlar öz yaradılışlarını heç diqqətə almadan, şeytani cəsarətlə dirilişə qarşı çıxa bilirlər. Bu, böyük bir cəsarətdir. İnsan bunu edərək Allah qarşısında böyük bir məsuliyyəti öz üzərinə götürür. Axirətdə isə yalan hesab etdiyi bu həqiqəti açıq-aydın şəkildə qarşısında görəcək. Qiyamət günün arxasından insanlar onlara qiyamət vaxtının gəldiyini daha əvvəl xəbər vermiş olan surun səsini yenə eşidəcəklər. Artıq bu an insanların qəbirlərindən çölə çıxaraq yenidən dirildikləri andır. İnsanların hamısı sonsuzluğu qarşılamaq üçün ayağa qalxmışdır, onu gözləməkdədir:

**“Sur çalınacaq, Allah’ın göylərdə və yerdə olan istədiyi kimsələrdən başqa, dərhal hamı yıxılıb öləcək. Sonra bir daha çalınan kimi onlar qalxıb müntəzir olacaqlar!” (“Zumər” surəsi, 68)**

## Din gününün xüsusiyyətləri

Allah dərgahında yerin, göyün və insanın yaradılışı nə qədər asandırsa, qiyamət gününün gerçəkləşməsi də bunlar qədər asan olacaq. Quranda hesab və cəza gününün gerçəkləşməsi “şübhəsiz” və “mütləq” kəlmələri ilə bildirilir. Mütləqlik bildirən bu sözlər möminlərin axirət qarşısındakı qorxusunu və dünyadakı cəhdini, səyini artırarkən inkarçıların qiyamət haqqında şübhə və inkarına da ən açıq cavabdır.

Keçmiş dövrlərdə olduğu kimi, günümüzdə də dini rədd edən, ya da haqq dindən ayrılaraq ənənələrlə bütünləşmiş batil bir din yaşayan

insanlar cəmiyyətinin böyük bir qismini təşkil edir. Halbuki, normal bir mühakimə ixtiyarına sahib, düşünə bilən bir insan üçün axirət gününü ehtimal etməməyin hər hansı məntiqi bir istinadgahı yoxdur. Bütün elmi faktlar da bizə dünyanın sonunun yaxınlaşdığını xəbər verir. Buna baxmayaraq, insanların bir qisminin bu həqiqəti qulaqardı etməsinin səbəbi Allah'ı lazımınca tanıyıb təqdir edə bilməmələri, həqiqi rəhbər olan Qurandan azmaları və bu səbəblə də hökm günündə verəcəkləri hesabı düşünməmələridir. Allah qorxusu ilə hərəkət edən möminlər sürətlə yaxınlaşan bu aqibətin açıq-aşkar fərqində ikən nəfsini rəhbər tutan insanlar bu böyük həqiqəti görməzlikdən gəlir. Allah Quranda insanlara bu həqiqəti bu şəkildə xəbər verir:

**"De: "Allah sizi dirildir, sonra öldürür. Sonra da sizi qiyamət günü bir yerə yığacaqdır. Ona heç bir şəkk-şübhə yoxdur, lakin insanların çoxu bilməz!"" ("Casiyə" surəsi, 26)**

Dünya həyatı boyunca dəfələrlə dinə dəvət edildiyi halda, həqiqətləri görməzlikdən gələnlər onları gözləyən dəhşətli aqibəti ancaq din günündə tam şəkildə dərk edə biləcəklər. Dünya həyatı boyunca rədd etdikləri hər şeyi qarşılarında görən insanlar boş vaxt keçirdiklərini aşkar görəcəklər:

**"Sən bundan qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!" ("Qaf" surəsi, 22)**

İnsanların bu böyük günü qavraya bilməməsinin səbəbi nəfslərinə və öz fikirlərinə daha çox güvənib maraq və istəklərinə bağlı olması və bu qəflət pərdəsini qaldıran həqiqətlərə kor şəkildə arxa çevirməsidir. Necə ki, Quranda Allah dünyaya yönələn, həvəsinə tabe olan və vicdanını dinləməyən insanların anlayışlarının olmayacağını, Quranın ifadəsi ilə desək, qəlblərinin örtüləcəyini və

bu səbəbdən, doğrunu görməyəcəklərini bildirmişdir. Halbuki, artıq Allah'ın varlığına, böyüklüyünə və vəd etdiklərinə özləri də açıq şəkildə şahiddirlər.

Bir insan qiyamətə və o gün yaşanacaq hadisələrə bir an belə inansa və bu ehtimalın ola biləcəyini bir saniyə belə düşünsə, yaşayacağı qorxunu tərif etmək çox çətin olar. Bunu ən başdan rədd etmək, hətta ağlına belə gətirməmək, axirətin varlığını ehtimal etməmək insanların böyük hissəsinin aldanmasına səbəb olur. Bu aldanma ilə yox olmanı qəbul etmişlər. Yox olmanın qorxunc olduğunu da heç düşünmədiklərindən qiyamət gününə və axirətə inanmaqdansa, bu fikri qəbul etmək onlara daha asan gəlmişdir. Şeytanın üsulu, bax, budur. İnsanları müxtəlif üsullarla düşünməkdən çəkindirir və əsla çata bilməyəcəkləri böyüklük arzusu və mallarını artırma həvəsi ilə onları aldadır. İnsanların axirətə qarşı qəflət içində olmasının ən əsas səbəbi budur. Axirətdə görəcəkləri həqiqət onlara peşmanlıq və tükürpərdici qorxu gətirəcək. İnsanlara daha əvvəl xəbər verilən həqiqət bütün açıqlığı ilə ortadadır. Artıq hesab günündən qaçış yoxdur. Bu, inkarçılar üçün, həqiqətən, çox çətin bir gündür:

**"Kafirlər boyunlarını qabağa uzadıb carçıya tərəf tələsərək: "Bu nə çətin bir gündür!" - deyəcəklər". ("Qəmər" surəsi, 8)**

## Ölülərin məzardan çıxması

**"Sur çalınacaq, Allah'ın göylərdə və yerdə olan istədiyi kimsələrdən başqa, dərhal hamı yıxılıb öləcək. Sonra bir daha çalınan kimi onlar qalxıb (Allah'ın əmrinə) müntəzir olacaqlar!" ("Zumər" surəsi, 68)**

Ayədə də bildirildiyi kimi, hər şey olub bitdikdən sonra Surun

səsi ikinci dəfə eşidiləcək. Bu ikinci səslə qəbirlərdə olanlar çölə atılacaq. O gün Rəbbinin əmrinə qarşı çıxa bilən və ya bu əmri ləngidə bilən heç bir güc və ya insan olmayacaq. O gün torpağın altında olan insanlar dünya həyatı boyunca haqqında tez-tez eşitdikləri, fəqət bir çoxunun inkar etdiyi dirilişi görəcək və torpaqdan çıxarılacaqlar. Quranda bu andan bəhs edən ayələrdən biri bu şəkildədir:

**“Göyün və yerin Onun əmrində durması, sonra sizi bircə dəfə çağıran kimi dərhal yerdən çıxmağınız da Onun qüdrət əlamətlərindəndir”. (“Rum” surəsi, 25)**

Sura ikinci dəfə üfürülmə ilə yanaşı, dünyanın başlanğıcından bəri yaşamış bütün insanlar diriləcəklər. Artıq ilk üfləmədə inkarçıların çaşqınlığı qorxu və peşmanlığa çevrilmişdir. Çünki artıq heç kim sonsuzadək yaşayacaqmış kimi planlar quracağı dünyada deyildir və hər kəs başına gələcəkləri bütün açıqlığı ilə anlamışdır. Bu insanlar arasında bu anda dünyada yaşayan bütün insanlar və əlbəttə, siz də olacaqsınız:

**“Özü də çürümüş sümüklər olduğumuz zamanmı?!” Onlar deyirlər: “Elə isə bu, ziyanlı dönüşdür. Doğrudan da, o, ancaq tək bir dəhşətli səs, nərədir! Onlar dərhal dümdüz bir yerdə olacaqlar!” (“Naziat” surəsi, 11-14)**

İnsanlar dünyanın əbədi var olacağını düşünərək hərəkət edirlər. Onların həyatı boyu yaşadığı ən böyük səhvlərdən biri də budur. İnsanların dünyaya bu qədər bağlanmasının başlıca səbəblərindən biri də Allah’ın yer üzündə yaratdığı bu fövqəladə sistemin özbaşına işləyəcəyini düşünmələri və bunun bir gün sona çatacağını ehtimal etməmələridir. Elə isə artıq olduqları mühit özlərinə vəd edilən həqiqətləri ortaya qoyur. İnkarçıların hesab etdiyi kimi, ölüm hər şeyi bitirməmişdir, tam əksinə, sonsuz həyatın başlanğıcı olmuşdur. Dünya həyatı boyu haqq dini yalanlayan və ölümün son və yox olma

olduğunu söyləyən inkarçılar gözlənilmədən onları çağıran bu səsdən dəhşətə düşəcəklər. Hələ əməl dəftəri onlara verilmədən və başlarına gələcəkləri tam yaşamadan inkarçılar ah çəkib yerlərindən qalxacaqlar. Bu gün dünyada bildikləri gündür. Quranda "Yasin" surəsinin 52-ci ayəsində bu insanların qorxusundan belə bəhs edilir:

**"Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? "Bu, Rəhmanın məxluqata buyurduğu vəddir. Peyğəmbərlər doğru deyirlərmiş!" ("Yasin" surəsi, 52)**

Artıq çox gecdir, dünyadakı həyat nə zövq, nə də rahatlıq vermiş, o ana qədər etdikləri hər şey onlar üçün sadəcə bu ağır günü hazırlamışdır.

## Carçıya doğru

**"O gün insanlar heç bir başqa tərəfə meyil etmədən carçının ardınca gedəcəklər. Rəhmanın qarşısında səslər kəsiləcək, yalnız pıçıltı eşidəcəksən!" ("Taha" surəsi, 108)**

İnsanlar torpaqdan çıxınca onları çağıran səsə doğru qaçmağa başlayacaqlar. Çağırıldıqları yerə kimi qaçacaqlar. Belə bir çağırışa əvvəllər heç kim rast gəlməmişdir.

Möminlərin rahatlığının əksinə olaraq, inkarçılar toplanma yerinə gələrkən bu günün ağır bir gün olduğunu təsdiq edəcəklər ("Qəmər" surəsi, 8). Artıq toplanma zamanıdır. Bunu geri çevirə bilmək üçün heç nə edə bilməyəcəklər. Min illərlə yaşamış insanların hamısı bir yerə toplanacaq. Bu böyük izdiham Allah'a boyun əyməklə təəccüblə sürətlə hərəkət edib onlar üçün gələcək əzabı gözləyəcəklər. Qaçıb can qurtarmağa və ya geri dönməyə imkan olmayacaq, peşmanlıq da fayda verməyəcəkdir. Qorxu onları bürüyəcəkdir. O gün yaşanacaq dəhşət Quranda belə bildirilir:

**"O gün onlar bütlərin yanına tələsirmişlər kimi qəbirlərdən tez-tələsik çıxacaqlar. Onların gözləri zəlilcəsinə yerə dikiləcək, özlərini də zillət bürüyəcəkdir. Bu onlara vəd olunmuş həmin qiyamət günüdür!" ("Məaric" surəsi, 43-44)**

Dünyada ikən xəbərdarlıqlara arxa çevirən, nə özlərinin, nə də atalarının təkrar diriləcəyinə inanan bu insanlara Allah'ın Quranda verdiyi cavab bu şəkildədir:

**"Məgər biz öldükdən, torpaq və sür-sümük olduqdan sonra dirildiləcəyikmi?! Eləcə də əvvəlki atalarımız dirildiləcəklərmi?!" De: "Bəli, özü də zəlil olaraq". ("Saffat" surəsi, 16-18)**

Dünyada Allah'ın sərhədlərini tanımayan, Allah'a itaət etməyən, lovğa və təkəbbürlük göstərən inkarçılar burada ayədəki ifadəyə müvafiq olaraq çox mütidirlər. Nə baş verdiyini sorğu-sual etmədən qeyd-şərtsiz çağırışçıya itaət edərlər. Öz iradələri ilə hərəkət etmələri mümkün deyildir. Allah'a təslim olmuşlar, istəyib-istəməsələr də, Onun verəcəyi hökmə boyun əymişlər. Çünki artıq nəfsləri üçün yaşadıqları, içində ikən axirəti heç düşünmədikləri dünya həyatı sona çatmışdır. Allah'ın qarşısında nə qədər aciz olduqlarını və Allah'ın əzabının şiddətini və həqiqiliyini artıq açıq anlamışlar:

**"Artıq sən onlardan üz çevir. Carçının onları olduqca pis bir şeyə çağıracağı günədək!" ("Qəmər" surəsi, 6)**

İnsan Allah'a itaət etməkdən və Ona boyun əyməkdən başqa heç bir çarəsi olmadığını qavramışdır. Əslində, əksini istəsə də, edə bilməz. Hətta istəyə bilməz belə...

Artıq bu gün Allah'ın bütün insanlara vəd etdiyi, inkarçılar üçün son dərəcə acınacaqlı bir gündür. Qəbirlərdən çıxmağın dəhşətli mənzərəsi və toplanma gününün dəhşəti mübahisəsizdir. İnsanlar

özlərindən əvvəl dünyadakı həyatını tamamlamış insanların da bu həqiqətlə qarşılaşdıqlarını, Allah'ın vədinin gerçəkləşdiyini bu gündə görəcəklər. Lakin artıq gecdir. Artıq edəcək heç bir şey yoxdur. Belə bir gündən əsla heç kim qurtulmayacaq.

**Qəbirdən çəyirtkələrin səpələnməsi kimi çıxacaqlar**

**"Ən pis nümunə axirətə inanmayanlara, ən yüksək nümunə isə Allah'a məxsusdur. Allah yenilməz qüvvət, hikmət sahibidir!" ("Nəhl" surəsi, 60)**

Ayədə də bildirildiyi kimi, Allah'ın verdiyi nümunələr mövzunu ən gözəl şəkildə təsvir edər. Bu səbəblə, Quranda ayələrin hər birinin olduqca böyük hikmət ("Qəmər" surəsi, 5) olduğu bildirilmişdir. Buna görə, Qurandakı hər nümunə qiyamət günü mühiti və insanların vəziyyətini gözümüzdə canlandırmağımıza imkan verir. Heç şübhəsiz ki, Allah'ın vədi haqdır və bütün bu nümunələr gerçəkləşəcək. Məsələn, "Qəmər" surəsində din günü torpaqdan çıxan insanlar çəyirtkələrin yayılmasına bənzədilir:

**"Onlar gözlərini zəlilanə aşağı dikib səpələnmiş çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar". ("Qəmər" surəsi, 7)**

Əlbəttə, Allah'ın bu bənzətməsi digər ayələrdə də olduğu kimi, o anın beyində canlandırılması üçün ən gözəl bənzətmələrdən biridir. Çünki çəyirtkələrin yayılması digər canlılardan fərqlidir. Köçəri çəyirtkələr böyük sürü halında hərəkət edib getdikləri yerlərə böyük zərər vururlar. Bəzi çəyirtkə sürülərinin eni 1,5 km, uzunluğu 80 km, yüksəkliyi isə 25 metr olur. Və bu sürülərdə təxminən 40 milyard çəyirtkənin olduğu güman edilir. Külək sürətlə əsdikdə çəyirtkə sürüləri 200-500 m yüksəklikdə uça bilir və bu zaman bir-birinə olduqca yaxın olurlar. Milyardlarla çəyirtkə kilometrlərlə uzunluqda

və endə qapqara yağış buludu görüntüsü yaradırlar.[25]

Gündə 80-100 km yol gedə bilən köçəri çəyirtkələr lazım gələndə geniş su sahələrini keçib sürətlə hədəflərinə çatırlar. Gəlib çatdıqları yerlərdə bulud topası şəklində olurlar. Milyonlara çatan sayları ilə bir anda ortaya çıxıb getdikləri bölgəni tamamilə bürüyür, hətta böyük ölçüdə talana səbəb ola bilirlər.

Ayələrdən anladığımız qədər insanların torpaqdan çıxması da bu şəkildə olacaq. Surun səsini duyan milyardlarla insan eynilə çəyirtkələr kimi bir anda torpağın üstündə görünəcək, hamısı birlikdə çağırışçının səsinə doğru qaçmağa başlayacaqlar. İnsanların onları çağıran səsi duyar-duymaz torpaqdan çıxacaqları "Rum" surəsində bu şəkildə anladılır:

**"Göyün və yerin Onun əmrində durması, sonra sizi bircə dəfə çağıran kimi dərhal yerdən çıxmağınız da Onun qüdrət əlamətlərindəndir". ("Rum" surəsi, 25)**

Dünya yarandığı gündən etibarən yaşamış bütün insanların bir anda torpaqdan çıxıb bir araya toplanması həqiqəti də ağılı qarışdıran bir mənzərədir. Belə bir gündə bir araya gələn milyardlarla insan özləri üçün müəyyən olunmuş hökmü gözləyir və bunu əsla geri döndərə bilmirlər.

**Başları yuxarı vəziyyətdə bir istiqamətə doğru yürüş**

O gün inkarçılar başları yuxarıda hipnoz olmuş kimi qaçarlar. Sadəcə Allah'ın istədiyi şəkildə hərəkət edib çağırış səsinin gəldiyi istiqamətə doğru yönələcəklər. Allah'ın vəd etdiyi üçün arxayın olan möminlərdən başqa hamı qorxuya düşəcək:

**"Onların hamısı qiyamət günü onun hüzuruna gələcək. Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman bir sevgi yaradacaq". ("Məryəm" surəsi, 95-96)**

Dünyada inkarçı olanlar qorxu və çaşqınlıqla qaçarkən nə özlərinə, nə də başqalarına baxa biləlsər. Baxmağı hətta ağıllarından keçirməzlər. Din günü nə mallar, nə oğullar, nə də dünya həvəsləri dəyər daşıyacaq. Hər kəs qeyd-şərtsiz itaət edəcəkdir. Etibarlı olan yeganə şey iman olacaq. Allah inkarçıların həmin halını belə tərif edir:

**"Allah'ı zalımların etdikləri əməllərdən əsla qafil sanma! Allah onların cəzasını yubadıb elə bir günə saxlayar ki, həmin gün gözləri hədəqəsindən çıxar. Belə ki, onlar başlarını yuxarı qaldırıb, durar, gözlərini də qırpa bilməzlər. Onların qəlbləri də bomboşdur". ("İbrahim" surəsi, 42-43)**

**"Kafirlərə nə olub ki, boyunlarını qabağa uzadıb sənə tərəf tələsirlər? Sağdan və soldan dəstə-dəstə gəlirlər? Məgər onların hər biri nemətlərlə dolu olan cənnətlərəmi daxil olacağına ümid edir?" ("Məaric" surəsi, 36-38)**

İnkarçılar özlərini qurtarmaq üçün cəhd göstərməzlər, bu, ağıllarına da gəlməz. Qəlbləri bomboşdur, öz aqibətlərinin hayındadırlar. İnsanların haqq-hesab üçün qəbirlərindən qalxıb qaçmaları Rəbbinin hüzurunda nizamla toplanmaları ilə başa çatır. Allah Quranda inkarçılara bu görüş vaxtı ilə bağlı belə buyurur:

**"Onlar Rəbbinin hüzuruna cərgə-cərgə gətiriləcəklər. "Siz Bizim yanımıza sizə ilk dəfə yaratdığımız kimi gəldiniz. Lakin siz elə güman edirdiniz ki, Biz sizə verdiyimiz vədi yerinə yetirməyəcəyik!"" ("Kəhf" surəsi, 48)**

Bu insanların çoxu belə bir görüş vaxtının gələcəyinə əsla inanmırdılar. Halbuki, onları hər yandan bürüyən o böyük gün gerçəkləşmişdir. Artıq çarəsizdirlər.

## İnsanların hesab üçün toplanması

Qiyamət günü kafirlərin bütün ömrü boyu qaçdığı, gözləmədiyi anda gəldiyi, möminlərin isə hazırlanıb gözlədiyi hesab günüdür. Bu gün hər şey Allah'ın gücünə və şəninə uyğun yaradılmışdır. Hesabın gerçəkləşdirilməsi üçün ruh və mələklər səf-səf düzüləcək. O gün insanlar arasında ədalətlə hökm ediləcək və danışan adam sadəcə doğrunu söyləyə biləcəkdir:

**"Ruhun və mələklərin səf-səf duracağı gün Rəhmanın izn verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir!" ("Nəbə" surəsi, 38)**

Quranın bildirdiyinə görə, Allah axirətdə bəndələrinə ən uca məqamda əzəmətini göstərəcəkdir. O gün Allah'ın ərşini səkkiz mələk daşıyar:

**"Mələklər də onun ətrafında olacaq və həmin gün sənin Rəbbinin ərşini onların üstündə səkkiz mələk daşıyacaqdır! O gün siz gətiriləcəksiniz. Sizin heç bir sirriniz gizli qalmayacaqdır!" ("Haqqə" surəsi, 17-18)**

O gün torpaqdan çıxan bütün insanlar dalğa-dalğa Allah'ın hüzuruna gələcəklər:

**"Həqiqətən, ayırd etmə günü bir vaxtdır! Sur çalınacağı gün dəstə-dəstə gələcəksiniz". ("Nəbə" surəsi, 17-18)**

Quranda möminlərin o gün üzlərinin parıldayacağı və Rəblərinə baxacaqları bildirilmişdir. İnkarçılar isə xəcalətdən başlarını da qaldıra bilməyəcəklər. İnkarçıların bu halı ayələrdə bu şəkildə bildirilmişdir:

**"Üzlər əzəli, əbədi olan Allah'a təslim olub zəlil bir görkəm alar. Zülmə yüklənən ziyana düşüb mətləbinə yetişməz". ("Taha" surəsi, 111)**

Hazırda, dünyada milyardlarla insan yaşayır. Bu saya indiyədək yaşamış və bundan sonra da yaşayacaq insanların sayını əlavə etsək, məhşər günü məzarlarından çıxıb toplanacaq insan izdihamı və bunun yaradacağı qeyri-adi mənzərə haqqında düşünmək elə də çətin olmaz. İnsanlar bir araya toplanacaq və bir-birini, hadisələri, olub-keçənləri açıq şəkildə görüb anlayacaqlar. Çünki o gün Quran ayəsində də bildirildiyi kimi, kəskin bir görüş hakim olacaq:

**"Sən bundan qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!" ("Qaf" surəsi, 22)**

İnsanın dünya həyatı boyunca tanıdığı bütün insanlar orada olacaqlar. Tanınmış-tanınmamış, zəngin-fəqir, qısası, qiyamət gününə qədər yaşayıb ölmüş bütün insanlar aralarında heç bir fərq olmadan Allah'ın hüzurunda toplanacaqlar. Artıq belə bir gündə qazandıqları şan-şöhrətdən və əldə etdikləri etibardan əsər-əlamət qalmayacaq. Həmin gün peşman olmayan yeganə cəmiyyət möminlərin topluluğu olacaq. Bir dövrə imza atsa da, tarixdə adından çox söz edilsə də, iman etmədiyi müddət boyu bütün insanlar Allah'ın hüzurunda peşmanlıq və əzabın şiddəti ilə qorxu içində olacaqlar. İnsanların dünyada üstün və məşhur qəbul etdiyi adamlar - dövlət rəhbərləri (prezidentlər), müğənnilər, sənətkarlar, zənginlər, qısası, hər kəs eyni qorxunu yaşayacaq, hər hansı bir dünyəvi üstünlük ünsürü olmadan hər kəs eyni mərtəbədə olacaqdır. Dünyada seçkinlik əlaməti olaraq görülən pul və dərəcə (mövqe) insanların bir araya toplandığı bu gündə heç bir şeyi ifadə etməyəcək, heyran olan da, heyran edən də eyni mərtəbədə olacaq. Quranda insanların din günü Allah'ın hüzurunda toplanacağını bildirən ayələrdən bəziləri bu şəkildədir:

**"O gün onların hamısını yığacağıq". ("Yunis" surəsi, 28)**

**"De: "Allah sizi dirildir, sonra öldürür. Sonra da sizi qiyamət günü bir yerə yığacaqdır. Ona heç bir şəkk-şübhə**

**yoxdur, lakin insanların çoxu bilməz!" ("Casiyə" surəsi, 26)**

O gün dünyadakı məqam və mülkün heç bir əhəmiyyəti olmayacaq. Heç kim bir başqasını təqdir edə bilməyəcək və heç kim digərinə qarşı qürurlu ola bilməyəcək. Üstünlük də artıq olmayacaqdır. Əsil-nəcabətlilər, zənginlər, ağalar, sahiblər və ya sıradan adi insanlar eyni hesabla qarşı-qarşıya qalacaqlar. Yeganə üstünlük Allah'a olan yaxınlığa görədir. Bütün insanlar Allah'ın razılığını (rizasını) qazanmaq üçün görülən işlərdən başqa heç bir işin əhəmiyyətinin olmadığını, sahib olduqları hər şeyin yeganə sahibinin Allah olduğunu qəti olaraq anlayacaqlar. Həqiqəti görən inkarçılar geriyə dönüb etdiklərini düzəldə bilməyəcəklər. Quranda bu hadisə bu şəkildə anladılır:

**"Sur çalınacağı gün artıq aralarında nə qohumluq (əlaqəsi) olar, nə də onlar bir-birindən soruşub hal-əhval tutarlar". ("Muminun" surəsi, 101)**

## Hesab vaxtı

Quranda insan həyatının həqiqi mənası belə açıqlanır:

**"Ey insan! Sən Rəbbinə doğru çalışıb çabalayırsan. Sən Ona qovuşacaqsan!" ("İnşiqaq" surəsi, 6)**

İnsanların həyatda dönüş nöqtəsi olduğuna inandıqları müəyyən hadisələr var. Universitetə girmək, diplom almaq, evlənmək, uşaq sahibi olmaq kimi... Bu və buna bənzər planları olan insanlar məqsədlərinə çatana kimi günləri sayarlar və həmin planlar əsasında hazırlıq görərlər. Həyatlarında ancaq həmin hədəf olar və təkcə bu məqsədlə yaşadıqlarını söyləməkdən də çəkinməzlər. Halbuki, insan Allah'a qulluq etmək üçün yaradılmışdır. Hər nə qədər özü qəbul etməsə də, yaradılmasının yeganə məqsədi budur. Əslində, bunu bilir. Amma kitabın əvvəlində də bildirdiyimiz kimi, bitməyəcək

zənn etdiyi dünya həyatında bu həqiqəti unutmağa çalışaraq yaşayar. Qısası, bunu tamamilə görməzlikdən gələr. Həyatı boyunca nə edirsə etsin, nəticədə, Allah'ın hüzuruna çıxacaq. Həmin vaxt Ona hesab verəcəyi məhşər günüdür.

Dünyada keçən hər gün bizi o məhşər gününə bir az da yaxınlaşdırır. Keçən hər saat, hər dəqiqə, hətta hər saniyə ölümə, yenidən dirilməyə və hesaba doğru atılmış yeni addımdır. Bunu saxlamağın və ya geri çevirməyin yolu yoxdur. Bütün insanlar bu yolu keçəcəklər. Allah Öz kitabında belə deyir:

**"Şübhəsiz ki, onların axır dönüşü Bizədir! Onlarla haqq hesab çəkmək də Bizə aiddir!" ("Ğaşiyə" surəsi, 25-26)**

O vaxt gələndə artıq hər şey sona çatır. Bundan sonra geri dönüş yoxdur və əvəzetmə də mümkün deyil. Vicdanın göstərdiyi həqiqətə önəm verməyənlər şiddətli dərəcədə təşviş və çaşqınlığa düşərlər. Varlığı və birliyi heç bir şübhəyə səbəb olmayacaq qədər açıq olan Allah'ı dünyada inkar edəcək qədər zalım olan bu insanlar daha əvvəl heç gözləmədikləri, bənzəri görünməmiş bir əzabla qarşılıq görəcəklər. Çünki haqq kitabı təbliğ edən elçilər tərəfindən xəbərdar ediliblər və necə yaşamağın lazım olduğuna dair hər mövzudan hali olublar. Onlara dünyada düşünüb mühakimə etmək üçün möhlət verilmişdir. Allah bu həqiqəti Quranda "Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edəcəyi qədər ömür vermədikmi?!" ("Fatir" surəsi, 37) ayəsi ilə bildirir.

Artıq verilən vaxt bitmiş, hesab anı gəlmişdir. İnsanın dünya həyatı boyu işdə, evdə, məktəbdə, əyləncədə, harada olursa-olsun, bütün etdiklərinə Allah şahiddir. İnsana şah damarından daha yaxın olan Allah hər kəsin hər anını görmüş, onu nəzarət altına almışdır. Hər kəs dünya həyatında kim tərəfindən yaradıldığını, yaradılma məqsədini, nə etmək lazım gəldiyini və Rəbbinə qaytarılacağını öyrənmişdir. Bu həqiqəti bildikləri halda, özlərini aldatmağı üstün

tutublar. Bu isə, şübhəsiz, böyük günah və böyük cəsarətdir və bu şeytani cəsarət, əlbəttə ki, qarşılıqsız qalmayacaq. O, çox ağır gündə hər kəsə etdikləri və etməyib təxirə saldıqları tək-tək xəbər veriləcəkdir:

**“Allah onların hamısını dirildəcəyi gün etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah sayıb yazmış, onlar isə unutmuşlar. Allah hər bir şeyə şahiddir!” (“Mücadilə” surəsi, 6)**

**“O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün dəstə-dəstə çıxacaqlar! Kim zərrə qədər yaxşı iş görmüşdürsə, onu görəcəkdir. Kim də zərrə qədər pis iş görmüşdürsə, onu görəcəkdir”. (“Zəlzələ” surəsi, 6-8)**

Allah: “...Allah gördüyünüz hər bir yaxşı işi bilir. Tədarük görün. Ən yaxşı tədarük isə təqvadır...” (“Bəqərə” surəsi, 197) - deyərək insanları hesab üçün hazırlıq görməyə çağırmışdır. Vicdanını dinləyən, Rəbbinin çağırışına itaət edənlər üçün o gün heç bir qorxu və hüzn yoxdur. İnkarçılar isə əvəzi olmayan peşmanlıq yaşayarlar. Dünyada etdikləri axirətdə özlərinə deyiləndə peşman olacaqları Quranda bu şəkildə anladılır:

**“Və cəhənnəmin gətiriləcəyi gün - məhz o gün insan xatırlayacaqdır. Lakin bu xatırlamağın ona nə faydası?! O: “Kaş ki, mən əvvəlcədən həyatım üçün yaxşı əməllər edəydim!” - deyəcəkdir. O gün Allah’ın etdiyi əzabı heç kəs edə bilməz!” (“Fəcr” surəsi, 23-25)**

## Heç kim haqsızlığa məruz qalmaz

**“Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, kitab qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcək, onlar arasında ədalətlə hökm olunacaq və onlara haqsızlıq edilməyəcəkdir!” (“Zumər” surəsi, 69)**

Sorğu sual günü Allah'ın böyüklüyünə, sonsuz ədalətinə, Cabbar (dilədiyini zorla da olsa gerçəkləşdirən), Qəhhar (qəhr edən) və Müntəqim (intiqam alan) isimlərinə yaraşan şəkildə əzəmətli və ehtişamlı olacaq. Dünyada olduğu kimi, axirətdə də sorğu-sual Allah'ın ədaləti ilə qüsursuz olacaqdır. O gün qurulacaq həssas tərəzilərlə hər kəsə haqqı verəcək. Quranda din günündə qurulacaq həssas tərəzilər haqqında belə deyilir:

**"Biz qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, onu gətirərik. Haqq-hesab çəkməyə Biz kifayətik". ("Ənbiya" surəsi, 47)**

Dünya həyatı boyunca edilən kiçik-böyük hər bir əməl incəlikləri ilə bu tərəzilərə qoyulacaq. Bu tərəzi sonsuz əzab və ya sonsuz qurtuluş və xoşbəxtliyi müəyyənləşdirəcək. Etdikləri yaxşılıqları ağır gələn insanlar cənnətə gedəcək, yüngül olanlar isə qorxunc əzab dolu cəhənnəmə atılacaqlar:

**"O gün tərəzisi ağır gələn kimsə xoş güzəran içində olacaq! Tərəzisi yüngül gələn kimsənin isə məskəni haviyə olacaqdır! Sən nə bilirsən ki, o nədir?! O, çox qızmar bir atəşdir!" ("Qariə" surəsi, 6-11)**

## Hesab yerinə bir sürüyən və bir şahidlə gələr

Hesab günü sorğu-sual vaxtı bütün insanların yanında olacaq iki mələk haqqında Quranda belə buyurulur:

**"Hər bir kəs bir sürüyən və bir də şahidlə gələcəkdir". ("Qaf" surəsi, 21)**

Din günü hər yer Allah'ın nuru ilə işıqlanacaq. Bu böyük

məhkəmədə şahidlik edəcək elçi və şahidlər hazır vəziyyətdə olacaqlar. Dünyada Allah'a qulluq etməli olduqlarını insanlara çatdıran peyğəmbərlər və digər şahidlər sorğu-sual edilənlərin yanında olacaqlar. Bu şahidlər haqq ilə hökm edəcəklər və hesab günü heç kim bildiyi halda, Allah'a qulluq etməli olduğunu bilmədiyini deyə bilməyəcəkdir.

O gün bəndənin Rəbbinin hüzurunda etdiklərini inkar etməyə fürsət və ya imkanı olmayacaq. İşlədiyi bütün xeyir və şər ortaya çıxarılacaq. Həqiqətləri inkar etsə belə, adil şahidlər onu yalanlayacaqlar. Rəbbimizin hüzurundakı bu böyük nizam içində hər ümmət öz imamı (rəhbəri, dövlət başçısı) və kitabı ilə gələcək. Hz. Adəmdən bu yana yaşamış bütün cəmiyyətlərin bir araya gələcəyi gündə nizam və ciddilik Allah'ın böyüklüyünün, sonsuz ədalətinin və əzəmətinin göstəriciləridir. Allah'ın ədaləti Quranda belə xəbər verilir:

**"O gün hər ümməti diz çökmüş görəcəksən. Hər ümmət öz dəftərinə tərəf çağırılacaqdır: "Bu gün sizə etdiyiniz əməllərin əvəzi veriləcəkdir!" ("Casiyə" surəsi, 28)**

## Qulaqları, gözləri və dəriləri şahidlik edər

O gün günahkarların pis əməllərinin şahidləri də orada olacaqlar. Mömin, əməlləri yazan mələk və Allah'ın şahidləri ilə yanaşı, inkarçıların əleyhinə onların heç gözləmədiyi şahidlər də olacaqdır. Bunlar insanın özünü tək sandığı zamanda da Allah'ın onu hər tərəfdən əhatə etdiyinə dair açıq dəlillərdir. İnkarçıların əleyhinə şahidlik edənlərin arasına qulaqları, gözləri və dəriləri də əlavə olunacaq. Hər biri Allah'ın izni ilə danışacaq və əskiksiz deməsi lazım gələn şeyləri bildirib şahidlik edəcəklər. Ömrü boyu istifadə edib şəxsi hesab etdikləri bədən üzvlərinin onlara xəyanəti psixoloji gərginliyi daha da artıracaq. Quranda bu mövzunun keçdiyi ayələr aşağıdakı kimidir:

**"Allah'ın düşmənləri cəhənnəmə toplanacaqları gün onlar saxlanacaqlar. Nəhayət, onlar cəhənnəmə gəldikdə qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir. Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şəhadət verirsiniz?" -deyəcəklər. Dəriləri də belə cavab verəcəkdir: "Hər şeyi dilə gətirən Allah bizi danışdırdı. Sizi ilk dəfə yoxdan yaradan Odur. Siz Onun hüzuruna qaytarılırsınız!" Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şəhadət verəcəklərinizdən qorxub çəkinmir, etdiyiniz əməllərin çoxunu isə Allah'ın bilməyəcəyini zənn edirdiniz. Sizin öz Rəbbiniz barəsindəki bu zənniniz sizi məhv etdi və ziyana uğrayanlardan oldunuz! İndi dözsələr də, (dözməsələr də) onların məskəni cəhənnəmdir. Onlar riza diləsələr də, onların diləyi qəbul olunmaz". ("Fussilət" surəsi, 19-24)**

İnsan etdiyi hər şeyə məqbul açıqlama yönü tapa bilər. Hətta buna özünü inandıra da bilər. Bu açıqlamaların hər zaman məqbul olması də şərt deyil. Həmin vaxt istənilən yeganə şey izahlarla qarşı tərəfi, ya da özünü əmin etməkdir. Başqa sözlə, inanmaq istədiyi şeyə inanar və onu müdafiə etmək üçün məntiqini işə salar. Etdiyi açıqlamalar da bu məntiqə əsaslanar. Bəlkə də buna görə, Allah'ın varlığını da inkar etmək üçün irəli sürdüyü dəlillər öz qənaətinə görə əsaslı olmuş və beləliklə, keçmişdə möminlərə qarşı davamlı mübarizə aparmışdır. Amma hesab günündə bu açıqlamaların heç birinin əsası olmayacaq. O gün təkəbbür və arxayınlıqla müdafiə etdiyi açıqlamaların etibarlı olmadığını görəcək, əleyhinə şahidlik edən öz bədən üzvlərinin qarşısında heç nəyi gizlədə bilmədiyini anlayacaqdır. Heç kimin görmədiyini zənn etdiyi şeylər, gizli işlər təkrar ortaya qoyulacaq və öz bədəni bunları təsdiq edəcəkdir.

## Sorğuya tək-tənha çəkilərlər

Bu günün başqa bir xüsusiyyəti də vardır, belə ki, dünya və axirətdə yaxınlarından kömək umanlar hesab vaxtı tək-tənha olacaqlar. Beləcə, inkarçılar Allah'dan başqasına ümid etməyin nə dərəcədə mənasız olduğunu görəcək və bu yanlışlığın əvəzini alacaqlar. Hər insanın sorğuya tənha çəkiləcəyi həqiqəti Quran ayələrində xəbər verilmişdir:

**"Onların hər biri qiyamət günü Onun hüzuruna tək-tənha gələcək". ("Məryəm" surəsi, 95)**

Burada bir anlıq bu həqiqəti daha dərin düşünmək lazımdır. Ümumiyyətlə, insanlar tənhalıqdan çox çəkinirlər və xüsusilə çətin durumlarda bu, onları çox qorxudur. Tək qalmaq dünyada insanlar üçün ən böyük əzablardan biridir. Halbuki, axirət günü təkcə tənhalıq olmayacaq. Əsas olan inkarçıların qarşı qarşıya qaldığı və zülm etdiklərini bildiyi üçün şiddətlə qorxduqları hesab anıdır. Yanında güvənib yardım görəcəyi heç kim olmayacaq. Ona ən yaxın və ən mərhəmətli olan, güvəndiyi ailəsi belə onu tanımaz. Bundan başqa, hər şey əleyhinə çıxmış, öz vücudu və etdikləri ona qarşı açıqlamalar verməyə başlamışdır. Qısası, bu, asan izah verə bilmədiyimiz tənhalıqdır.

Saxta ilah və dostlardan kömək istəməklə yanılan kafirlər, bunun kimi, elə düşünürlər ki, gizli şəkildə etdikləri günah və pis əməllər hesab günüdə ortaya çıxmayacaq. Halbuki, Allah onların dünyada etdikləri bütün gizli hərəkətlərə şahid olmuşdur. Bu həqiqət Quranda belə xəbər verilir:

**"O gün siz gətiriləcəksiniz. Sizin heç bir sirriniz gizli qalmayacaqdır!" ("Haqqə" surəsi, 18)**

**"Hər kəsə öz əməlinin cəzası veriləcəkdir! Allah onların nə etdiklərini ən yaxşı biləndir!" ("Zumər" surəsi, 70)**

İnkarçıların bütün günah və pis əməlləri ortaya çıxacaq. Həyatı boyu ailəsinə, ən yaxın dostuna da yalan söyləyən, saxtakarlıq edən, öz maraqları üçün hər şeyi tapdalayan, Allah'ın elçilərini yalan hesab edən, onların anlatdığı hər şeyi rədd edən və ən sonda bunların heç bir zaman ortaya çıxmayacağını və unudulacağını zənn edən insanlar o gün tək-tənha sorğu-sual ediləcəklər. Bütün sirləri ortaya çıxan bu insanların vəziyyəti "Tariq" surəsində bu şəkildə keçir:

**"Bütün sirlərin aşkar olacağı o qiyamət günü insanın nə (əzabı dəf edəcək) birisi, nə də bir köməkçisi olar!" ("Tariq" surəsi, 9-10)**

## O gün dostluq, qohumluq və yaxınlıq olmayacaq

O gün insanın özündən başqa heç kimlə maraqlanmağa imkanı olmaz. İnsan dünyada ikən dəyərli gördüyü və güvəndiyi ailəsini belə düşünməz. Hadisələrin dəhşətindən təkcə öz dərdində olacaq. Dünyada çox sevdiyi ataları, uşaqları, qohum-əqrəbaları və yaxınları ilə əlaqələri tamamilə kəsiləcək:

**"Sur çalınacağı gün artıq aralarında nə qohumluq (əlaqəsi) olar, nə də onlar bir-birindən soruşub hal-əhval tutarlar". ("Muminun" surəsi, 101)**

Dünyada böyük güc sayıb sığındığı yaxınlarının mal və mövqeyindən artıq əsər-əlamət qalmayacaq. Güc və qüdrəti ata soyunda və dünya malında axtaran, həmçinin dindən uzaq həyat tərzi keçirib qazanc əldə etdiyini düşünən insanlar yanlış etdiklərini anlayacaqlar. O gün təkcə imanın dəyəri olacaqdır.

Dünyada, ümumiyyətlə, dostluğun qurulub davam etməsi qarşı tərəfdən gələcək mənfəətə bağlı olur. Mənfəət isə gələcəyi zəmanətə almaq, sərmayə qoymaq, pul, etibar və s. məqsədini daşıyır. Halbuki,

hesab günündə heç kim həvəs və istəklərinin ardınca gedə bilmədiyi üçün keçmiş dostluqları bir anda unudarlar. Quranda bu həqiqət belə bildirilir:

**“Və dost dostu arayıb axtarmayacaqdır”. (“Məaric” surəsi, 10)**

Din günündə qorxu elə şiddətli olacaqdır ki, hər kəs kimliyindən asılı olmayaraq, bu qorxunc əzabdan qurtarmaq üçün sahib olduğu hər şeydən vaz keçər. Hər şeyi tapdalayıb əldə etdiyi sərvətlərə heç əhəmiyyət də verməz. Hətta təkcə sahib olduqları deyil, dünyanın bütün var-dövləti onun olsa belə, hamısını fidyə vermək istər. Bərk yapışdığı malı-dövləti artıq onun üçün heç bir məna ifadə etməz. Allah üçün verməli olduğu, lakin xəsislik edib vermədiyi malı gözünü belə qırpmadan fəda edər. Lakin artıq çox gec olacaq. Göz qırpımı qədər qısa sürən dünya həyatında ondan Allah’ın verdiyi nemətləri Allah yolunda istifadə etməyi istənilərkən, o, bu ağır günü qulaqardına vurmuş, hətta öldükdən sonra belə dünyada qoyub getdiyi izlə adının anılacağına, etibarının davam edəcəyinə ümid etmişdir. İnkarçıların düşdüyü bu çıxılmaz vəziyyət Quranda bu şəkildə ifadə edilmişdir:

**“Yer üzündə nə varsa hamısı, üstəlik, bir o qədər də kafirlərin olmuş olsaydı, mütləq onu qiyamət gününün pis əzabından qurtarmaq üçün fidyə verərdilər. Və Allah’dan onlara güman etmədikləri görünəcəkdir”. (“Zumər” surəsi, 47)**

**“(İbrahim) dedi: “Sizin Allah’ı qoyub bütləri tanrı qəbul etməyiniz yalnız dünyada aranızda olan dostluğa görədir. Sonra da qiyamət günü bir-birinizi inkar edəcək, bir-birinizə lənət oxuyacaqsınız. Məskəniniz cəhənnəm odu olacaq, özünüzə də kömək edən kimsələr tapılmayacaqdır!”“ (“Ənkəbut” surəsi, 25)**

Dünyada saxta olduğu halda, inkarçıların heç biri dostluqlarının saxta olduğunu qəbul etmək istəməz. Bir çox insan üçün dostluq və sevgi digərlərindən fərqli olur. Halbuki, hamısı eyni xətaya düşmüş, vəfanı dünyada heç vaxt yaşamamışlar. Üstəlik, o gün əzab görməsinlər deyə, təklif etdiyi şeylər dostluq anlayışlarını tam ortaya çıxaracaq. O gün dünyada ikən möhkəm bağ qurduğu ailəsi və dostlarını fidyə verib qurtulmaq istəyəcəklər. Quranda bu həqiqət açıq şəkildə verilmişdir:

**"Və dost dostu arayıb axtarmayacaqdır. Onlar bir-birinə göstəriləcəklər. O günün əzabından qurtarmaq üçün günahkar istərdi ki, fəda etsin öz oğullarını; övrətini və qardaşını; ona sığınacaq verən əşirətini! Və yer üzündə olanların hamısını - təki özünü qurtarsın! Xeyr, bu mümkün deyildir. Həqiqətən, o, alovlu atəşdir". ("Məaric" surəsi, 10-15)**

Məhşər günü inkarçıların bu fidyə təklifi onların həqiqi xarakterinin bilinməsi üçün olduqca önəmlidir. Artıq dünyadakı ən yaxın əlaqələrin belə, mənfəətin bitdiyi və adamların maraqlarına zidd olduğu bir vaxtda dəyərdən düşdüyü məlum olmuşdur. Halbuki, bu cəhd boş yerədir. Allah insanları bu var-dövlətə onları yoxlamaq üçün varis etmiş və onlara müəyyən zaman ayırmışdır. Bu müddətin bitməsindən sonra bunları fidyə olaraq vermək istəmələri inkarçıların bir daha anlayışsız olduqlarını göstərir.

## Əməl dəftərlərinin verilməsi

İnsanın dünya həyatı boyu etdiyi hər şey sağ və sol tərəfindəki mələklər tərəfindən yazılır. Hesab anı üçün hazırlanan dəftərlər din günündə insanlara veriləcək. İnsan etdiklərinin heç birini rədd edə bilməyəcək, çünki yaşadığı hər an əməl dəftərinə yazılacaq. Hər kəs öz dəftərindən axirəti üçün nələr hazırladığını öyrənəcək. Mö-

minlərin sağ əllərinə, kafirlərin isə sol əllərinə dəftərləri veriləcək. Heç kimə zərrə qədər haqsızlıq edilmədiyi və bir xardal dənəsi qədər əməlin də hesaba qatıldığı bu anda möminlərlə kafirlərin keçirdiyi hisslər və rəftarları çox fərqli olacaq. Möminlər böyük sevinc içində dəftərlərini oxumaları üçün yanında olanlara uzadacaqlar. Allah ayələrdə belə buyurur:

**“O gün siz məhşərə gətiriləcəksiniz və heç bir sirriniz gizlədilməyəcəkdir. Kitabı sağ əlinə verilən deyəcəkdir: “Budur, oxuyun kitabımı! Mən bilirdim ki, etdiklərimin hesabına qovuşacağam”. O, xoşbəxt həyat sürəcəkdir uca bir cənnətdə, elə bir cənnətdə ki, onun meyvələri lap yaxınlıqda olacaqdır. Onlara: “Keçmiş günlərdə etdiyiniz əməllərə görə nuşcanlıqla yeyin-için”, -deyiləcəkdir”. (“Haqqə” surəsi, 18-24)**

Möminlərin bu sevinc və fərəhlərindən fərqli olaraq, kafirlər qorxu içində olacaqlar. Kafirlərin dəftərləri sol əllərinə veriləcək. Ən kiçiyindən ən böyüyünə qədər heç bir işi əskik buraxılmadan yazılmış bu dəftər Allah’ın bəyənmədiyi işlərlə dolu olacaq. Bu həqiqət qarşısında inkar edənlərin qorxu və narahatçılığı ayədə bildirilmişdir:

**“Hər kəsin kitabı qarşısına qoyulacaq və sən günahkarların orada yazılmış olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: “Vay halımıza! Bu necə bir kitab imiş! O, nə bir kiçik, nə də bir böyük günahı buraxıb hamısını yazmışdır!” Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz!” (“Kəhf” surəsi, 49)**

Allah’dan qorxmamaq, Ona şərik qoşmaq, Ona ibadət edən kimi görünüb Ondan başqalarını da razı salmağa çalışmaq kimi yalan,

zina, qumar və daha bir çox günah bu dəftərdədir. İnkarçılar Allah'ı haqqı ilə təqdir edə bilmədikləri üçün riyakar əxlaqla həm dünyada istədikləri kimi yaşayacaqlarını, həm də istədikləri ibadətləri etməyi bağışlama ünsürü olaraq önə sürə biləcəklərini zənn edirlər. Allah'a ibadət etməyən və ya ibadət edən kimi görünən şəxsləri hesab günündə qorxu və narahatlıq gözləyir. Layiq olduğu qarşılığı alan inkarçıların çarəsizlik və peşmançılığı onların söylədiklərindən də aydın olur. Quranda bu şəxslərin o ankı dəhşətləri belə bildirilir:

**"Kitabı sol əlinə verilən kimsə isə deyəcəkdir: "Kaş kitabım mənə verilməyəydi! Hesabımdan da xəbərim olmayaydı! Kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni əzabdan qurtarmadı. Hökmranlığım da məhv olub getdi"" ("Haqqə" surəsi, 25-29)**

Allah'a və axirətə yəqinliklə inanan, həyatı boyu hesab anı üçün hazırlıq görən möminlər ilə axirəti unudan, Allah'dan və möminlərdən üz çevirən sol tərəfin adamları arasındakı fərq yenə başqa bir ayədə belə izah olunur:

**"Kimin kitabı arxa tərəfindən veriləcəksə, o, özünə ölüm diləyəcək və alovlu oda atılacaqdır! Sözsüz ki, o, dünyada ikən öz ailəsində sevinc içində idi və elə güman edirdi ki, Rəbbinin hüzuruna qayıtmayacaqdır. Xeyr! Sözsüz ki, Rəbbi onu görürdü". ("İnşiqaq" surəsi, 10-15)**

## O gün insanlar qruplara ayrılacaqlar

Allah'dan qorxub çəkinən və dünyada Onun rizasına uyğun yaşayanların gözlədiyi an gələcək. İnananlar Rəbbimizin onlara vəd etdiyi qovuşmanın həyəcanını yaşayacaqlar. Kafirlərin üzərində isə həyatları boyu yaşamadıqları qədər böyük, təsvir oluna bilməyən bir qorxu olacaq. İman gətirənlərdən başqa bu dəhşəti hər kəs yaşaya-

caq. Möminlərlə kafirlərin yolu ayrılacaq. Quranda bu günün ayırma günü olduğu belə bildirilmişdir:

**"Onlara deyiləcək: "Bu yalan saydığınız fərqləndirmə günüdür!"" ("Saffat" surəsi, 21)**

Quranda o gün insanların qruplara ayrılacağı bildirilir. Əshabi-Meymənə" adlandırılan möminlər bir qrupdur. "Əshabi-Məşəmə" isə kafirlərdən ibarət, möminlərdən ayrılan qrupu təmsil edir. Bunlarla yanaşı, möminlərin arasında da Allah'a yaxınlıq və Allah yolunda aparılan mübarizədə ən önə keçənlər vardır ki, Quranda bu insanlar yarışıb önə keçənlər adlandırılırlar:

**"O gün neçə-neçə üzlər nurlanacaq və öz Rəbbinə baxacaqdır. O gün neçə-neçə üzlər də tutulub qaralacaq və yəqin edəcək ki, onlara müsibət artıq üz vermişdir". ("Qiyamət" surəsi, 22-25)**

**"Sağ tərəf sahibləri. Nə xoşbəxtdir sağ tərəf sahibləri! Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri! Xeyirxah işlərdə öndə gedənlər cənnətdə də öndədirlər! Onlar Allah'a yaxın olanlardır". ("Vaqiə" surəsi, 8-11)**

## Cəhənnəmin göstərilməsi

O gün hər kəs Allah'a dünyada törətdiklərinin hesabını verəcək. Cəhənnəmə girəcəyini anlayıb qorxu içində olan inkarçılar qısa bir ömrü sonsuz bir həyatdan üstün tutmağın verdiyi sonsuz peşmançılıq içində olacaqlar. Onlar özlərinə əzabın toxunmayacağını, qiyamət gününün gerçəkləşməyəcəyini və Allah'ın onları cəzalandırmayacağını zənn edərək guya rahat bir həyat yaşayarkən Allah onları əhatəyə alacaq və heç gözləmədikləri bir anda qəhr edəcək. Hər şey bitəcək və hər kəsin gedəcəyi yer müəyyən olunacaq. Lakin insanlar dərhal bir-birlərindən ayrılmayacaqlar. Möminlər cənnətə göndərilməzdən

əvvəl onlara da kafirlərlə birlikdə cəhənnəm göstəriləcək. O gün mömin və ya kafir bütün insanlar cəhənnəmin ətrafında diz çökəcək. Hər kəs cəhənnəmin qorxu salan uğultusunu eşidəcək və içindəki tük ürpərdici görüntülərə şahid olacaq. Lakin sonra möminlər qurtarılacaq və kafirlər diz üstü çökmüş olaraq buraxılacaqlar. Ayələrdə bu həqiqət belə xəbər verilir:

> **“İnsan soruşar: “Doğrudanmı, mən öldükdən sonra qəbirdən diri çıxardılacağam?” Məgər insan ilk əvvəl onu heç bir deyil ikən yaratdığımızı xatırlamırmı? Rəbbinə and olsun ki, Biz onları şeytanlarla bir yerə toplayacaq, sonra da onları diz üstə çökmüş halda, cəhənnəmin ətrafına yerləşdirəcəyik. Sonra hər firqədən ər-Rəhmana ən çox asi olanı çıxardacağıq. Orada yanmağa daha çox layiq olanları, əlbəttə ki, Biz yaxşı tanıyırıq. İçinizdən hər kəs oraya varid olacaqdır. Bu, Rəbbinin əzəldən müəyyən etdiyi qəti bir qərardır. Sonra Biz müttəqiləri oddan xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik”. (“Məryəm” surəsi, 66-72)**

Əlbəttə, möminlərə cəhənnəmin göstərilməsinin bir çox hikməti vardır. Cəhənnəmin vəziyyətini yaxından görən möminlər Allah’ın onlara verdiyi imanın nə qədər böyük bir gözəllik və fərqlilik olduğunu daha dərindən qavrayırlar. Çünki şahid olunan cəhənnəm o qədər dəhşətlidir ki, o əzabdan xilas olmaq insan üçün təsvir oluna bilməyən xoşbəxtliyə və şükürə vəsilə olacaq. Möminlər cəhənnəmi görməklə müqayisə etmək imkanına sahib olurlar. Beləliklə, insana veriləcək ən gözəl nemətləri olan və əbədi qalacaqları cənnətin dəyərini daha yaxşı anlayırlar. Çünki nemətin dəyəri ancaq müqayisə ilə anlaşılır. Gözəlliklərin, yəni cənnət nemətlərinin dəyəri Allah’ın zülm edənlərə verəcəyi qarşılıq görüləndə daha yaxşı anlaşılır. İmtahan olunmaq üçün gəldiyimiz dünyanın yaradılış

hikmətlərindən biri də təlimdir. İnsanlar burada doğrunu, yanlışı, gözəli, çirkini, yaxşını, pisi tək-tək görərək və müqayisə edərək öyrənirlər. Dünyada bu xüsusiyyətə sahib olmağın yolu ancaq ağıl, vicdan və ən vacibi də Allah qorxusundan keçir.

Qiyamət yaradılmışların ən xeyirliləri olan möminlər (Beyyinə surəsi, 7) ilə yaradılmışların ən pisləri olan (Beyyinə surəsi, 6) inkarçıların bir-birindən sonsuza qədər ayrılma vaxtıdır. Ayırma günü Quranda belə izah olunur:

**“Elçilərə vaxt təyin olunacağı zaman – deyiləcəkdir: “Bunlara verilmiş möhlət hansı günə qədərdir?” Deyiləcəkdir: “Ayırd etmə gününədək!” Sən Ayırd etmə gününün nə olduğunu bilirsənmi? Qiyaməti yalan sayanların o Gün vay halına! Yoxsa Biz ilk nəsilləri həlak etmədikmi? Sonrakıları da onlara qatacağıq. Biz günah sahibləri ilə belə davranırıq. Qiyaməti yalan sayanların o gün vay halına!” (“Mürsəlat” surəsi, 11-19)**

Bu ayırma günü ölümlə başlayır və hesabla davam edir və insanların əbədi yurdlarına yollanması ilə sona çatır. “Qaf” surəsində kafirlərin və möminlərin əbədi yurdlarına etdikləri səfər belə izah olunur:

**“Ölüm bihuşluğu həqiqətən gələcəkdir. “Ey insan! Bu sənin uzaq qaçdığın şeydir. Sur üfürüləcəkdir. Bu, vəd olunmuş təhdid günüdür. Hər kəs onu qova-qova məhşərə gətirənlə və bir də əməllərinə şahidlik edənlə birlikdə gələcəkdir. Sən bunun haqqında qəflət içində idin. Amma Biz pərdəni sənin üzündən qaldırdıq. Sən bu gün çox yaxşı görürsən!” Yoldaşı şahid mələk deyəcəkdir: “Bu yanımdakı hazırdır!” Allah əmr edib deyəcək: “Atın cəhənnəmə hər bir inadcıl kafiri, xeyrə mane olanı, azğınlaşıb həddi aşanı, şübhə edəni, başqa bir məbudu Allah’a**

**tay tutanı. Yoldaşı şeytan deyəcəkdir: "Ey Rəbbimiz! Onu mən yoldan çıxartmadım, əksinə, o, özü dərin azğınlıq içində idi!" Allah deyəcəkdir: "Mənim hüzurumda höcətləşməyin. Mən əvvəlcədən sizi xəbərdar etmişdim. Mənim sözüm dəyişməzdir. Mən bəndələrə zülm edən deyiləm!" O gün Biz cəhənnəmə: "Doldunmu? – deyəcəyik. O isə: "Yenə varmı? – deyəcəkdir. Cənnət müttəqilərə yaxınlaşdırılacaq, onlardan uzaqda olmayacaqdır. Budur sizə vəd edilən cənnət! O, hər bir tövbə edib Allah'a üz tutan, Onun əmrinə riayət edən, mərhəmətli Allah'dan Onu görmədən qorxan və Allah'a yönəlmiş qəlblə gələn kimsələr üçündür. Ora sağ-salamat daxil olun! Bu, əbədiyyət günüdür". ("Qaf" surəsi, 19-34)**

# ÖLÜMLƏ BAŞLAYAN ƏSL HƏYAT

Təxminən 60-70 ilə qədər qısa bir ömrü İslamın hökmlərini qoruyaraq keçirən möminlər ilə həvəslərinin ardınca qaçaraq Allah'ı və din gününü unudan kafirlərin alacağı qarşılıq çox fərqlidir. Bu fərqlilik ilk olaraq ölüm anında ortaya çıxır. Mələklər möminlərin canlarını gözəlliklə alarkən kafirlərin canını çətinlik içində çıxarırlar. Mələklər möminlərə salam verib onları cənnətlə müjdələyirlər. Ayələrdə bildirildiyi kimi, ruhları bədənlərindən xəfif şəkildə alınır. İnanan hər insan qaçılmaz olduğunu bildiyi və buna görə həyatı boyu hazırlıq gördüyü sonsuz həyatın giriş qapısı olan ölümlə sevinclə qarşılaşırlar.

İnkarçılar isə həyatı boyu qaçdıqları, varlığını bildikləri halda, qulaq ardına vurmağa çalışdığı ölümlə şiddətli sarsıntılar içində qarşılaşırlar. Zəbanilər əllərini onlara doğru uzadır, üzlərinə və kürəklərinə vuraraq ruhlarını ən dərindən əzabla alırlar və onları alçaldıcı, yandırıcı bir əzaba göndərirlər. Bir ayədə belə buyurulur:

**"Kaş sən kafirləri mələklər onların canını alarkən görəydin. Mələklər onların üzünə və yanlarına vura-vura deyirdilər: "Dadın yandırıcı odun əzabını!"" ("Ənfal" surəsi, 50)**

Möminlər həyatları boyu bu gün üçün hazırlanırlar və Allah'a din günündə onları alçaltmaması üçün dua edirlər. "Ali-İmran" surəsinin 194-cü ayəsində möminlərin bu duaları belə xəbər verilir:

**"Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!"" ("Ali-İmran" surəsi, 194)**

Din günündə baş verənlər Allah qorxularını artırır. Lakin Allah möminləri o çətin günün şərindən qoruduğunu ayəsində belə bildirir:

**"Əslində, biz Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik! Bunun əvəzində Allah da onları həmin günün qoruyar və onlara gözəllik və sevinc nəsib edər". ("İnsan" surəsi, 10-11)**

Ayədə də göründüyü kimi, Allah'dan qorxan və axirət günü üçün hazırlaşan möminlər cəhdlərinin mükafatı olaraq din günü yaşanacaq çətinliklərə qarşı qorunacaqlar. Çətin əzab isə inkarçıları gözləyir.

## Din günündə möminlərin vəziyyəti

### Fiziki durumları

**"O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını görəcəksən. Onlara: "Bu gün sizin müjdəniz ağacları altından çaylar axan cənnət bağlarıdır. Siz orada əbədi qalacaqsınız!" – deyiləcək. Bu, böyük uğurdur". ("Hədid" surəsi, 12)**

Din gününün qorxusuna qarşılıq, böyük hüzur və rahatlıq içində olan möminlərin üzləri gözlədikləri qarşılığı almağın güvəni və se-

vinci ilə nurludur. Onlar xoşbəxtdirlər. ("Əbəsə" surəsi, 39)

Quranda möminlərlə kafirlərin üz ifadələri arasındakı fərq belə izah olunur:

**"Yaxşı iş görənlər üçün ən yaxşısı cənnət və bundan da üstünü Allah'ı görmək vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar cənnət sakinləridirlər və orada əbədi qalacaqlar. Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allah'dan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar od sakinidirlər və orada əbədi qalacaqlar". ("Yunis" surəsi, 26-27)**

İnkarçılar isə iman gətirənlərə yalvararlar. Dünya həyatında nifrət etdikləri möminlərin nurlarından almaq istəyərlər. Bu nurun mənası bir aydınlıq, inam və sevincdir. Sadəcə cənnətə layiq olan insanlar üzərində olan bu nurdan inkarçılar nə qədər istəsələr də, faydalana bilməyəcəklər. Bu nurun mənbəyi dünyada edilən yaxşı işlər olduğundan arxalarında heç bir saleh davranışı olmayan inkarçının buna sahib olması mümkün deyil. Buna görə də möminlər tərəfindən onlara "dünyaya dönün və nur axtarıb tapmağa çalışın" cavabı verilir. Mövzu ilə bağlı olaraq Quranda keçən ayə belədir:

**"O gün münafiq kişilər və münafiq qadınlar iman gətirənlərə: "Bir az gözləyin ki, biz də sizin işığınızdan alaq", - deyəcəklər. Onlara deyiləcəkdir: "Geriyə qayıdıb işıq axtarın!" Onların arasına içəri tərəfində mərhəmət, çöl tərəfində əzab olan qapılı bir sədd çəkiləcəkdir". ("Hədid" surəsi, 13)**

Möminlər dünyada Allah'ın razılığı üçün göstərdikləri cəhdlərin qarşılığını alarlar. Bu cəhdlərə görə məmnundurlar. (Ğaşiyə surəsi,

9) Allah onların cəhdlərinin müqabilində ən gözəl mükafatı verər. Onsuz da ümidlə gözlədikləri də budur. Buna görə, Allah'a şükür edərlər. Onlar: **"Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allah'a həmd olsun! Biz cənnətin istədiyimiz yerində sakin oluruq. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!"** ("Zumər" surəsi, 74) -deyirlər...

**<u>Möminlərin mükafatı</u>**

**"Dünya həyatı kafirlər üçün gözəlləşdirildi. Onlar iman gətirənləri məsxərəyə qoyurdular. Halbuki, müttəqilər qiyamət günü onlardan üstün olacaqlar. Allah istədiyi kəsə hesabsız ruzi verər". ("Bəqərə" surəsi, 212)**

Ayədə də göründüyü kimi, görmədikləri halda, Rəbbimizdən qorxan və qiyaməti qəlbləri ürpərərək gözləyən möminlər o gün Allah'ın himayəsi altında olacaqlar. Möminlərin din günündə rahatlıq içində olacaqlarını müjdələyən başqa bir ayə isə belədir:

**"O gün Allah Öz Peyğəmbərini və onunla birlikdə iman gətirənləri xəcil etməz. Onların iman nuru önlərindən və sağ tərəflərindən axıb şölə saçarkən onlar belə deyəcəklər: "Ey Rəbbimiz! Bizim nurumuzu tamam-kamal elə və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!"" ("Təhrim" surəsi, 8)**

İnkar edənlər peşmançılıq içində ikən, möminlər din günündə heç bir qorxu yaşamayacaqlar. Allah'ın onlara vəd etdiyinə qovuşmanın sevinci içindədirlər. Sağ əllərinə dəftərlərini alıb, hüzur içində cənnətə gedəcəkləri anı gözləyirlər. Allah onlara dünyada və axirətdə heç bir neməti qadağan etməmiş, tam əksinə, sonsuz nemətlərlə cavab vermiş, canlarını gözəlliklə almış və din günündə də onları

qorumuşdur. "Əraf" surəsinin 32-ci ayəsində Allah'ın bütün nemətləri möminlərə bəxş etdiyi belə bildirilir:

**"De: Allah'ın Öz qulları üçün üzə çıxardığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında hamıya, qiyamət günü isə yalnız möminlərə məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə izah edirik". ("Əraf" surəsi, 32)**

Hesab anı bitdikdən və qızdırılmış cəhənnəm onlara göstərildikdən sonra möminlər cənnətə aparılarlar:

**"Rəbbindən qorxanlar da dəstə-dəstə cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Sizə salam olsun! Xoş sizin halınıza. Əbədi qalmaq üçün buraya daxil olun!"" ("Zumər" surəsi, 73)**

Quranda möminlərin sonsuz axirət həyatında alacaqları mükafatlar ətraflı şəkildə izah olunur. "Tur" surəsində əbədi yurdun nemətləri belə sayılır:

**"Şübhəsiz ki, müttəqilər cənnət bağlarında və nemət içində yaşayacaqlar. Rəbbinin onlara bəxş etdiyinə sevinəcəklər. Rəbbi onları cəhənnəm əzabından xilas etmişdir. Onlara deyiləcək: "Xeyirxah əməllərinizin əvəzi olaraq nuşcanlıqla yeyin, için!" Onlar səflərlə salınmış mütəkkələrə dirsəklənəcəklər. Biz onları iri qaragözlü hurilərlə evləndirəcəyik. Möminlərin imanda onların arxasınca gedən nəsillərini də cənnətdə özlərinə qovuşduracağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs qazandığının girovudur. Onlara istədikləri meyvədən və ətdən bol-bol verəcəyik. Onlar orada bir-birinə şərab dolu badə uzadacaqlar. Bu şərab onları nə**

**boşboğazlığa, nə də günaha təhrik edər. Onların ətrafında xidmətlərinə verilmiş, qorunub saxlanılan mirvari kimi cavan oğlanlar dolanacaqlar. Onlar bir-birinə üz tutub soruşacaqlar. Onlar deyəcəklər: "Biz əvvəllər ailəmiz içində olarkən Allah'dan qorxurduq. Allah da bizə mərhəmət göstərdi və bizi qızmar yel əzabından qorudu. Biz əvvəllər Ona dua edirdik. Həqiqətən, O, yaxşılıq edəndir, Rəhmlidir!"" ("Tur" surəsi, 17-28)**

## Kafirlər çətin, möminlər asan hesaba çəkilərlər

Dünyadakı həyatlarını Allah'ın göstərdiyi yoldan uzaqlaşaraq öz istək və həvəslərinə uyan və ya cəmiyyətin azğın dəyər və inanclarına görə yaşayan inkarçıların hesabı çox çətin olacaq. O gün onlara qarşı nə bir mərhəmət, nə də bir şəfqət vardır, nə də əzabı yüngülləşdirəcək bir güc... Bunun ən böyük səbəbi onlara dünyada Allah'ın varlığına dair xatırladıcılar gəlməsinə baxmayaraq, Allah'ın hədlərini qorumamaları və dünyaya təkrar göndərilsələr də, yenə qorumayacaqlarıdır. Bu Quran ayələri ilə xəbər verilmiş qəti bir həqiqətdir:

**"Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələri yalan saymayıb möminlərdən olardıq", -dediklərini görəydin! Xeyr! Əvvəllər gizlətdikləri günahlar onlara aşkar oldu. Əgər onlar geri qaytarılsaydılar, yenə də özlərinə qadağan olunmuş şeylərə qayıdardılar. Şübhəsiz ki, onlar yalançıdırlar". ("Ənam" surəsi, 27-28)**

Hesablarını verərkən də alovlandırılan cəhənnəm onları gözləyir. Törətdiklərinin heç biri ötürülmədən qarşılığını görmək üçün cəhənnəmə yollanarlar. Bir ayədə böyük hesab belə izah olunur:

**“Səhifələr açılacağı zaman, göy qopardılacağı zaman, cəhənnəm alovlandırılacağı zaman və cənnət möminlərə yaxınlaşdırılacağı zaman, hər kəs bu gün üçün özünə nə tədarük etdiyini biləcəkdir”. (“Təkvir” surəsi, 10-14)**

Möminlər üçün isə olduqca asan bir hesab olacağı “İnşiqaq” surəsində bildirilmişdir:

**“Ey insan! Sən, həqiqətən də, səy göstərib Rəbbinə tərəf can atırsan. Sən Onunla qarşılaşacaqsan! Kimin kitabı sağ əlinə veriləcəksə, o, yüngül sorğu-suala tutulacaq və sevincək öz ailəsinə qayıdacaqdır!” (“İnşiqaq” surəsi, 6-9)**

Möminlər dünyadakı həyatlarını, onları yaradan və doğruya yönəldən Rəbbimizin istədiyi şəkildə yaşamışlar. Günahlarını isə sonsuz rəhmət sahibi olan Allah bağışlayacaq. Allah bir çox ayədə iman gətirib saleh əməllər edənlərin günahlarını yaxşılıqlara çevirib bağışlayacağını bildirmişdir. O gün Rəbbimizin vəd etdiklərinə qovuşan möminlərə Allah belə buyurur:

**“O gün möminə deyiləcəkdir: “Ey arxayın olan kəs! Razı qalmış və razılıq qazanmış halda, öz Rəbbinə tərəf dön! Mənim qullarımın cərgəsinə keç! Cənnətimə daxil ol!” (“Fəcr” surəsi, 27-30)**

Beləliklə, möminlər Allah’ın onlara olan lütfü və ehsanı sayəsində sonsuz atəş əzabından xilas olacaq və Rəbbimizin sonsuz nemətləri ilə dolu olan cənnətə qovuşacaqlar. “Cənnətə gir”, -deyiləndə mömini cavabı Quranda belə xəbər verilir:

**“Onlar deyəcəklər: “Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allah’a həmd olsun! Biz cənnətin istədiyimiz yerində sakin oluruq. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!”” (“Zumər” surəsi, 74)**

## Din günündə inkar edənlərin vəziyyəti

### <u>Fiziki durumları</u>

Din günündə insanlar yeni bir yaradılışa sahib olacaqlar. Buna görə, möminlərin üzü imanın nuru və gözəlliyini əks etdirərkən kafirlər çirkinləşərlər:

**"Bu dünyada onları lənətə düçar etdik. Qiyamət günü isə onlar Allah'ın rəhmətindən qovulmuş kimsələrdən olacaqlar". ("Qəsəs" surəsi, 42)**

Yenə bir çox ayədə o gün inkar edənlərin üzlərini toz, zillət və qaraltı bürüyəcəyi və qapqara olacağı bildirilmişdir:

**"O gün neçə-neçə üzlərə toz-torpaq hopacaq, onları zülmət bürüyəcəkdir. Məhz onlardır kafirlər, günahkarlar!" ("Əbəsə" surəsi, 40-42)**

**"Sən qiyamət günü Allah'a qarşı yalan uyduranların üzlərini qapqara görəcəksən. Məgər cəhənnəmdə təkəbbürlülər üçün yer yoxdur?" ("Zumər" surəsi, 60)**

Üzlərdəki bu fiziki çirkinləşmə metafizik bir vəziyyətdir. Allah'ın istədiyi kimi yaşayıb, heysiyyətli bir həyatı seçməyən bu insanlar nəfslərinə uyarkən, əslində, özləri alçalmağı qəbul edirlər. Nəfsə təslim olmağın, vicdana qarşı gəlməyin çirkinliyi və şərəfsizliyi ilə daxili aləmləri böhran keçirir. Elə buna görə, alçalmışlar olaraq cəhənnəmə atılırlar:

**"Biz istəsəydik, bunun sayəsində onu ucaldardıq. Lakin o, dünyaya meyil saldı və öz istəyinə uydu. Onun məsəli itin məsəlinə bənzəyir, onu qovsan da, dilini çıxardıb ləhləyər, qovmasan da. Ayələrimizi yalan hesab edənlərin məsəli belədir. Bu əhvalatları onlara danış ki, bəlkə, fikirləşələr". ("Əraf" surəsi, 176)**

Nəfsin kiçik hiylələri qarşısında məğlub olan bu insanlar dünyada təkəbbür göstərməyin qarşılığını axirətdə alçaldılma olaraq alacaqlar. "Ğaşiyə" surəsinin 2-ci ayəsində inkarçıların yalnız fiziki çirkinliklərindən deyil, eyni zamanda, alçaldılmalarından da bəhs edilir:

**"O gün neçə-neçə üzlər zəlil olub yerə dikiləcək". ("Ğaşiyə" surəsi, 2)**

Xəbərdarlıqlara baxmayaraq, ayələri diqqətə almamış, tətbiq etməyə cəhd etməmiş və vəziyyətlərini düzəltməmiş inkarçılar o anda heç gözləmədikləri qədər alçaq və çarəsiz vəziyyətə düşməyin peşmançılığını yaşayacaqlar. Allah'ın ayələrini rədd edib öz həvəslərinə uyğun həyat tərzini seçənlər Quranda təsvir olunan əzaba bu rəftarları ilə layiq olduqlarını sübut edirlər. Bu şəxslərin hesab günündə düşəcəkləri vəziyyət olduqca çətin olacaq. Allah, heç şübhəsiz, haqq ilə hökm etməsi və ədaləti ilə vədlərini gerçəkləşdirəcək. Ayələrdə belə buyurulur:

**"Allah kimi doğru yola yönəldirsə, o, doğru yoldadır. Kimi azdırırsa, onlara Ondan başqa dostlar tapa bilməzsən. Qiyamət günü Biz onları kor, lal və kar olduqları halda, üzü üstə bir yerə toplayacağıq. Onların sığınacaqları yer cəhənnəmdir. Onun alovu azaldıqca onlar üçün alovu artıracağıq". ("İsra" surəsi, 97)**

**"O deyəcək: "Ey Rəbbim! Mən dünyada görürdümsə, indi nə üçün məni kor olaraq gətirdin?" Allah deyəcək: "Elədir! Çünki sənə ayələrimiz gəldi, sən isə onları unutdun. Bu gün də sən beləcə unudulacaqsan!"" ("Taha" surəsi, 125-126)**

Quranda kafirlərin, baxışlarını o gün zillətdən aşağı dikəcəkləri belə bildirilir:

**"Onlar zəlil baxışlarla gözlərini aşağı dikmiş halda, ətrafa**

**yayılan çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar". ("Qəmər" surəsi, 7)**

Kafirlərin kor və zillətdən yerə dikilmiş gözləri də görünüşlərindəki qorxuncluğu və iyrəncliyi artırır. Gözdəki ifadə və dəhşət verici görüntü o gün inkarçılara verilmiş bir xüsusiyyətdir. Allah "Taha" surəsində bu şəxsləri belə təsvir edir:

**"O gün sur üfürüləcək və o gün günahkarları gözləri gömgöy göyərmiş halda, bir yerə toplayacağıq". ("Taha" surəsi, 102)**

Yenə Quranda Allah'ın göndərdiyi elçilərə və ayələrinə qarşı təkəbbür göstərən bu insanların din günü burunları üzərinə damğa vurulacağı bildirilmişdir:

**"Biz onun burnuna damğa vuracağıq". ("Qələm" surəsi, 16)**

Bu vəziyyət haqsız yerə təkəbbür göstərən insanlar üçün mühüm alçalma səbəbidir. Burunların xortum olaraq təsvir edilməsi və xortumların üzərinə iyrəncliklərini artıran damğaların vurulması, inkarçıların axirətdəki çirkinliyini və rəzil durumlarını göstərir. Axirətdə olduqca rahat mühitlərdə yaşayacaq möminlərdən fərqli olaraq, inkarçılar davamlı alçalacaqlar. Möminlər və inkarçılar arasındakı bu fərq ayələrdə belə bildirilir:

**"O gün (neçə-neçə) üzlər nurlanacaq və öz Rəbbinə baxacaqdır. O gün (neçə-neçə) üzlər də tutulub qaralacaq və yəqin edəcək ki, onlara müsibət artıq üz vermişdir". ("Qiyamət" surəsi, 22-25)**

Nə qaçmaq, nə də gizlənmək imkanları vardır. Allah Quranda görünüşləri ilə dərhal tanınan kafirlərin alınlarından və ayaqlarından tutularaq cəhənnəmə atıldığını belə bildirmişdir:

**"Günahkarlar simalarından tanınacaq, kəkillərindən və**

**ayaqlarından yaxalanacaqlar”. (“Rəhman” surəsi, 41)**

## Danışmalarına izn verilməyəcək

İnkar edənlər o gün həyatlarına aid unutduqları hər hərəkətin qarşılarına çıxmasını təsvir oluna bilməyən heyrət və peşmançılıqla qarşılayacaqlar. Quranda bəhs edilən “kaş ki” və ya “heyf” şəklindəki fəryadları peşmançılıqlarının heç bir faydasının olmadığını başa düşdüklərini göstərir.

**“Kaş, biz Allah’a ibadət edəydik. Onun Elçisinə müti olaydıq”** (Əhzab surəsi, 66) -deyərək heyfsilənən bu insanların üzrxahlıqlarının və heyfsilənmələrinin artıq heç bir təsiri yoxdur. Yalvarış və fəryadlarına, kömək çağırışlarına Allah’dan gələn qarşılıq Quranda belə izah olunmuşdur:

**“Və onlara deyiləcəkdir: “Siz bu gününüzlə qarşılaşacağınızı unutduğunuz kimi, Biz də bu gün sizi unudacağıq. Sizin sığınacaq yeriniz cəhənnəmdir. Sizin köməkçiləriniz də olmayacaqdır”. (“Casiyə” surəsi, 34)**

Bunlara baxmayaraq, həmin insanlar Allah’dan kömək istəməyə davam edəcəklər. Bir qismi Allah’dan yox olmağı istəyəcək. Bir qismi qarşılaşdığı əzabdan xilas olmaq üçün sahib olduqlarını fidyə olaraq vermək, bir qismi də dünyaya geri qayıdıb etdiklərini düzəltmək istəyəcək. Quranda bu insanların saleh əməllər etmək üçün dünyaya geri qayıtmaq istədikləri belə izah olunur:

**“Kaş ki, günahkarları öz Rəbbi qarşısında başlarını aşağı dikərək: “Ey Rəbbimiz! Biz gördük və eşitdik. Bizi geri qaytar ki, yaxşı işlər görək. Həqiqətən də, biz qəti inandıq!” (-deyəndə) görəydin!” (“Səcdə” surəsi, 12)**

Bu yalvarmaları onları əhatəyə alan qorxunc əzabdan xilas ola bilmək üçündür. Halbuki, dünyaya geri qayıtsalar belə, inkarçıların

əvvəlki mövqelərinin əsla dəyişməyəcəyini Allah bildirmişdir. Bu insanlar üçün artıq heç bir şəkildə qurtuluş yoxdur. Kafirlər onları yaradan və yaşadan Allah'a üsyan etməklə ola biləcək ən böyük günahı törədiblər. Buna görə, hesab günü özlərini müdafiə etmələrinə belə izn verilməyəcək. Allah bu həqiqəti ayələrdə belə bildirir:

**"Qiyaməti yalan sayanların o gün vay halına! Bu, günahkarların danışa bilməyəcəkləri bir gündür. Onlara üzrxahlıq üçün izin belə verilməyəcəkdir. Qiyaməti yalan sayanların o gün vay halına!" ("Mürsəlat" surəsi, 34-37)**

Belə ki, Quranda Allah'ın inkarçıların etdiklərinə qarşılıq olaraq din günündə bu insanlarla danışmayacağı, onları qorumayacağı və günahlardan təmizləməyəcəyi bildirilmişdir. Mövzu ilə bağlı ayələrdən bəziləri bunlardır:

**"Şübhəsiz ki, Allah'ın nazil etdiyi kitabdan olanları gizli saxlayanlar və bununla cüzi miqdarda pul əldə edənlər öz qarınlarına oddan başqa bir şey doldurmurlar. Qiyamət günü Allah onları danışdırmaz və onları təmizə çıxarmaz. Onlar üçün üzücü bir əzab vardır". ("Bəqərə" surəsi, 174)**

**"Həqiqətən də, Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kəslər üçün axirətdə heç bir pay yoxdur. Allah onları danışdırmayacaq, Qiyamət günü onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün üzücü bir əzab vardır". ("Ali-İmran" surəsi, 77)**

**"Allah buyuracaq: "Orada alçalmış vəziyyətdə qalın və Mənə heç nə deməyin!" ("Muminun" surəsi, 108)**

İnsanların qəzəbi Allah'ın inkarçılara qəzəblənməsi ilə müqayisə edilə bilməz. İnsan nə qədər hiddətlənsə də, bunun nəticəsində verə biləcəyi cəza məhduddur. Halbuki, Allah'ın qəzəbi təsəvvür edilə

bilməz qədər böyükdür. Ağıla və təsəvvürə gəlməyəcək dərəcədə dəhşətli bir qarşılıq vardır bu qəzəbin nəticəsində. Qəzəbin ölçüləri insan ağlının və xəyal gücünün sərhədlərindən çox kənardadır. Quranda bu həqiqət belə ifadə olunur:

**"Kafirlərə belə xitab olunacaq: "Siz imana dəvət olunarkən küfrünüzdə israr etdiyiniz zaman Allah'ın sizə olan nifrəti indi sizin özünüzə olan nifrətinizdən daha böyük idi"" ("Ğafir" surəsi, 10)**

## Qorxu içində olmaları

İnkarçıların sonsuza qədər davam edəcək qorxu və peşmançılıqları ölüm mələklərinin onların canını almağa gəlməsi ilə başlayır. Bu zaman heç bir inkarçı qaçmağa cəhd edə bilməz. Çünki bu, sondur və ölümlə birlikdə sonsuz həyata daxil olunur. Elə o anda təsvir edilməz bir qorxu bütün mənliklərini əhatəyə alır və dünyada özlərinə bildirilən əzab həqiqətinin ilk anlarının başladığını anlayırlar. Allah "Ənam" surəsində belə buyurur:

**"Allah'a qarşı yalan uydurandan və ya özünə vəhy olunmadığı halda: "Mənə də vəhy olunmuşdur", -söyləyəndən və: "Mən də Allah'ın nazil etdiyinin bənzərini endirəcəyəm", – deyəndən daha zalım kim ola bilər? Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb: "Canlarınızı çıxarın! Allah'a qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə, bu gün siz cəzalandırılacaqsınız!" (-dediklərini) bircə görəydin". ("Ənam" surəsi, 93)**

Dünyada əldə etdikləri bütün zənginlikləri arxalarında buraxıblar. O gün sahib olduqları heç bir şeyin mənası yoxdur. Qazandıqları, güvəndikləri heç kimə bir fayda verə bilməyəcək. Ayədə bildirildiyi

kimi, Allah’ın hüzurunda tənhadırlar:

**“Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz (nemətləri) arxanızda qoyub gəldiniz. Öz aranızda (Allah’a) şərik saydığınız şəfaətçilərinizi də yanınızda görmürük. Artıq aranızda əlaqə qırılmış, iddia etdiyiniz (tanrılar) isə sizdən uzaqlaşmışdır”. (“Ənam” surəsi, 94)**

İnkarçıların əl və ayaqları, adətən, bağlanmış kimidir. Dünyada çox sevdikləri, öz istəkləri yönündə istifadə etdikləri bədənlərinə söz keçirə bilməzlər, sahib çıxa bilməzlər. Etmək istədiklərini heç cür edə bilməzlər. Belə ki, Quranda bu insanların o gün səcdəyə dəvət ediləcəkləri, lakin səcdə etməyə belə güclərinin çatmayacağı bildirilmişdir:

**“Ayağın açılacağı və onlar səcdəyə çağırılacaqları, lakin (buna) qadir ola bilməyəcəkləri gün – onların baxışları yazıq görkəm alacaq, özlərini də zəlalət bürüyəcəkdir. Hərçənd ki, onlar (dünyada) ikən sağ-salamat halda səcdə qılmağa dəvət olunurdular”. (“Qələm” surəsi, 42-43)**

Hər şeyin sahibi Allah’dır və hər şey Onun diləməsi ilə yaranır. İnkarçıların səcdəyə çağırılmalarının səbəbi dünya həyatı boyu etməyib ertələdiklərindən dolayı bir sıxıntı və peşmançılıq duymalarını təmin etməkdir. Daha əvvəl təkəbbür göstərərək Allah’a səcdə etməyi rədd edən bu insanlar o gün istədikləri halda, bunu edə bilməyəcəklər. Sorğu-sual edilib cəhənnəmə yollanacaqlar.

**“Allah ilə qarşılaşmağı yalan sayanlar artıq ziyana uğramışlar. O saat onları qəflətən haqladıqda onlar öz günah yüklərini bellərində daşıyaraq deyəcəklər: “Dünyada buraxdığımız əməllərə görə vay halımıza!” Onların daşıdıqları şey necə də pisdir!” (“Ənam” surəsi, 31)**

İnsan həyatı boyu tez-tez peşmançılıq hissi keçirir. Etdiklərini düzəltmək imkanı da vardır. Amma nədənsə təkəbbüründən dolayı düzəltməyə heç cəhd etmir, doğruya heç vaxt yönəlmir. Çünki özünün ən doğrunu bildiyini zənn edir, buna görə də hər öyüdə qulaqlarını tıxayır. Amma o gün insan dünyada etdiyi bu hərəkətinə görə ciddi peşmançılıq duyacaq. Ancaq duyulan bu peşmançılığın heç bir faydası olmayacaq. İnkar edənlər o gün etdikləri əməlləri düzəltməyi çox istəyəcəklər. Allah'a özlərini dünyaya geri qaytarması üçün yalvaracaqlar. Dünyadakı mallarının, oğullarının, həyat yoldaşlarının, adət-ənənələrinin, bir təməli olmadan müdafiə edilən fikirlərin nə qədər mənasız və faydasız olduğunu, sadəcə Allah üçün edilən işlərin bir dəyəri olduğunu tam olaraq dərk edəcəklər. Lakin bu idrakın onlara bir faydası olmayacaq.

Bəziləri isə təkəbbürlərindən belə dəhşətli bir anda da peşmançılıqlarını gizləməyə çalışacaqlar. Bunu xəbər verən ayədə belə buyurulur:

**"Əgər zalım olan hər kəs yer üzündə olanların hamısına sahib olsaydı, mütləq onu əzabdan qurtarmaq üçün fidyə verərdi. Onlar əzabı gördükdə dərindən peşman olarlar. Onların arasında ədalətlə hökm verilər və onlara zülm edilməz". ("Yunis" surəsi, 54)**

Günahlarını bilmələrinə baxmayaraq, bunu bəlli etməzlər. Halbuki, gördükləri qarşılığa layiqdirlər və başlarına gələnlər Allah'ın ədalətinin bir nəticəsidir. Allah o gün iman gətirənlərlə inkar edənləri qəti şəkildə bir-birindən ayıracaq. İnkar edənlərin cəhənnəmə girənə qədər qarşılaşdıqları hər hadisə şeytanın yolunu doğru yoldan üstün tutmalarına görədir. Bu qorxunc qarşılaşmaya, həqiqətən də, layiqdirlər.

**"Pis əməllə gələnlər isə üzüstə oda atılarlar. Onlara deyilər: "Məgər siz ancaq etdiyiniz əməllərə görə cəzalandırılmırsınızmı?"" ("Nəml" surəsi, 90)**

Peşmançılığı gətirən çoxlu səbəb olacaq. Əzab içində tənha qalacaqlar. Öz dəriləri əleyhlərində şahidlik edəcək və sonsuz əzabın dəhşətini yaşayacaqlar. Cəhənnəmi görüb necə bir dəhşətlə qarşılaşacaqlarını anlayacaqlar. Koruna güvəndikləri saxta ilahları yuxu kimi yox olacaq. Şeytan da onları tənha buraxacaq. Şeytanın sözləri Quranda belə xəbər verilir:

**"İş bitdikdə şeytan deyəcək: "Həqiqətən də, Allah sizə gerçək vəd etmişdi. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi azğınlığa dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Heç şübhəsiz ki, mən əvvəllər də sizin məni Allah'a şərik qoşmağınızı rədd etmişdim". Həqiqətən, zalımlar üçün üzücü bir əzab hazırlanmışdır". ("İbrahim" surəsi, 22)**

O gün möminlər inkarçıların düşdüyü bu çarəsiz vəziyyətə baxacaq, bu rəzilliyin nəticəsində başları önlərinə düşmüş kafirlər isə peşmançılıqdan dolayı ancaq göz ucu ilə möminlərə baxa biləcəklər. Bu həqiqət bir ayədə belə bildirilir:

**"Cəhənnəm qarşısına gətirildikləri zaman sən onların zəlillikdən başlarını aşağı salıb gözucu, gizlin-gizlin baxdıqlarını görəcəksən. Möminlər deyəcəklər: "Şübhəsiz ki, ziyana uğrayanlar qiyamət günü özlərini və ailələrini itərənlərdir". Həqiqətən, zalımlar daimi əzab içində olacaqlar". ("Şura" surəsi, 45)**

Axirətdəki peşmançılıq, şübhəsiz ki, dünyadakı nümunələri ilə müqayisə edilməyəcək dərəcədə böyükdür. Bu, geri qayıtmaq imkanı və çarəsi olmayan bir peşmançılıqdır. Artıq heç bir şəkildə dəyişdi-

rilməyəcək bir sonun çöküntüsünü, bunun ağır yükünü çiyinlərində hiss edirlər. Bu çöküntü və peşmançılıq böyük bir qəflətin nəticəsidir. Bu insanlar özlərini yaradan və demək olar ki, dünyanı bütün nemətləri ilə əmrlərinə verən Allah'ı inkar etmə cəsarətini göstəriblər. Seçdikləri bu inkar yolu axirətdəki yerlərini müəyyən etmişdir: bu məkan cəhənnəmdir. Ağıllarına belə gətirmək istəmədikləri hər cür kədərin, əzabın, qayğının sonsuza qədər yaşandığı yerdir ora. Allah'ın qəzəbinin nəticələri bütün əzəməti ilə qarşılarındadır artıq.

## Öz aralarında mübahisə etmələri

**"Onlar orada höcətləşərək deyərlər: "Allah'a and olsun ki, biz açıq-aşkar azğınlıq içində idik – o vaxt ki, biz sizi aləmlərin Rəbbinə tay tuturduq. Bizi ancaq günahkarlar azdırdı. İndi isə bizim nə şəfaətçilərimiz, nə də bizə canıyanan bir dostumuz var! Bir də dünyaya qayıda bilsəydik, möminlərdən olardıq!" Şübhəsiz ki, bunda bir ibrət vardır. Lakin onların əksəriyyəti yenə iman gətirmədi". ("Şüəra" surəsi, 96-103)**

İnkar edənlər o gün heç gözləmədikləri qədər böyük bir əzabla qarşılaşacaqlar. Yaşadıqları vəziyyətə görə həm özlərinə, həm də özlərini Allah'ın yolundan uzaqlaşdıran insanlara qarşı böyük bir qəzəb içində olacaqlar. Dünyada ikən ən əhəmiyyətli hədəflərdən biri olan məqam və mövqelərinin o gün heç bir mənası qalmayacaq. İnkarçılar o gün özlərini doğru yoldan azdıran liderlərinə qarşı qəzəb duyacaqlar. Dünyada ikən ardınca getdikləri bu insanlardan qaçaraq uzaqlaşmağa çalışacaqlar. Özlərinə tabe olan insanlar ilə o günkü mübahisələri isə ayələrdə belə izah olunur:

**"O zaman, tabe olunmuş başçılar tabe olunanlardan**

**uzaqlaşacaq, hamısı əzabı görəcək və aralarındakı əlaqələr kəsiləcəkdir. Tabe olanlar deyəcəklər: "Əgər bizim üçün dünyaya dönüş olsaydı, indi onlar bizdən uzaqlaşdıqları kimi, biz də onlardan uzaqlaşardıq!" Beləcə, peşman olsunlar deyə, Allah onlara özlərinin əməllərini göstərəcək və onlar heç vaxt cəhənnəm odundan çıxa bilməyəcəklər". ("Bəqərə" surəsi, 166-167)**

Allah Quranda dünyada insanları yanlış yönləndirən və Allah inancından uzaqlaşdıran səbəblər arasında öndə gələnlərin təsirinə də işarə etmişdir. Allah'ın müəyyən etdiyi ölçülərə görə deyil, insanların müəyyən etdiklərinə görə üstün qəbul edilən bu insanların özlərinə tabe olanlar üzərində təsirləri çox böyükdür. Bunun nəticəsində, insanların düşünmədən bağlandıqları liderləri onlara dünyanın keçici dəyərləri üçün yaşamanın doğru olduğunu öyrətmiş və boş işlərlə onları aldatmışdır. Lakin özləri də, tabe olanlar da dünyada etdikləri işlərin nə qədər böyük günah olduğunu görə bilməmişlər. Allah'a qarşı gəlib bir-birlərini dəstəkləmiş, öz istəklərinə tabe olmuşlar. Bu böyük qəflətin ortaya çıxdığı gün bir-birlərini günahlandırmağa başlayarlar. Bu günahlandırmalara baxmayaraq, hər iki tərəf də cəhənnəmdən çıxarılmayacaq.

Allah Özünə təslim olanları doğru yoldan azdıran bu liderləri Quranda belə təsvir edir:

**"Biz onları oda çağıran rəhbərlər etdik. Qiyamət günü onlara kömək edilməyəcəkdir. Bu dünyada onları lənətə düçar etdik. Qiyamət günü isə onlar Allah'ın rəhmətindən qovulmuş kimsələr olacaqlar". ("Qəsəs" surəsi, 41-42)**

**"Firon qiyamət günü öz camaatının qabağına düşüb onları Oda aparacaq. Girəcəkləri yer nə pis yerdir!" ("Hud" surəsi, 98)**

O gün inkar edənlər böyük həvəslə bağlandıqları liderləri ilə aralarında şərq və qərb uzaqlığının olmasını istəyəcəklər. Bu həqiqət "Zuxruf" surəsində belə xəbər verilir:

**"Kim mərhəmətli Allah'ın zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar. Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər. Nəhayət, o, hüzurumuza gəldikdə yoldaşına deyər: "Kaş ki, mənimlə sənin aranda məşriqlə məğrib arasındakı uzaqlıq qədər məsafə olaydı. Sən nə pis yoldaş imişsən!" Onlara deyilər: "Siz haqsızlıq etdiyinizə görə, şərik olmağınız sizə heç bir fayda verməz!"" ("Zuxruf" surəsi, 36-39)**

O gün insanlar dünyada çox sevdikləri, inandıqları, böyük həvəslə bağlandıqları insanların bir qismini tanımayacaq, bir qismini də inkar edəcək, hətta onlara lənət edəcəklər. Ayədə belə buyurulur:

**"İbrahim dedi: "Siz aranızda ancaq dünya həyatına bəslədiyiniz vurğunluğa görə Allah'ı qoyub bütlərə pərəstiş etdiniz. Sonra isə qiyamət günü bir-birinizi kafir adlandırıb lənətləyəcəksiniz. Sığınacağınız od olacaqdır. Sizə yardım edə bilən kəslər də tapa bilməyəcəksiniz". ("Ənkəbut" surəsi, 25)**

Quranda Allah'ı unudub Ondan başqasını razı salmağa çalışaraq ömrünü keçirən bu insanların Allah'ın hüzurunda bir-birləri ilə olan mübahisələri belə izah olunur:

**"Allah əmr edib deyəcək: "Atın cəhənnəmə hər bir inadcıl kafiri, xeyrə mane olanı, azğınlaşıb həddi aşanı, şübhə edəni, başqa bir məbudu Allah'a tay tutanı. Atın onu şiddətli əzabın içinə!" Yoldaşı şeytan deyəcəkdir: "Ey Rəbbimiz! Onu mən yoldan çıxartmadım, əksinə, o, özü**

**dərin azğınlıq içində idi!" Allah deyəcəkdir: "Mənim hüzurumda höcətləşməyin. Mən əvvəlcədən sizi xəbərdar etmişdim. Mənim sözüm dəyişməzdir. Mən bəndələrə zülm edən deyiləm!"" ("Qaf" surəsi, 24-29)**

Möminləri və onların getdiyi doğru yolu bəyənməyən bu insanlar din günündə möminləri öz yanlarında görə bilməyincə olduqca təəccüblənəcəklər. Təəccübləri isə ayələrdə belə xəbər verilir:

**"Günahkarlar deyəcəklər: "Bizə nə olub ki, dünyada ikən pis adamlar saydığımız kişiləri burada görmürük? Biz onları haqsızcasınamı məsxərəyə qoyurduq? Nə isə, onlar gözə dəymirlər?" Şübhəsiz ki, bu, od sakinlərinin bir-biri ilə höcətləşməsi bir həqiqətdir". ("Sad" surəsi, 62-64)**

Dünyada aralarındakı anlaşmazlıqlar heç vaxt sona çatmamış, öz həyatlarını öz əlləri ilə qaraltmışlar. Bir-birlərinə etdikləri bu zülmü görə bilmirlər. Yaşadıqları mühitdə, hətta yaxınları arasında belə rahat ola bilmirlər. Buna baxmayaraq, münaqişələrdən heç cür uzaqlaşmırlar. Möminlər dünyada və axirətdə həmişə hüzur içində olmalarına baxmayaraq, onlar daimi bir hüzursuzluq və sıxıntı mühitində yaşayırlar. Şübhəsiz, bu vəziyyət yaşadıqları və daimi olaraq yaşayacaqları əzab növlərindən biridir. Həm dörd tərəfdən əzabı dadacaqlar, həm də yaxınları zənn etdikləri insanlarla mübahisə edəcəklər.

## Alçaldılacaqlar

Allah'a qarşı təkəbbür göstərməyin nəticəsi alçaldılmaqdır. Axirətin varlığına inanmayan insanlar Allah'ın açıq-aşkar varlığını inkar edib laqeyd yaşamağın qarşılığını alacaqlar. Halbuki, insan o dünyadakı həyatında Allah'ın əzabına ehtimal vermir, bunu bir an belə düşünmür. Dünyada şeytanın əsgəri olmuş, onun aldatma üsullarına qapılmış və imtihandan ibarət olan bir həyatı boş bir məqsəd

uğrunda xərcləmişdir. Hətta Allah'a qarşı təkəbbürlülük onu başqa günahlara aparmışdır. Bu, şübhəsiz, böyük bir xətadır və nəticəsi axirətdə qorxunc bir əzab və böyük bir alçalmadır.

İnkarçılar, əlbəttə, haqsızdırlar. Nemət və ruzilərə necə sahib olduqlarını sorğu-sual etmədən özlərində bəzi zövqləri dadma haqqı görürlər. Ancaq axirətdə haqsız yerə təkəbbür göstərməyin qarşılığı olduqca böyük olacaq. Ayədə bu həqiqət belə ifadə edilir:

**"Kafirlər odun qarşısına gətiriləcəkləri gün onlara deyiləcəkdir: "Siz dünya həyatınızda pak nemətlərinizi sərf edib qurtardınız və onlardan zövq aldınız. Bu gün isə siz yer üzündə haqsız olaraq təkəbbür göstərdiyinizə və asi olduğunuza görə alçaldıcı əzabla cəzalandırılacaqsınız!"" ("Əhqaf" surəsi, 20)**

Dünya ilə bağlı cəhdlərlə ömrünü keçirən və axirəti əsla düşünməyən bu insanlar qiyamət günündə və sonrasında alçaldılacaqlar. Allah bu həqiqəti ayələrdə belə bildirmişdir:

**"Aləmi çulğalayanın xəbəri gəlib çatdımı? O gün neçə-neçə üzlər zəlil olub yerə dikiləcək, üzülüb əldən düşəcək". ("Ğaşiyə" surəsi, 1-3)**

**"Sonra qiyamət günü Allah onları rüsvay edəcək və deyəcək: "Haqqında mübahisə etdiyiniz şəriklərim haradadır?" Elm verilmiş kimsələr deyəcəklər: "Şübhəsiz ki, bu gün kafirlərə rüsvayçılıq və əzab üz verəcək!"" ("Nəhl" surəsi, 27)**

**"Qiyamət günü onun əzabı qat-qat artırılar və onun içində zəlil olub əbədi qalar". ("Furqan" surəsi, 69)**

Allah'a qarşı mübarizələrini çirkin cəsarətlə davam etdirən insanlar hesab gününə əhəmiyyət vermirlər. Allah'ın özləri üçün hazırladığı tələdən xəbərsiz yaşayırlar. Halbuki, bu tələ tayı-bərabəri

görünməmiş bir tələdir. Bütün inkarçı cəmiyyətlərə elçilər vasitəsi ilə edilən öyüdlər çox az bir qrupdan başqa heç kimə təsir etmir. Hətta bir qisminin inkarını daha da artıran bu xəbərdarlıqlar, əslində, onların məsuliyyətini də artırır. Allah dünyada özlərinə xatırladılan axirət həqiqətini qiyamət günü ən göstərişli şəkli ilə insanların hamısına göstərəcək.

Allah'ın vədinin nəticələrinin nə olduğunu inkarçılar o gün açıq bir şəkildə başa düşəcəklər. Həyatları əbədi olmamış və dünya həyatı bitmişdir. Artıq zövq və istəklərin bir hökmü yoxdur, yeganə həqiqət Allah'ın hökmüdür. Allah'a qarşı zülm içində olan bu insanlara etdiklərinin qarşılığı verilmişdir. Allah'ın hökmünə görə əzab və sıxıntı içində sonsuza qədər yaşayacaqlar. Belə olmaqla bərabər, Allah'dan bir rəhmət olaraq Peyğəmbərimizin (s.ə.v) belə bir hədisi də vardır:

Peyğəmbərimiz (s.ə.v) belə buyurmuşdur: **"Qəlbində zərrə qədər iman olan şəxs atəşdən çıxacaq".** Əbu Səid deyir ki: "Kim (bu həqiqətdən şübhəyə düşsə, bu ayəni oxusun: **"Allah, şübhəsiz, zərrə qədər haqsızlıq etməz..."** ("Nisa surəsi", 40) (Tirmizi, Sifatucəhənnəm 10, (2601))

İnananların layiq olduqları cənnətdəki sonsuz həyat bütün ehtişam və gözəlliyi ilə din günündə bütün insanlara göstəriləcək. Bir ayədə Rəbbimiz cənnətlə bağlı olaraq belə xəbər verir:

> **"Öz Rəbbindən qorxanları ağacları altından çaylar axan cənnət bağları gözləyir ki, onlar orada əbədi olacaqlar. Bu, Allah'dan bir ziyafətdir. Allah'ın dərgahında olan nemətlər möminlər üçün daha xeyirlidir". (Ali-İmran surəsi, 198)**

# NƏTİCƏ

Qiyamət saatı və ondan sonrakı sonsuz həyat insanları gözləyən ən mühüm həqiqətlərdir. Bu səbəbdən də kitab boyu dünya həyatının keçici olmasına dair izah olunanlar çox böyük əhəmiyyət daşıyır. Dünyadakı heç bir şey - karyeranız, evliliyiniz, malınız-mülkünüz uğrunda sonsuz həyatınızı sərf edəcəyiniz qədər mühüm deyil. Uğrunda yaşanması və cəhd edilməsi lazım olan tək şey Allah'ın rizasıdır. Allah sonsuz həyatın başlanğıcını çox böyük və ehtişamlı hadisələrlə gerçəkləşdirəcək. Bu günlə qarşılaşan hər kəs dünya həyatının artıq tamamilə sona çatdığını anlayacaq və axirətin varlığını qəti şəkildə qavrayacaq.

Bütün insanlar belə bir günlə qarşılaşmadan bəlkə də heç düşünmədiyi qiyamət saatını xatırlamalıdırlar.

Bu kitabda yazılanlar gündəlik işlərdən və müvəqqəti istəklərdən bir an üçün uzaqlaşmanıza və həyatın mövcud olmasındakı əsl məqsədi görmənizə kömək edir. Bu böyük və çətin gün gəlib çatmadan əvvəl sizləri qəti bir həqiqət olaraq qarşılaşacağınız qiyamət gününə qarşı xəbərdar etmək məqsədini daşıyır. Bu xəbərdarlıq mühüm bir xəbərdarlıqdır. Çünki belə bir günün və sonrasının varlığından qəflət içində yaşayan hər insanın qiyamət günü şahid olacağı hadisələr dözülməz olacaq və bu insanlar axirətdə sonsuza qədər çətinliklərlə qarşılaşacaq.

Quranda ətraflı şəkildə təsvir edilən qiyamət günü ilə mütləq qarşılaşacaqsınız. O günü bütün sahib olduqlarınızın, hətta öz bədəni-

nizin belə sizdən uzaqlaşdığını görəcək və yeni bir dirilişlə diriləcəksiniz. Sizi gözləyən sonsuz həyatda bu dünyadakı ilə müqayisə edilməyəcək bir nemət, rahatlıq və hüzur əldə etmək üçün Allah'ın sizlərə hələ dünyada ikən verdiyi fürsəti qiymətləndirməlisiniz. Bunun üçün edilməli vacib şey Allah'a iman gətirmək, onun qarşılıqsız olaraq verdiyi nemətlərə şükür etmək və axirət gününün qəti bir həqiqət olduğuna inanmaqdır. Bunun tam əksi axirətdə böyük bir peşmançılığa səbəb olacaq. Allah bir ayədə bunu belə xəbər vermişdir:

**"Allah ilə qarşılaşmağı yalan sayanlar artıq ziyana uğramışlar. O saat onları qəflətən haqladıqda onlar öz günah yüklərini bellərində daşıyaraq deyəcəklər: "Dünyada buraxdığımız əməllərə görə vay halımıza!" Onların daşıdıqları şey necə də pisdir!" ("Ənam" surəsi, 31)**

Elə bu səbəbdən, axirətin qəti bir həqiqət olduğunu düşünməli, bu böyük gün üçün hazırlıq etməlisiniz. Ancaq o zaman bu dünyada etdiklərinizin bir dəyəri olacaq, dünyada və axirətdə bənzərsiz bir qarşılıq ala biləcəksiniz. Bu qarşılıq, şübhəsiz, axirətdə nəfsinizin istədiyi hər şeyə sahib ola biləcəyiniz bir məkanda, yəni cənnətdə yaşamaq olacaq. Bu da unudulmamalıdır ki, hesab günü hər insan Allah'ın hüzurunda tək-tənha sorğuya çəkiləcək. O halda, ölüm və sonrası üçün ciddi cəhd göstərmək və hazırlıq görmək lazımdır. Çünki hər insan axirətdə dünyada etdiklərinin qarşılığını haqsızlığa məruz qalmadan tam olaraq alacaq. Hər şeydən əvvəl, insanın ən böyük qazancı, şübhəsiz, Allah'ın razılığıdır. "Həşr" surəsində Allah bu həqiqəti belə xəbər verir:

**"Ey iman gətirənlər! Allah'dan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allah'dan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır. Allah'ı unudan, buna görə də Allah'ın onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar fasiqdirlər". ("Həşr" surəsi, 18-19)**

# ƏLAVƏ BÖLMƏ
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən

digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

2) Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3)Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş

və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> "Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların

bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı  riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> "Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. *(B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi.

Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> "Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

> "Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

> "Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

> "Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". *(Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> "Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətir-

dikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- *Australopithecus*
- *Homo habilis*
- *Homo erectus*
- *Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "Australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus*

> *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> "Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər

canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> "Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi dü-

şünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad

edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün

fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın

səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm

həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu

açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

> "Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların**

**ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən**
**başqa bizdə heç bir bilik yoxdur!**
**Həqiqətən, Sən Bilənsən,**
**Müdriksən! (Bəqərə surəsi, 32)**